RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 62 (10082) 14 aprel 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## ÖZ XALQININ DÜŞMƏNİNƏ VƏ QATİLİNƏ ÇEVRİLƏNLƏR

SSRİ-dən qopduqdan sonra Ermənistana üç prezident başçılıq edib.

Adları və zahiri görkəmləri müxtəlif olsa da, mahiyyətləri bir-birindən fərqlənməyib.

Biri Ermənistanda, digər ikisi isə Azərbaycanın Qarabağ bölgəsində yaşayıb.

Bir-birlərini bəyənməsələr də, bir-birləri ilə yola getməsələr də, fəaliyyətləri eyni mahiyyət daşıyıb:

"Miatsum"u və separatizmi qızışdırdıqlarına, qonşulara qarşı ərazi iddiaları irəli sürərək düşmən mövqe tutduqlarına görə Ermənistanı blokadada saxlamış, müharibəyə və terrorçuluğa dəstək nəticəsində isə minlərlə hayın ölümünə səbəb olmuşlar.

Levon Ter-Petrosyan daim özünü sülhpərvər, ziyalı rəhbər kimi göstərməyə can atıb.

Amma Azərbaycan torpaqlarının bir qismi məhz onun dövründə işğala məruz qalıb.

Sülh danışıqlarında heç zaman razılaşmaya gəlməyib.

İşğalın bünövrəsini qoymaqla, xalqının məğlubiyyətinin və itkilərinin də təməlini yaradıb.

1993-cü ilin 23 iyulunda "Yerkrapa" terror təşkilatının üzvləri ilə görüşəndə "fəaliyyəti"nin məqsəd və mahiyyətini özü belə açıqlayıb:

"Təsəvvür edin, indi onlar Ermənistandadır. (Qərbi Azərbaycandakı azərbaycanlılar nəzərdə tutulur - red.) Əgər onlar Ermənistanda olsaydı, bizim dövlətimiz olmayacaqdı; biz onda şimal-şərq rayonlarını, Göyçəni müdafiə edə bilməyəcəkdik. Azərbaycanlılar 3 rayonda çoxluq təşkil edirdilər: bu, Vardenis (Basarkeçər), Masis (Zəngibasar) və Amasiyadır. Azərbaycanlılar Zəngəzur mahalında böyük üstünlük təşkil edirdilər. Bu problem həll edildi və bu, göydən hədiyyə kimi düşmədi. Bunu biz etdik, milli hərəkat etdi, erməni ümummilli hərəkatı və onun hərbi qanadı, özünümüdafiə batalyonları, bizim "Yerkrapa" dəstəsi. Həmçinin Qarabağ. Bu gün bütün Artsax (Qarabağ - red.), o cümlədən daha bir çox torpaqlar ermənilərin əlindədir".

Lakin Müzəffər Ali Baş Komandan İlham Əliyevin hərbi şücaəti sayəsində ermənilərin əlində heç nə qalmadı!

Necə deyərlər, it də getdi, ip də!

Bu gün Qarabağəsilli digər iki sabiq prezidentin vəziyyəti daha pisdir.

Hər ikisi komsomol və partiya xətti ilə inkişaf etmişdi.

Azərbaycan çörəyi ilə böyüyüb vəzifə sahibinə çevrilsələr də, sonradan yedikləri çörəyə xain çıxdılar.

Amma öz xalqlarına da heç bir fayda gətirmədilər.

Həm Qarabağda olanda, həm də Ermənistana başçılıq edəndə müharibə üçün müxtəlif ünvanlardan ayrılan pulları mənimsəyərək böyük sərvət topladılar.

Heç zaman da Azərbaycan xalqına nifrətlərini gizlətmədilər.

Faşistsayağı açıqlamaları ilə "tarix"ə düşdülər.

Robert Koçaryan: "Azərbaycanlılar və ermənilər genetik və etnik cəhətdən bir-birinə uyğun gəlmirlər. Ona görə də eyni ərazidə yaşaya bilməzlər".

Serj Sarkisyan: "Xocalıya qədər azərbaycanlılar düşünürdülər ki, biz onlarla, sadəcə, zarafat edirik. Azərbaycanlılar bu fikirdə idilər ki, ermənilər dinc sakinlərə əl qaldırmağı bacaran insanlar deyil. Bu fikirləri sındırmaq lazım idi. Belə də alındı".

"Sirkə nə qədər tünd olsa, öz qabını çatladar", - demişlər.

3

## O.R.Səttarovun Azərbaycan Respublikası Prezidentinin Mətbuat katibi təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Orxan Rəcəb oğlu Səttarov Azərbaycan Respublikası Prezidentinin Mətbuat katibi təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 aprel 2026-cı il*

## Birinci vitse-prezident Mehriban Əliyeva Müqəddəs Pasxa bayramı ilə bağlı paylaşım edib




## Etimad quruculuğu dayanıqlı sülhün təminatıdır



Dialoq çərçivəsində QHT nümayəndələri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə də görüşüblər. Hikmət Hacıyev iştirakçılarla fikir mübadiləsi aparıb, həmçinin erməni nümayəndə heyətinin suallarını cavablandırıb. Görüşdə Azərbaycan hökumətinin sülh gündəliyinə sadiqliyi vurğulanıb. Eyni zamanda iki ölkə arasında ticarət münasibətlərinin yaranması və Azərbaycan ərazisindən Ermənistana məhsulların tranzit keçidinin təmin olunduğu qeyd edilib. Prezidentin köməkçisi bəyan edib ki, Azərbaycan və Ermənistan arasında sülh gündəliyi üzrə danışıqlar ikitərəfli xarakter daşıdığı kimi, vətəndaş cəmiyyətləri arasındakı bu mübadilələrin və etimad quruculuğu tədbirlərinin də ikitərəfli xarakter daşıması vacibdir.

2

## Mütləq qələbənin Azərbaycan nümunəsi



Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasət, uzun illər ərzində formalaşdırılmış güclü iqtisadi baza və müasir ordu quruculuğu strategiyası bu qələbənin möhkəm təməlini formalaşdırdı. Dövlətimizin başçısının döyüş meydanında olduğu kimi, diplomatik arenada da qətiyyətli və prinsipial mövqeyi, beynəlxalq hüquqa əsaslanan legitim arqumentləri, apardığı effektiv fəaliyyət Azərbaycanın mövqeyini daha da gücləndirdi. 2023-cü ildə Qarabağda separatçı cinayətkarlara qarşı həyata keçirilmiş 23 saatlıq antiterror əməliyyatı isə prosesi məntiqi sonluğuna gətirdi. Qısa müddətdə, çox yüksək dəqiqliklə aparılmış bu əməliyyat ölkənin suverenliyinin tam bərpasını təmin etdi və bölgədə yeni reallıqlar yaratdı.

5

## Hərbdən sülhə



Qarabağ zəfəri rəşadətli Azərbaycan Ordusunun qəhrəmanlığı, Prezident İlham Əliyevin bütün xarici təzyiqlərə rəğmən prinsipial mövqeyindən bir addım belə geri çəkilməməsi sayəsində qazanıldı. Dövlətimizin rəhbəri beynəlxalq ədalətsizliklərə qarşı milli maraqlarımızı qətiyyətlə qorudu.

Azərbaycanın qələbəsi Cənubi Qafqazda onilliklərdir davam edən münaqişəyə son qoydu. 8 avqust Vaşinqton sammiti və sülh prosesi istiqamətində atılan addımlar, həmçinin Zəngəzur dəhlizi (TRIPP) kimi təşəbbüslər bölgədə yeni reallıqlar formalaşdırır.

Bütün bunlarla Azərbaycan müharibədən sonra məğlub tərəfə nifrət yox, sülh müqaviləsi təklif edən nadir ölkə kimi tarixə düşdü. Ölkəmizin bu sülhməramlı liderliyi beynəlxalq aləmdə də yüksək qiymətləndirilir. Əbu-Dabidə Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı" ilə təltif edilməsi də bunun əyani sübutudur. Həmin mükafat regionda onilliklər boyu davam edən münaqişəyə və humanitar əzablara son qoyan "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in paraflanmasına görə verilib.

6

## Süni intellekt 800-ə yaxın peşəni təhdid edir

Süni intellektin ən az təsir etdiyi peşələr əsasən fiziki əməyə əsaslanan işlərdir. Dam örtüyü ustaları, qaynaqçılar, mədənçilər, maşın operatorları və ət qablaşdırma sahəsində çalışan işçilər kimi peşələrdə avtomatlaşdırma riski çox aşağıdır. Bunun əsas səbəbi bu işlərin dəyişkən mühitdə həyata keçirilməsi və yüksək fiziki çeviklik tələb etməsidir. Digər tərəfdən, ABŞ senatoru Bernie Sanders tərəfindən təqdim olunan hesabatda vəziyyət daha da dramatik şəkildə təsvir olunur. Hesabata görə, süni intellekt və avtomatlaşdırma növbəti on il ərzində ölkədə 100 milyona yaxın iş yerini sıradan çıxara bilər. Bu rəqəm, əlbəttə, ən pessimist proqnozlardan biri hesab olunur, lakin ümumi tendensiyanın nə qədər ciddi olduğunu göstərir.

Süni intellektin əmək bazarına təsiri yalnız peşələr üzrə deyil, coğrafi baxımdan da qeyri-bərabər paylanır. Araşdırmalar göstərir ki, ən böyük risk şəhər mərkəzlərində və universitet şəhərciklərində çalışan insanlar üçün mövcuddur. Xüsusilə Kaliforniya, Nyu York, Texas, Florida və İllinoys kimi ştatlar süni intellektlə bağlı iş yerlərinin itirilməsi baxımından ön sıralarda yer alır. Bu isə gələcəkdə sosial və siyasi nəticələrə səbəb ola bilər.

12



# Prezidentin hədiyyəsi




**Azərbaycan Prezidenti İlham Əliyevin Qarabağa, Şərqi Zəngəzura eləcə də ölkəmizin başqa bölgələrinə olan səfərlərini xalqımız həmişə böyük maraqla izləyir, çıxışlarını diqqətlə dinləyir. Bu səfərlər zamanı yeni-yeni müəssisələrin, təhsil, səhiyyə, iaşə ocaqlarının, muzeylərin, yaşayış məntəqələrinin, eləcə də başqa obyektlərin açılış və təməlqoyma mərasimləri keçirilir. Dövlət başçımızın 17 mart 2026-cı ildə Xocavənd rayonunun Xanoba kəndinə olan səfərini də xalqımız yaxından izlədi.**

Dəfələrlə şahidi olmuşuq ki, Prezident İlham Əliyev səfərləri zamanı yaşlı insanlarla yanaşı, azyaşlı uşaqlarla da görüşüb söhbət edir, onlarla maraqlı dialoq qurur. Dövlət başçımız 17 mart 2026-cı ildə Xocavənd rayonunun Xanoba kəndinə səfərində də sakinlərlə görüşərkən balaca Ayazla səmimi söhbət etdi. Həmin vaxt Prezidentin avtomobilinin sükanı arxasına keçən Ayaz dövlət başçımızdan ona "KamAZ" hədiyyə etməsini istəmişdi.

Prezident İlham Əliyevin göstərişi ilə qısa müddət ərzində Ayazın arzusu yerinə yetirilmiş, onun istəyi reallığa çevrilmişdir. Dövlət başçısı hədiyyə olaraq Ayazın yaşadığı kəndə "KamAZ" markalı yük avtomobili göndərmişdir. Yük maşınının sükanı arxasına əyləşən Ayaz sevinə-sevinə "İlham baba mənə "KamAZ" göndərib", - deyə sevincini bölüşmüşdür.

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən "KamAZ" markalı yük maşını hədiyyə edilən Ayazın atası Bəybala Qasımov minnətdarlığını xoş sözlərlə ifadə edib. Bildirib ki, görüş zamanı övladı Ayaz Prezidentimizdən "KamAZ" istədi. Həmin an ölkə rəhbəri Ayazın əlindən tutaraq onu öz avtomobilinə tərəf apardı və maşına mindirərək soruşdu: - "Bu maşını istəyirsən, yoxsa "KamAZ"ı, Ayaz isə yenidən "KamAZ" istədiyini bildirdi. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmin vaxt Ayaza söz verdilər ki, onun qırmızı rəngli "KamAZ"ı olacaq. Bu gün həmin qırmızı "KamAZ" artıq bizim həyatimizdədir. Bütün bunlar çox qısa zamanda baş verdi. Ölkə rəhbərinin və birinci xanımın bizə qonaq gəlməsi, Ayazın onlardan "KamAZ" istəməsi - bunların hər biri bizim üçün yaddaqalan, unudulmaz anlardır. Mən özüm 10 yaşımda bu torpaqlardan çıxmışam, indi isə 44 yaşım var. Bu yaşımda belə sevincli anlar yaşamaq mənim üçün böyük qürur hissidir. Bu "KamAZ"la mən də çalışacağam ki, Qarabağımızda aparılan tikinti-quruculuq işlərinə töhfə verim".

Artıq balaca Ayaz arzusuna çatıb. Prezidentin bu hədiyyəsi Ayazın da, onun valideynlərinin də, xalqımızın da yaddaşından heç vaxt silinməyəcək.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Baş prokuror Kamran Əliyev Çin Xalq Respublikasında rəsmi səfərdədir

**Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğunun baş prokuroru Yinq Yonqun dəvətilə Şanxay şəhərinə işgüzar səfərə gedib.**



Səfər çərçivəsində baş prokurorla Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğunun



baş prokuroru Yinq Yonq arasında ikitərəfli görüş keçirilib.

Nümayəndə heyətini səmimi salamlayan cənab Yinq Azərbaycan və Çinin strateji tərəfdaş dövlətlər olduğunu bildirərək bir çox sahəni əhatə edən uğurlu əməkdaşlığın davam etdirildiyini vurğulayıb, qurumlararası tərəfdaşlıq münasibətlərinin inkişafından məmnunluğunu ifadə edib. Yinq Yonq ölkəmizin nümayəndə heyətinin daha öncəki səfərlərini xatırladıb. Ev sahibi həmçinin ölkələrimiz arasında imzalanmış Cinayət işləri üzrə qarşılıqlı hüquq yardım haqqında müqavilənin ölkələrimizin hüquq sistemləri arasında əməkdaşlığı daha dərinləşdirəcəyini qeyd edib.

Kamran Əliyev səmimi qəbula və yüksək qonaqpərvərliyə görə öz təşəkkürünü bildirərək qeyd edib ki, Çin uzun illər ərzində müxtəlif beynəlxalq platformalarda ölkəmizin siyasi təşəbbüslərini qətiyyətlə dəstəkləyib. Son illərdə ölkələrimiz arasında qarşılıqlı əlaqələr dövlət başçılarının siyasi iradəsi və səyləri nəticəsində yüksələn xətt üzrə inkişaf edərək strateji tərəfdaşlıq həddinə çatıb. Prezident İlham Əliyevin ötən il Çinə iki dəfə səfər etməsi, tərəflər arasında baş tutan mütəmadi görüşlər və ötən ilin aprel ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Çin Xalq Respublikasının Sədri cənab Si Cinpin tərəfindən "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın imzalanması bunun bariz nümunəsidir.

Bunun məntiqi davamı olaraq hər iki ölkənin prokurorluq orqanları arasında da möhkəm əməkdaşlıq əlaqələri qurulub və faydalı qarşılıqlı təcrübə mübadiləsi həyata keçirilib. Belə ki, Çin Ali Xalq Prokurorluğunun geniş tərkibli nümayəndə heyəti 2024-cü ildə Bakı şəhərində keçirilmiş Beynəlxalq Prokurorlar Assosiasiyasının Ümumi konfransı və İllik İclasında iştirak etmişdir. Eyni zamanda ötən il Azərbaycan Respublikası Prokurorluğunun geniş tərkibli nümayəndə heyəti Çində uzunmüddətli təlimdə olub.

Daha sonra cinayətkarlığın müxtəlif formalarına qarşı mübarizə, praktiki əməkdaşlıq məsələləri həmçinin hüquqi və institusional əməkdaşlığın genişləndirilməsi perspektivləri, prokurorluq əməkdaşlarının Çin Xalq Respublikasının ali təhsil müəssisələrində təhsilə cəlb edilməsi ətrafında fikir mübadiləsi aparılaraq razılıq əldə olunub.

Kamran Əliyev həmçinin qarşılıqlı əlaqələrin gücləndirilməsi məqsədilə həmkarını ölkəmizə səfərə dəvət edib.

Nümayəndə heyətinin səfəri davam edir, səfər çərçivəsində bir sıra görüşlərin keçirilməsi nəzərdə tutulur.

# Qəbələdə "Sülh körpüsü" təşəbbüsü çərçivəsində növbəti görüş keçirilib

**Qəbələ şəhərində "Sülh körpüsü" təşəbbüsü çərçivəsində Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələrini bir araya gətirən ikitərəfli "dəyirmi masa" keçirilib. Növbəti görüşdə hər iki ölkədən qeyri-hökumət təşkilatlarının, media qurumlarının və beyin mərkəzlərinin nümayəndələri iştirak ediblər.**





AZƏRTAC xəbər verir ki, Ermənistan nümayəndə heyəti Azərbaycana quru sərhədi vasitəsilə daxil olub, delimitasiya və demarkasiya olunmuş sahədən keçərək bütün müvafiq sərhəd və pasport nəzarəti prosedurları icra edib. Bu keçid faktının özü "Sülh körpüsü" təşəbbüsü çərçivəsində Azərbaycan və Ermənistan cəmiyyətləri arasında etimadın möhkəmləndirilməsi istiqamətində növbəti simvolik addım olub.

İki gün ərzində dörd müzakirə sessiyası keçirilib. İştirakçılar Cənubi Qafqazda və onun ətrafında baş verən geosiyasi prosesləri və onların sülh prosesinə təsirini müzakirə ediblər. Azərbaycanlı və erməni ekspertlər, həmçinin regional inkişafla bağlı öz ölkələrinin mövqeləri və baxışları barədə fikir mübadiləsi aparıblar.

İkitərəfli dialoqdan əvvəl "Sülh körpüsü" təşəbbüsünün nümayəndələri öz ölkələrində vətəndaş cəmiyyətinin müxtəlif seqmentləri ilə görüşlər və müzakirələr keçirərək ictimai gözləntiləri və sülh prosesinə dair yanaşmaları daha yaxşı anlamağa çalışıblar. Ayrı bir sessiyada təşəbbüs iştirakçıları bu görüşlərin nəticələrini təqdim edərək cəmiyyətlərdə mövcud əsas narahatlıqları, gözləntiləri və baxışları vurğulayıblar.

İctimai gözləntiləri nəzərə alaraq, iştirakçılar yekun sessiyanı sülh prosesinin növbəti mərhələlərində həyata keçiriləcək birgə və fərdi fəaliyyətlər barədə fikir mübadiləsinə həsr ediblər.

Aprelin 11-də "Sülh körpüsü" təşəbbüsü çərçivəsində keçirilən dördüncü ikitərəfli "dəyirmi masa"nın iştirakçıları Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə görüşüblər. Görüş zamanı regional təhlükəsizlik, sülh prosesinin siyasi səviyyədə gedişi və vətəndaş cəmiyyətinin normallaşma prosesinə töhfəsi müzakirə olunub.

İkigünlük dialoq dördüncü görüşün nəticələrinin yekunlaşdırıldığı mətbuat konfransı ilə başa çatıb.

Vətəndaş cəmiyyəti nümayəndələrinin son görüşü konstruktiv dialoq, açıq müzakirələr və sülh gündəliyinə alternativin olmadığına dair bir daha təsdiq mühitində keçirilib. Azərbaycan və Ermənistan hökumətlərinin dəstəyilə "Sülh körpüsü" təşəbbüsü çərçivəsində təşkil olunan dialoqun iştirakçıları sülh prosesinin növbəti mərhələlərində etimadın möhkəmləndirilməsi istiqamətində birgə səyləri davam etdirmək niyyətlərini ifadə ediblər.

# Etimad quruculuğu dayanıqlı sülhün təminatıdır

## Qarşılıqlı səfərlər və intensiv təmaslar barış mühitinin formalaşmasına xidmət edir

**Azərbaycan və Ermənistan arasında Vaşinqton sammiti ilə bünövrəsi möhkəmlənən ikitərəfli sülh gündəliyi vətəndaş cəmiyyətlərinin aktiv iştirakı ilə daha da zənginləşir. Bu kontekstdə "Sülh körpüsü" təşəbbüsü çərçivəsində vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə növbəti "dəyirmi masa" keçirilib. Aprelin 10-dan 12-dək Qəbələdə təşkil edilən görüşdə iki ölkənin vətəndaş cəmiyyəti nümayəndələri arasında dialoq və birbaşa əlaqələrin təşviqi məsələləri müzakirə olunub.**

Erməni nümayəndə heyəti Azərbaycana pasport nəzarəti prosedurlarından keçərək quru sərhədi vasitəsilə, delimitasiya və demarkasiya edilmiş sahədən daxil olub. Təşəbbüsün koordinatoru, Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktoru Fərhad Məmmədov keçidlərin quru sərhədinin demarkasiya və delimitasiya olunmuş hissəsindən reallaşmasının simvolik məna daşıdığını deyib. F.Məmmədov bildirib ki, dialoq çərçivəsində dörd müzakirə sessiyası keçirilib, onlardan ilk iki sessiya geosiyasi və politoloji xarakter daşıyıb. Üçüncü və dördüncü sessiyalarda isə vətəndaş cəmiyyətlərinin gələcək fəaliyyəti müzakirə olunub.

Ermənistan nümayəndəsi Areq Koçinyan dördüncü görüşün keçirilməsinin böyük nəticəsi olduğunu söyləyib. Onun sözlərinə görə, "Sülh körpüsü" təşəbbüsünün iki əsas məqsədi var: "Birincisi, Ermənistan və Azərbaycanda 30 ildən çox davam edən münaqişədən sonra cəmiyyətləri sülhə hazırlamaqdır. Bu, çox vacibdir. İkincisi isə bu platforma ekspertlərə dövlət səviyyəsində aparılan danışıqlarda hələ müzakirə olunmayan yeni ideyalar və suallar irəli sürmək imkanı verir, tərəflərin bu ideyalara reaksiyasını yoxlamağa şərait yaradır. Bəzən bu məsələlər rəsmi danışıqlara da daxil edilir".

Vətəndaş cəmiyyətləri nümayəndələrinin Qəbələdə keçirdiyi görüş siyasi və humanitar baxımdan mühüm mesajlar verir. Vurğulandığı kimi, görüşün diqqətçəkən məqamı erməni nümayəndə heyətinin Azərbaycana gəliş formasıdır. QHT nümayəndələri üçüncü ölkə vasitəsilə deyil, birbaşa quru sərhədindən Azərbaycana keçiblər. Keçidin məhz delimitasiya və demarkasiya edilmiş sahədən baş tutması dövlət sərhədinin hüquqi-fiziki müstəvidə tanınmasının praktiki təsdiqidir. Bu həm də prosesin beynəlxalq hüquq çərçivəsində tənzimləndiyinin göstəricisidir.

Bu cür təmasların intensiv hal alması göstərir ki, sülh prosesi, sadəcə, masadakı sənədlərdən ibarət deyil, həm də vətəndaş cəmiyyəti səviyyəsində müzakirə edilən canlı prosesə çevrilməkdədir. Rəsmi səviyyədə hələlik müzakirə edilməyən bəzi həssas məsələlərin ilkin mərhələdə ekspertlər səviyyəsində sınaqdan keçirilməsi dövlət diplomatiyasına töhfədir.

Dialoq çərçivəsində QHT nümayəndələri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə də görüşüblər. Hikmət Hacıyev iştirakçılarla fikir mübadiləsi aparıb, həmçinin erməni nümayəndə heyətinin suallarını cavablandırıb. Görüşdə Azərbaycan hökumətinin sülh gündəliyinə sadiqliyi vurğulanıb. Eyni zamanda iki ölkə arasında ticarət münasibətlərinin yaranması və Azərbaycan ərazisindən Ermənistana məhsulların tranzit keçidinin təmin olunduğu qeyd edilib. Prezidentin köməkçisi bəyan edib ki, Azərbaycan və Ermənistan arasında sülh gündəliyi üzrə danışıqlar ikitərəfli xarakter daşıdığı kimi, vətəndaş cəmiyyətləri arasındakı bu mübadilələrin və etimad quruculuğu tədbirlərinin də ikitərəfli xarakter daşıması vacibdir.

Hikmət Hacıyevin prosesdə iştirakı dialoqa rəsmi dövlət dəstəyinin və sülhə verilən yüksək əhəmiyyətin göstəricisidir. Önəmli məqamlardan biri iqtisadi münasibətlərin real müstəviyə keçməsidir. İki ölkə arasında ticarət əlaqələrinin yaranması sülhün qarşılıqlı iqtisadi mənfəət üzərində qurulduğunun əyani sübutudur. Bununla paralel Azərbaycan ərazisindən Ermənistana məhsulların tranzitinin təmin olunması regionun nəqliyyat-logistika mərkəzinə çevrilməsi yolunda əhəmiyyətli addımdır. Bu, gələcəkdə daha böyük regional layihələrin, nəqliyyat dəhlizlərinin təməli sayıla bilər.

Görüşdə sülh prosesinin və vətəndaş cəmiyyəti dialoqunun ikitərəfli formatda aparılmasının vurğulanması da mühümdür. İkitərəfli dialoq kənar vasitəçilərin maraqlarından uzaq, birbaşa və daha səmimi müzakirə mühitinin yaradılmasına xidmət edir. Vasitəçisiz təşkil edilən görüşlər tərəflərdə əlavə məsuliyyət yaradır, daha geniş təmaslara təkan verir. Həm də etimad quruculuğu tərəflərin daxili iradəsi ilə həyata keçirildikdə daha dayanıqlı olur.

Prezidentin köməkçisi nümayəndələrlə görüşdə Ermənistanın daxili siyasi mühitində revanşist qüvvələrin mövcudluğuna və müharibə çağırışlarının regionda sabitliyə təhdid yaratmasına da diqqət çəkib: "Bu çağırışlar regionu yenidən qeyri-sabitliyə sürükləmək riski yaradır. Amma Ermənistan cəmiyyətinin özünün sülhə can atdığını görmək bizə ümid verir ki, prosesi pozmağa çalışan qüvvələr sonda uğursuzluğa düçar olacaq".

Sülh prosesinin yekun mərhələsində barışı təhdid edən addımlarla bağlı ciddi xəbərdarlığın edilməsi çox vacibdir. Ermənistan daxilində sülhə qarşı çıxan revanşist qüvvələrin fəaliyyətini genişləndirməsi, xüsusən parlament seçkisi öncəsi təbliğatın miqyasının böyüməsi regionda sabitlik üçün əsas maneədir. Buna baxmayaraq, rəsmi İrəvanın və Ermənistan cəmiyyətinin sülhə meyilli olması prosesin uğuruna dair müsbət gözləntiləri artırır. Ən azından ümid edilir ki, erməni toplumu onları fəlakətə düçar etmiş revanşistlərə yenidən siyasi dəstək verməyəcək.

Azərbaycan sülhə sadiqdir və prosesi geri dönməz etmək istəyir. Məhz Prezidentin köməkçisinin erməni nümayəndə heyətinin bütün suallarını birbaşa cavablandırması "açıq qapı" diplomatiyasının nümunəsidir. Bu, Bakının sülh prosesindəki şəffaflığını və hər hansı qaranlıq məqamın qalmaması üçün dialoqa hazır olduğunu nümayiş etdirir.

Ümumən, bu cür səfərlər cəmiyyətlərin bir-birini tanıması və qəbul etməsi prosesinə xidmət edir. Təmasların davamlı və fasiləsiz xarakter alması sülh quruculuğu prosesinin effektivliyini əhəmiyyətli dərəcədə artıra bilər. İki qonşu ölkənin və xalqın sülh şəraitində yaşaması zəruri olduğu kimi, düşmənçiliyin əbədi davam etməyəcəyi faktı da qəbul edilməlidir. Əlbəttə, 30 ildən uzun müddətdə müharibə şəraitində yaşayan xalqların aldığı mənəvi-psixoloji zərbələrin və onların yaratdığı yaraların sağalması zaman və səbir tələb edir. Bu prosesin irəli aparılmasında vətəndaş cəmiyyəti institutlarının rolu kifayət qədər əhəmiyyətlidir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# ÖZ XALQININ DÜŞMƏNİNƏ VƏ QATİLİNƏ ÇEVRİLƏNLƏR



Qarabağ münaqişəsinin təməli hələ 1724-cü ildə Rusiya çarı I Pyotr tərəfindən qoyulub.

Çar fərmanı ilə ermənilərin Azərbaycanın Xəzər dənizi sahillərində, Dərbənd və Bakı, həmçinin Gilan, Mazandaran və Gürvan ərazilərində məskunlaşdırılmasına başlanılıb.

1828-ci ildə imzalanmış "Türkmənçay" sülh müqaviləsinə əsasən, 40 min erməni Azərbaycanın müxtəlif ərazilərində məskunlaşdırılıb.

I Dünya müharibəsi illərində Türkiyəyə xəyanət edən ermənilərin 250 mindən çoxu regionumuza köçürülüb.

*Çar Rusiyasının bütün irsindən imtina edən sovet hakimiyyəti nədənsə onun Ermənistanla bağlı siyasətini həvəslə davam etdirdi.*

**7 iyul 1923-cü ildə DQMV yaradıldı.**

Daha sonra SSRİ hökumətinin 23 dekabr 1947-ci il və 10 mart 1948-ci il tarixli qərarları ilə 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba torpaqlarından zorakılıqla köçürülərək həmin ərazilər ermənilərə bağışlandı.

*Bu köçürülmələrdə iki əsas məqsəd güdülürdü:*

*Birincisi,* ərazisiz ermənilərə forpost ərazi yaradaraq orada Türkiyəyə qarşı hərbi bazalar yerləşdirmək;

*İkincisi,* türk dövlətlərini bir-birindən ayrı salaraq onların quru yolla əlaqələrini kəsmək.

SSRİ öz varlığı dövründə bu "vəzifə"ni sonadək yerinə yetirdi.

Qırmızı imperiya laxlayaraq parçalanmağa başlayanda isə köhnə niyyəti davam etdirmək üçün Qarabağ münaqişəsi yenidən qızışdırılaraq separatizmə rəvac verildi.

*Ermənistanı pulsuz silah-sursatla təmin edən və hərbi əməliyyatlar zamanı ona dəstək verən Rusiya torpaqlarımızın 20 faizinin işğalına və ərazimizdə "DQR" adlı qondarma qurumun yaradılmasına nail oldu.*

Adətən hər bir mənfur istəyi və işğal niyyətini həyata keçirməkdən ötrü irəlicədən müəyyən yalanlar və əfsanələr uydurulur.

Haylar isə belə yalanların ustası sayılırlar.

Qaraçılar kimi dünyanın hər tərəfinə səpələnən və heç zaman öz dövlətləri olmayan ermənilər Cənubi Qafqazda hələ qədimlərdən yaşadıqları və bu torpaqların onlara məxsusluğu barədə miflər yaratmağa, tarixi və dini "abidələr"lə bunu isbata yetirməyə girişdilər.

**1988-ci ildən etibarən dünya erməniliyi və xristian dövlətləri tərəfindən müxtəlif üsul və vasitələrlə müdafiə olunan haylar "Miatsum" hərəkatına başlayaraq Dağlıq Qarabağı Ermənistana birləşdirməkdən ötrü ciddi addımlar atmağa başladılar.**

❖ ❖ ❖

*Hər bir xalqın seçilmiş insanları - ziyalıları, siyasətçiləri, ideoloqları, dövlət adamları olur və onlar ölkəni inkişaf etdirmək, doğru yolla aparmaq, xalqı daha yaxşı yaşatmaq üçün kütlənin önünə düşürlər.*

**Xoşbəxt o xalqdır ki, görkəmli şəxsiyyətləri, uzaqgörən rəhbərləri və liderləri olur!**

*Vay o günə ki, millətin qabağına düşənlər yanlış ideya və ideologiyaya xidmət göstərələr, insanları milli qarşıdurmaya, düşmənçiliyə kökləyələr.*

**Özünün uydurduğu müxtəlif əfsanələrin əsirinə çevrilən, daim "əlaltı millət" statusu daşıyan ermənilərin liderləri hər zaman xalqı yox, şəxsi rifah və karyeralarını düşünüblər, öz millətlərini yanlış, səhv yollara istiqamətləndiriblər.**

Ağılsızlıqları üzündən başlarına gələn fəlakətləri isə "soyqırımı" adı ilə təqdim edərək, dünyanın diqqətini özlərinə çəkməyə, bundan da bəhrələnməyə çalışıblar.

*Halbuki özləri dəfələrlə soyqırımları törətmişlər, başqa xalqlara düşməncəsinə yanaşaraq müstəqil dövlətə çevrilmək imkanı yarananda müstəqilliyi yox, monoetnik respublika yaratmağı üstün tutmuşlar.*

Daim murdar əməllərinə haqq qazandırmağa çalışmış, ikili standartlar dünyasının yaratdığı imkanlardan bəhrələnməklə qonşu dövlətlərlə ədavət və düşmənçilik yolu tutmuş, ərazi iddiaları irəli sürmüşlər.

Bir ağıllı ziyalısı meydana çıxaraq onları səhv yoldan döndərmək istədikdə isə onu da milli düşmənə, hücum və qınaq obyektinə çevirmişlər.

❖ ❖ ❖

**Qırmızı imperiyanın parçalanması prosesi başlayanda Azərbaycan itirilmiş müstəqilliyini bərpa etmək, müstəqil dövlət kimi yaşamaq niyyətini açıq şəkildə ortaya qoydu.**

Zəngin neft-qaz ehtiyatları, yeraltı və yerüstü sərvətləri olan Azərbaycanın bu niyyəti bəzilərini, xüsusən Rusiyanı qane etmədi.

Ölkəni itaət boyunduruğunda saxlamaq, əvvəllərdə olduğu kimi, onun təbii sərvətlərinə ağalıq etməkdən ötrü mənfur planlar quraraq onun icrasına başladılar.

*İlk növbədə sınaqdan "uğurla" keçirdikləri "Qarabağ problemi" adlı münaqişəni yenidən qızışdırdılar.*

**SSRİ rəhbərliyinin "xeyir-duası" ilə başlayan separatçı hərəkatın məqsədi Ermənistanı Azərbaycandan torpaq qoparmaq adı ilə şirnikləndirmək, bölgədə münaqişə və müharibə ocağı yaradaraq onu daim "qaynar" vəziyyətdə saxlamaq və bu yolla Cənubi Qafqazda mövcudluğunu qorumaqla hər iki dövlətə təsir imkanına malik olmaq idi.**

Əlaltı millət olan haylar belə oyunlara hər zaman hazır olublar.

Odur ki, 1988-ci ilin əvvəllərindən etibarən ermənilər açıq fəaliyyətə keçdilər.

Əvvəlcə, keçmiş DQMV-nin iqtisadi cəhətdən digər regionlardan geri qaldığını bəyan edərək narazılıqlara başladılar.

*Moskva SSRİ-nin digər yerlərində baş verən analoji vəziyyətdə etdiyini DQMV-də etmədi.*

**Onları yumruqla susdurmadı...**

**Əksinə, başlarını sığalladı.**

Muxtar vilayətdə "sosial-iqtisadi vəziyyəti yaxşılaşdırmaqdan ötrü" Sov. İKP MK və SSRİ Nazirlər Soveti xüsusi qərar qəbul etdi.

Bu qərar erməniləri daha da qudurtdu.

Onlar küçələrə axışaraq mitinq və tətillər keçirməyə, "miatsum" bağırmağa başladılar.

*Yenə separatçılara qarşı fərqli, yumşaq münasibət sərgiləndi.*

*Əl altınca ermənilərin silahlandırılmasına, "fədainlər" dəstəsinin (başqa sözlə, terrorçu qruplarının) yaradılmasına başlanıldı.*

Paralel olaraq Azərbaycan tərəfi silahsızlaşdırılır, əhalidəki ov tüfəngləri belə yığılırdı.

Hərtərəfli müdafiə olunduqlarından ruhlanan və cəzasızlıq şəraitindən istifadə edən ermənilər Azərbaycan kəndlərinə hücumlar edir, yerli əhalinin əmlakını yağmalayır, özlərini isə qorxudaraq ərazidən çıxarmağa çalışırdılar.

Get-gedə terror-təxribat əməlləri hərbi əməliyyatlar fazasına keçirdi.

**Erməni liderləri isə münaqişəni daha da qızışdırır, Azərbaycan ərazilərini qəsb edərək "Böyük Ermənistan" yaratmaq niyyətilə öz xalqlarını yanlış və səhv hərəkətlərə yönəldirdilər.**

❖ ❖ ❖

*"Miatsum" hərəkatının ən böyük liderlərindən biri yazıçı-jurnalist Zori Balayan sayılırdı.*

"Literaturnaya qazeta"nın müxbiri olduğundan Moskvanın yüksək dairələri ilə sıx əlaqələri vardı.

Amma öz istedadını xalqının inkişafına yox, səhv yola yönəldilməsinə, fəlakətlər girdabına salınmasına sərf edirdi.

Türk millətinə qarşı nifrətə səsləyən, onların cəzalandırılmasına, fiziki cəhətdən məhv edilməsinə çağıran "Ocaq" adlı bir kitab da yazdı.

**Azərbaycan xalqı ilə düşmənçiliyə çağıran bu kitab dəfələrlə çap edildi, geniş təbliğ olundu, Zori Balayan ermənilərin milli qəhrəmanı səviyyəsinə yüksəldildi.**

❖ ❖ ❖

*Zori Balayan uzun ömür yaşadı - 92 il.*

*Amma şərəfsiz ömür yaşadı.*

* Bədii yaradıcılığı "Ocaq" kitabı timsalında Azərbaycan və türk xalqlarına qarşı nifrətin və düşmənçiliyin təbliğinə xidmət etdi.

* İnsan kimi qəddarlığı və qaniçənliyi ilə yadda qaldı - Xocalı soyqırımının təhrikçilərindən və təşkilatçılarından biri oldu.

* Terrorçuluqla məşğul olduğu aşkara çıxdı - 1994-cü ildə Bakıdakı 20 Yanvar metrostansiyasında törədilən terror aktının sifarişçisi olduğu sübuta yetirildi.

* Bir cinayətkar kimi İnterpol tərəfindən axtarışa verildi.

* "Miatsum" hərəkatının ideoloqlarından biri sayılırdı.

**Bu bədnam "miatsum" çağırışı nəticəsində başlanan separatizm hərəkatı nə Ermənistana fayda gətirdi, nə də Dağlıq Qarabağda yaşayan ermənilərə.**

"Mifik Ermənistan" uğrunda aparılan mənasız mübarizə real Ermənistanı forpost dövlətə çevirdi, əhalisi dilənçi vəziyyətinə düşərək kütləvi şəkildə ölkəni tərk etdi.

*Öz xalqının düşməninə çevrilən Z.Balayanın Yerablurun genişlənməsində, separatizmə qurşanan ermənilərin I və II Qarabağ müharibələrində böyük itkilər verməsində "xidmət"ləri çoxdur.*

Erməni gənclərinin beynini millətçilik və separatizm zəhəri ilə yoluxduran bu zat uzun ömür yaşadığından əməlinin bəhrəsindən də doyunca daddı!

**"Miatsum" hərəkatının məhvini, separatizm ideyasının və qondarma respublikanın süqutunu gözləri ilə görmək "xoşbəxtliy"ini yaşadı:**

44 günlük müharibədə Ermənistan ordusunun biabırçı məğlubiyyətinin və kapitulyasiya aktına qol çəkdirilməsinin şahidlərindən biri oldu!

HABELƏ:

* 2023-cü ilin 23 aprel və 19-20 sentyabrında Azərbaycan ordusunun möhtəşəm əməliyyatlarının, ərazi bütövlüyümüzün və dövlət suverenliyinin bərpasının;

* Qondarma "DQR"in darmadağın edilməsinin;

* Ermənistana məxsus qanunsuz silahlı birləşmələrin və terrorçu dəstələrin məhv edilməsinin;

* Separatçıların Qarabağı kütləvi şəkildə tərk etməsinin;

* "Böyük Ermənistan" ideyasının Azərbaycan tərəfindən məhv edilməsinin ağrı-acısını yaşadı, səpdiyi toxumların zəhər dadan məhsulunu doyunca dərdi!

Sərsəm əməlləri ilə tarixdə erməni xalqına ən böyük fəlakətlər gətirən və itkilər verməsinə səbəb olan "ideoloqlar" sırasında yer aldı!

Beləliklə, Ermənistana ən böyük biabırçılıq və itkilər yaşadan ermənilər sırasında "fəxri" yerə sahib çıxdı!

Uzun ömür sürməsi murdar əməllərinin meyvəsini dərməsinə, sərsəm hərəkətlərinin nəticəsini göz dolusu görməsinə şərait yaratdı!

❖ ❖ ❖

**SSRİ-dən qopduqdan sonra Ermənistana üç prezident başçılıq edib.**

**Adları və zahiri görkəmləri müxtəlif olsa da, mahiyyətləri bir-birindən fərqlənməyib.**

*Biri Ermənistanda, digər ikisi isə Azərbaycanın Qarabağ bölgəsində yaşayıb.*

*Bir-birlərini bəyənməsələr də, bir-birləri ilə yola getməsələr də, fəaliyyətləri eyni mahiyyət daşıyıb:*

"Miatsum"u və separatizmi qızışdırdıqlarına, qonşulara qarşı ərazi iddiaları irəli sürərək düşmən mövqe tutduqlarına görə Ermənistanı blokadada saxlamış, müharibəyə və terrorçuluğa dəstək nəticəsində isə minlərlə hayın ölümünə səbəb olmuşlar.

**Levon Ter-Petrosyan daim özünü sülhpərvər, ziyalı rəhbər kimi göstərməyə can atıb.**

Amma Azərbaycan torpaqlarının bir qismi məhz onun dövründə işğala məruz qalıb.

Sülh danışıqlarında heç zaman razılaşmaya gəlməyib.

İşğalın bünövrəsini qoymaqla, xalqının məğlubiyyətinin və itkilərinin də təməlini yaradıb.

**1993-cü ilin 23 iyulunda "Yerkrapa" terror təşkilatının üzvləri ilə görüşəndə "fəaliyyəti"nin məqsəd və mahiyyətini özü belə açıqlayıb:**

*"Təsəvvür edin, indi onlar Ermənistandadır. (Qərbi Azərbaycandakı azərbaycanlılar nəzərdə tutulur - red.) Əgər onlar Ermənistanda olsaydı, bizim dövlətimiz olmayacaqdı; biz onda şimal-şərq rayonlarını, Göyçəni müdafiə edə bilməyəcəkdik. Azərbaycanlılar 3 rayonda çoxluq təşkil edirdilər: bu, Vardenis (Basarkeçər), Masis (Zəngibasar) və Amasiyadır. Azərbaycanlılar Zəngəzur mahalında böyük üstünlük təşkil edirdilər. Bu problem həll edildi və bu, göydən hədiyyə kimi düşmədi. Bunu biz etdik, milli hərəkat etdi, erməni ümummilli hərəkatı və onun hərbi qanadı, özünümüdafiə batalyonları, bizim "Yerkrapa" dəstəsi. Həmçinin Qarabağ. Bu gün bütün Artsax (Qarabağ - red.), o cümlədən daha bir çox torpaqlar ermənilərin əlindədir".*

**Lakin Müzəffər Ali Baş Komandan İlham Əliyevin hərbi şücaəti sayəsində ermənilərin əlində heç nə qalmadı!**

Necə deyərlər, it də getdi, ip də!

*Bu gün Qarabağəsilli digər iki sabiq prezidentin vəziyyəti daha pisdir.*

Hər ikisi komsomol və partiya xətti ilə inkişaf etmişdi.

Azərbaycan çörəyi ilə böyüyüb vəzifə sahibinə çevrilsələr də, sonradan yedikləri çörəyə xain çıxdılar.

Amma öz xalqlarına da heç bir fayda gətirmədilər.

**Həm Qarabağda olanda, həm də Ermənistana başçılıq edəndə müharibə üçün müxtəlif ünvanlardan ayrılan pulları mənimsəyərək böyük sərvət topladılar.**

**Heç zaman da Azərbaycan xalqına nifrətlərini gizlətmədilər.**

Faşistsayağı açıqlamaları ilə "tarix"ə düşdülər.

**Robert Koçaryan:** *"Azərbaycanlılar və ermənilər genetik və etnik cəhətdən bir-birinə uyğun gəlmirlər. Ona görə də eyni ərazidə yaşaya bilməzlər".*

**Serj Sarkisyan:** *"Xocalıya qədər azərbaycanlılar düşünürdülər ki, biz onlarla, sadəcə, zarafat edirik. Azərbaycanlılar bu fikirdə idilər ki, ermənilər dinc sakinlərə əl qaldırmağı bacaran insanlar deyil. Bu fikirləri sındırmaq lazım idi. Belə də alındı".*

"Sirkə nə qədər tünd olsa, öz qabını çatladar", - demişlər.

❖ ❖ ❖

Bu üç prezident özlərini yekəxana aparır, Qarabağda lovğa-lovğa gəzir, erməni tarixində adlarının "yeni torpaqlar fəth etmiş qəhrəmanlar" kimi qalacağını zənn edirdilər.

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruğ"u bütün bu gümanlara və lovğalıqlara son qoydu!**

İndi hamısının rəngi qapqara qaralaraq boğulmuş, özləri cücə kimi büzüşmüşlər.

**Bu gün Qarabağda Qarabağın əsl sahibi və xilaskarı cənab İlham Əliyev qürurla, əli belində gəzir!**

*Özgə ağzı ilə hürən, ən böyük qələbədən sonra ən böyük rüsvayçılıqlarını yaşayan Ter-Petrosyan, Sarkisyan və Koçaryan isə hər gün təzədən ölüb-dirilirlər.*

Azərbaycan işğaldan azad etdiyi ərazilərdə, sözün əsl mənasında, xarüqələr yaradır:

* Xarabalıqlar gülüstana çevrilərək, bir-birindən yaraşıqlı, müasir tipli yaşayış məntəqələri inşa olunur;

* Yeni yollar çəkilir, dəmir yolları salınır;

* Tunellər qazılır, körpülər qurulur;

* Bir-birinin ardınca beynəlxalq səviyyəli hava limanları istifadəyə verilir;

* Su anbarları bərpa edilir, yeni su-elektrik stansiyaları tikilir;

* Bölgədə "yaşıl enerji" istehsal olunur, onun Avropaya ixracı üçün Qara dənizin dibi ilə kabel xətti çəkilir;

* Qarabağın və Şərqi Zəngəzurun beynəlxalq turizm mərkəzinə çevrilməsi üçün zəruri infrastruktur yaradılır;

* Bütün bunları qalib Azərbaycan xalqı edir!

* Bütün bunları Azərbaycan edir!

* Azad etdiyi əraziləri cənnətə çevirir!

Keçmiş sakinlər şad-xürrəm geriyə qayıdaraq xoşbəxt günlərini yenidən yaşayırlar!

*Artıq bu məkanda nə bir nəfər separatçı qalıb, nə də terrorçu.*

*Heç erməni də qalmayıb, hamısı qaçıb getdi.*

*Olub-qalanı 10-15 nəfərdir ki, onlar da məlum ünvanda çay içirlər.*

Azərbaycan çayı!

**Azərbaycan xalqı qəhrəmanlıqla döyüşərək yenidən öz torpağına sahib çıxdı!**

**Ona-buna arxalanan haylar isə acı məğlubiyyətlərini yaşamağa məhkum edildilər!**

Daha nə onların göz yaşlarına baxan, nə "soyqırımı" nağıllarına inanan var!

*"Məğlubedilməz xalq", "məğlubedilməz ordu" mifləri indi təbəssümlə qarşılanır...*

* Dalandan çıxmaq üçün bizə möhtacdırlar!

* Real Ermənistanı yaşatmaq üçün bizimlə sülh şəraitində yaşamağa məcburdurlar!

* Oğulsuz qalan erməni analarına nə verəcəklərini özləri fikirləşib tapmalıdırlar!

**Qarabağ uğrunda mübarizədə qazanan üç erməni prezidenti, erməni generalları və erməni diaspor rəhbərləri oldu.**

*Yığılan pullar, ianələr, dünya erməniliyinin göndərdiyi vəsaitlər hesabına Levon Ter-Petrosyan, Robert Koçaryan və Serj Sarkisyan milyarderlərə çevrildilər.*

Erməni xalqına isə Yerablurdakı mərmər məzarlar qaldı.

Həmin məzarların mərmərlərini isə Azərbaycandakı qəbiristanlıqlardan oğurlayıb aparmışlar...

**Öz rəhbərlərini milyarderlərə çevirən ermənilərin özləri sonda dilənçi vəziyyətinə düşdülər, övladlarını "miatsum"a qurban verərək Ermənistanı da tərk etdilər.**

*Xocalılılar isə soyqırımına uğrasalar da, doğma torpaqdan əl çəkmədilər, toparlanaraq düşmənlərini öz vətənlərindən iti qovan kimi qovdular!*

**Bu gün Azərbaycan övladları öz yurd-yuvalarına qayıdaraq orada qurub-yaradır, qalib xalq kimi açıq alınla, fərəhlə ömür sürürlər!**

Şərəfqarışıq hər şeylərini itirən ter-petrosyanlar, koçaryanlar və sarkisyanlar isə uzaqdan yana-yana baxırlar!

*Biz əmlakımızı itirsək də, illərboyu Vətən həsrəti ilə yaşasaq da, sonda düşmənimizi məhv edərək hər şeyi geriyə qaytardıq!*

*Ermənilər isə şərəfqarışıq hər şeylərini itirərək bu gün gözdağı əzabını çəkirlər!*

**Bəli, "Qarabağ Azərbaycandır və nida işarəsi".**

**Bəxtiyar SADIQOV**

# Hesablama Palatasının fəaliyyəti müzakirə olunub



**Aprelin 13-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda Azərbaycan Respublikasının Hesablama Palatasının 2025-ci ildə fəaliyyəti haqqında hesabat müzakirəyə təqdim edilib.**

Komitənin sədri Azər Əmiraslanov qeyd edib ki, palatanın hesabatı qanunun tələblərinə uyğun şəkildə hazırlanıb və qanunvericiliklə müəyyən edilmiş müddətdə təqdim olunub. Bildirilib ki, Hesablama Palatasının hesabatı ilə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi öz rəyini Milli Məclisin plenar iclasına təqdim etməlidir.

Azər Əmiraslanov vurğulayıb ki, hazırkı dövrdə təxirəsalınmaz maliyyə ehtiyaclarının yarandığı bir vaxtda büdcə nəzarəti, büdcə vəsaitlərinin səmərəli istifadəsi xüsusi əhəmiyyət daşıyır. Ölkəmizdə dövlət büdcəsinə nəzarətin gücləndirilməsi, vəsaitlərdən qənaətlə istifadə edilməsi, büdcə şəffaflığına nail olunması Prezident İlham Əliyev tərəfindən müəyyən edilmiş dövlət siyasətidir. Ali maliyyə auditi orqanı kimi Hesablama Palatasının fəaliyyəti də məhz bu dövlət siyasətinin həyata keçirilməsinə xidmət edir.

Hesablama Palatasının fəaliyyətinin parlamentarizmin tərkib hissəsi olduğunu deyən komitə sədri, Milli Məclisin və Hesablama Palatasının büdcə nəzarəti sahəsində fəaliyyətinin bir-birini tamamladığını və bir-birini şərtləndirdiyini bildirib. O, bir müddət əvvəl hökumətin hesabatının müzakirə olunduğunu, hazırda Hesablama Palatasının ötən ildəki fəaliyyəti barədə hesabatın təqdim edildiyini, bir müddətdən sonra isə 2025-ci ildə dövlət büdcəsinin icrasına dair hesabatın və müvafiq qanun layihəsinin müzakirə ediləcəyini nəzərə çatdırıb. Qeyd edib ki, bu hesabatlar büdcənin icrasının vəziyyətini xarakterizə edən sənədlərdir və bir-birini tamamlayır.

Sonra Hesablama Palatasının sədri Vüqar Gülməmmədov palatanın 2025-ci ildə fəaliyyəti haqqında hesabatı slaydlar vasitəsilə təqdim edib. Palata sədri hesabat ilinin Hesablama Palatasının "2021-2025-ci illər üzrə Strateji Plan"ının son ili olmasını nəzərə alaraq, əvvəlcə 5 illik dövr üçün icra vəziyyəti barədə məlumat verib. O qeyd edib ki, 2021-2025-ci illəri əhatə edən strateji planda 2 yekun nəticə - dövlət maliyyəsinin hesabatlılığının və fiskal məsuliyyətin gücləndirilməsi, Ortamüddətli Xərclər Çərçivəsi (OMXÇ) və nəticəyə əsaslanan büdcə islahatlarının daha yaxşı həyata keçirilməsinə töhfə və Hesablama Palatasının işinə daha güclü etimad müəyyən edilib.

Vüqar Gülməmmədov Hesablama Palatasının işinə ictimai etimadın gücləndirilməsinin müxtəlif aspektləri barədə danışaraq, qeyd edib ki, bu sırada ənənəvi uyğunluq auditi kimi klassik audit növündən fərqli olaraq daha innovativ hesab edilən səmərəlilik (performans) auditinin əhatə dairəsinin genişləndirilməsi, palatanın fəaliyyətində şəffaflığın artırılması, beynəlxalq AAO cəmiyyətində peşəkar tərəfdaş imicinin gücləndirilməsi, rəqəmsal transformasiyaya keçid kimi məsələlər ön planda dayanıb. O, 2021-2025-ci illərdə ümumilikdə 26 səmərəlilik auditinin keçirildiyini, bu auditlərin əhatə dairəsinin 4,1 mlrd. manatdan çox olduğunu söyləyib. Bildirib ki, Hesablama Palatasının maraqlı tərəflərlə - parlament, icra və hüquq-mühafizə, prokurorluq orqanları, təhsil müəssisələri ilə əməkdaşlığı nəticəsində ölkə ictimaiyyətində nümunəvi təşkilat imicinin yaranması üçün zəmin yaradılıb, millət vəkillərinin təklifləri əsasında 7 audit həyata keçirilib, icra orqanlarının hesabatlarında Hesablama Palatasının tövsiyələrinin icrası barədə məlumat verilib.

Sonra Vüqar Gülməmmədov palatanın kənar dövlət maliyyə nəzarəti (KDMN) fəaliyyəti barədə məlumat verərək, 2025-ci ildə auditlərin əhatəsinin nisbətən artırılmasına, auditlərin sayı üzrə stabilliyin saxlanılmasına və keyfiyyətinin yüksəldilməsinə nail olunduğunu vurğulayıb. Nəzərə çatdırıb ki, 2025-ci ilin iş planının tərtibi zamanı müvafiq icra hakimiyyəti orqanının təklifləri, Milli Məclisin deputatları tərəfindən səsləndirilən fikirlər, mediada işıqlandırılan məlumatlar, Hesablama Palatasının rəsmi internet səhifəsindəki "Audit təklif et" bölməsi vasitəsilə daxil olmuş vətəndaş müraciətləri və digər məsələlər diqqətdə saxlanılıb. Hesablama Palatasının Kollegiyası tərəfindən audit və analitik fəaliyyət formasında 48 nəzarət tədbirinin keçirilməsi ilə bağlı qərarlar qəbul olunub. Onlardan 47-si hesabat ilində başa çatdırılıb, 1 auditin nəticələrinin rəsmiləşdirilməsi növbəti ilə keçirilib. 3 audit "Dövlət sirri haqqında" qanuna əsasən məxfilik rejimində keçirilib.

Bildirilib ki, hesabat dövründə palata tərəfindən 5-i analitik fəaliyyət və səmərəlilik, maliyyə, uyğunluq auditi şəklində olmaqla 43 audit keçirilib. 6 auditdə informasiya sistemlərinin auditinin bəzi elementlərindən istifadə olunub. 2025-ci ilin iş planı üzrə keçirilmiş audit və analitik fəaliyyətlərlə 700-ə yaxın tabelikdə olan qurum və müəssisələr, layihələr əhatə edilib.

Qeyd olunub ki, audit və analitik fəaliyyətlərin nəticələrinə əsasən, büdcə qanunvericiliyi və dövlət satınalmaları üzrə aşkar edilmiş nöqsanların payı müvafiq olaraq 51,6 faiz və 24,1 faiz təşkil edib. 2025-ci ilin iş planına uyğun keçirilmiş 36 audit və analitik fəaliyyətdə büdcə vəsaitlərinin idarəedilməsi üzrə gəlir və xərclərin proqnozlaşdırılması, vəsaitlərin idarə edilməsi və icrası, əməyin ödənişi, xərc normativlərinə və prosedurlara əməl olunmaması ilə bağlı nöqsanlar aşkar edilib. Eyni zamanda ötən il KDMN tədbirlərində dövlət satınalmaları araşdırılaraq 32 auditdə bu sahəni tənzimləyən hüquqi aktların tələblərinin pozulması hallarına rast gəlinib. Son illərdə dövlət satınalmaları sahəsində şəffaflığın artırılması və inzibatçılığın gücləndirilməsi sahəsində bir sıra islahatlar həyata keçirilib.

Palata sədri nəzərə çatdırıb ki, 2025-ci ildə keçirilmiş 15 audit və analitik fəaliyyətdə əsaslı xərclər üzrə hüquqi aktların tələblərinin pozulduğu müəyyən edilib. Bildirilib ki, investisiya xərclərinin əsaslı xərclərdə payı yüksəkdir. 12 sifarişçi üzrə 42 layihə və 132 müqavilənin auditi həyata keçirilib. Yol verilmiş pozuntular, qanunvericiliyin və hesabatlılığın tələblərinin pozulması son nəticədə investisiya layihələrinin dəyərinin düzgün hesablanmamasına, aktivlərin doğru tanınmamasına və artıq vəsaitlərin istifadəsinə səbəb olub.

Bildirilib ki, kənar dövlət maliyyə nəzarəti tədbirləri ilə ümumilikdə 1554 mln. manat məbləğində nöqsan aşkarlanıb, bundan uyğunsuzluq məbləği 584,8 mln. manat, maliyyə təhrifləri 626,3 mln. manat, səmərəsiz xərclər isə 342,9 mln. manat təşkil edib. Aparılan nəzarət tədbirlərinin nəticələrinə əsasən, qurumlar tərəfindən diqqət edilməli məqamlar və əsas risklər barədə söhbət açılıb.

Sonra Vüqar Gülməmmədov palatanın kənar dövlət maliyyə nəzarəti fəaliyyətinin təsiri ilə yaradılmış əlavə dəyər barədə danışıb. O diqqətə çatdırıb ki, keçirilmiş audit və analitik fəaliyyət nəticəsində 47 kollegiya qərarı qəbul edilib, bu qərarlarla 303 tədbir müəyyən edilib. Bu tədbirlərdən 35-nin qanunvericiliklə icra üçün müəyyən edilmiş müddəti bitməmiş, qalan tədbirlərdən 202-si tam, 29-u qismən icra edilmiş, 37-si isə hesabat tərtib olunduğu vaxtadək icra edilməmişdir. Bu isə 71,5 faiz icra deməkdir. KDMN nəticələrinin təhlili 2 və daha çox sayda audit keçirilmiş obyektlərin 75,0 faiz Hesablama Palatasının əvvəlki təklif və tövsiyələrinin nəzərə alınması ilə müvafiq obyektlərin maliyyə fəaliyyətlərində intizamın nisbətən gücləndiyini göstərir.

Qeyd olunub ki, 2025-ci ilin iş planı üzrə dövlət vəsaitinin bərpası istiqamətində 101,5 mln. manata qarşı 93,9 mln. manat icra edilib. Hesabat tərtib edilən tarixədək KDMN obyektləri tərəfindən tam bərpa edilməyən məbləğlərə dair məlumatların təhlili bu məbləğin 76,1 faizinin qurumlar tərəfindən bərpasının davam etdirildiyini, 23,9 faizinin isə kollegiya qərarı üzrə qanunvericiliklə müəyyən edilmiş müddətin bitmədiyini göstərir.

Palata sədri bildirib ki, 2025-ci ildə dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının büdcələrinin layihələri və icrası üzrə Hesablama Palatası tərəfindən 6 rəy hazırlanaraq aidiyyəti üzrə təqdim edilib. 2024-cü ilin dövlət büdcəsinin icrasına rəy ilə cəmi uyğunsuzluq məbləği 349,5 mln. manat, 2026-cı ilin büdcə layihəsinə verilmiş rəy ilə dövlət büdcəsi xərclərinin Vahid Büdcə Təsnifatına uyğun nəzərdə tutulmaması ilə bağlı uyğunsuzluq məbləği isə 236,3 mln. manat, bundan qanun layihəsinə təsir edən məbləğin isə 160,4 mln. manat olduğu müəyyən edilib.

Sonra hesabat ətrafında geniş müzakirə aparılıb. Müzakirədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov, komitə sədrinin müavini Azər Badamov, komitə üzvləri Heydər Əsədov, Ziyad Səmədzadə, Tahir Mirkişili, Əli Məsimli, Aydın Hüseynov, Vüqar Bayramov və Rövşən Muradov çıxış ediblər, hesabat barədə fikirlərini bildiriblər.

Deputatlar qeyd ediblər ki, təqdim olunan hesabat qanunvericiliyin tələblərinə uyğun şəkildə hazırlanıb və büdcə vəsaitlərinin auditi həm milli normativ-hüquqi aktlara, həm də beynəlxalq audit standartlarına uyğundur. Vurğulanıb ki, palata ötən il qarşıya qoyulan hədəflərə nail olub, kənar dövlət maliyyə nəzarətinin əhatə dairəsi qənaətbəxşdir, dövlət vəsaitlərinin bərpası istiqamətində həyata keçirilən əməli addımlar təqdirəlayiqdir.

Çıxışlarda Hesablama Palatasının fiskal siyasətə təsir edən mühüm institut kimi rolu yüksək qiymətləndirilib, dövlət maliyyəsi sahəsində verilən tövsiyələrin icra səviyyəsinin artırılmasının vacibliyi xüsusi qeyd olunub. Eyni zamanda maliyyə nəzarətində səmərəlilik auditinin genişləndirilməsi, analitik fəaliyyətin gücləndirilməsi, risk əsaslı audit modelinin tətbiqi, ali audit nəzarətində rəqəmsallaşma və süni intellekt texnologiyalarından istifadənin artırılması ilə bağlı təkliflər səsləndirilib.

Palatanın sədri Vüqar Gülməmmədov deputatların qaldırdıqları məsələlərə münasibət bildirdikdən sonra Azərbaycan Respublikası Hesablama Palatasının 2025-ci ildə fəaliyyəti haqqında hesabatı Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

*"Azərbaycan"*

# Gender bərabərliyinin qorunmasına xidmət edən dəyişikliklər

**Aprelin 10-da keçirilən Milli Məclisin plenar iclasında Əmək Məcəlləsində və "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda qəbul olunub. Layihəyə əsasən Əmək Məcəlləsində işəgötürənlərin bərabər əməkhaqqı təmin etmək öhdəliyi konkretləşdirilir və əməkhaqqı sistemində cinsə görə ayrı-seçkiliyin qarşısının alınması gücləndirilir. Təklif edilən dəyişikliklər "eyni və ya oxşar iş" anlayışını genişləndirərək "bərabər dəyərli iş" prinsipini təsbit edir, kişilər və qadınlar arasında əməkhaqqı ödənişində fərqlərin aradan qaldırılmasını nəzərdə tutur.**



Məsələ ilə bağlı parlamentin Gənclər və idman komitəsinin sədr müavini, Ailə qadın və uşaq məsələləri komitəsinin üzvü Könül Nurullayeva "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, qanunda nəzərdə tutulan dəyişikliklər ölkəmizdə hüquqi bazanın daha da təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Sözügedən qanun layihəsi Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2025-ci il tarixli sərəncamı ilə təsdiqlənmiş gender bərabərliyi üzrə 2026-2028-ci illər üçün Milli Fəaliyyət Planından irəli gələn vəzifələrin icrasına xidmət edir.

Deputatın sözlərinə görə, layihə gender bərabərliyinin təmin olunması istiqamətində aparılan genişmiqyaslı hüquqi araşdırmaların nəticəsidir və beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanıb. "Dəyişikliklər ümumilikdə 190 fəaliyyət istiqamətini əhatə edir və xüsusilə işləyən qadınların əmək münasibətlərində hüquqlarının daha effektiv qorunmasına yönəlib. Bu yeniliklər beynəlxalq hüquqi sənədlərin tələblərinə tam cavab verir və Azərbaycanın bu sahədə öhdəliklərinə uyğun şəkildə hazırlanıb", - deyə K.Nurullayeva bildirib.

Azərbaycan BMT çərçivəsində qəbul olunmuş Dayanıqlı İnkişaf Məqsədlərinə qoşularaq gender bərabərliyi istiqamətində mühüm addımlar atıb. Bu məqsədlərin həyata keçirilməsi üçün milli səviyyədə koordinasiya mexanizmləri yaradılıb və müxtəlif dövlət proqramları həmin hədəflərlə uzlaşdırılıb. Dünya Bankı tərəfindən dərc edilən "Qadınlar, biznes və hüquq" hesabatında Azərbaycanın mövqeyinin yaxşılaşması ölkədə aparılan islahatların nəticəsidir.

Könül Nurullayeva qeyd edib ki, bununla yanaşı, qadınların məşğulluq imkanlarının genişləndirilməsi, əməkhaqqı bərabərliyinin təmin edilməsi və ailə-məşğulluq balansının qorunması istiqamətində əlavə addımların atılması vacib olaraq qalır: "Eyni dəyərli əməyə görə bərabər əməkhaqqı prinsipi, sadəcə, qanunvericilikdə deyil, praktikada da tam şəkildə təmin olunmalıdır. Yeni dəyişikliklərin tətbiqinə nəzarət mexanizmləri gücləndirilməli, əməyin obyektiv qiymətləndirilməsi sistemi təkmilləşdirilməlidir. Bu, həm dövlət, həm də özəl sektorda şəffaflığın artırılmasına xidmət edəcək".

Deputatın sözlərinə görə, gender sahəsində qanunvericiliyin daha da inkişaf etdirilməsi üçün "gender ekspertizası" mexanizminin hüquqi əsaslarının dəqiqləşdirilməsi və "xüsusi tədbirlər" anlayışının daha konkret tənzimlənməsi vacibdir. Bu addımlar qəbul ediləcək qərarların daha əsaslandırılmış və effektiv olmasına imkan yaradacaq.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan-Çin hərbi tərəfdaşlığı genişlənir

**Azərbaycanın hərbi tərəfdaşlıqlarını şaxələndirməsi milli təhlükəsizliyin prioritet istiqamətidir. Qardaş Türkiyə və dost Pakistanla müttəfiqlik münasibətlərini ən yüksək səviyyəyə çatdıran ölkəmiz qlobal güc mərkəzləri ilə hərbi-strateji dialoqunu da genişləndirir. Azərbaycanın hərbi əlaqələr qurmaqda maraqlı olduğu dövlətlərdən biri də Çin Xalq Respublikasıdır.**



Ölkələrimiz arasında hərbi sahədə əlaqələrin genişləndirilməsi məqsədilə Müdafiə Nazirliyinin nümayəndə heyəti aprelin 10-da Çin Xalq Respublikasına səfər edib. Səfər çərçivəsində "Hərbi əməkdaşlıq sahəsində perspektivlərin müzakirə edilməsi üzrə işçi görüşü" keçirilib. Görüşdə ölkələrimiz arasında hərbi əməkdaşlığın cari vəziyyəti, inkişafı üçün mövcud olan potensial imkanlar və gələcək planlar barədə danışıqlar, qarşılıqlı maraq doğuran bir sıra əməkdaşlıq istiqamətləri haqqında ətraflı fikir mübadiləsi aparılıb. Tərəflər ötən il üçün müəyyən edilmiş hərbi əməkdaşlıq planında nəzərdə tutulan fəaliyyətlərin icrasını müsbət qiymətləndirib və cari ildə planlaşdırılan tədbirlərin icrası məsələlərini müzakirə ediblər. Azərbaycan-Çin arasında hərbi əməkdaşlığın təcrübə və informasiya mübadiləsi baxımından faydalı olduğu vurğulanıb.

Ölkəmizin çoxvektorlu diplomatiyasında Çin faktoru hərbi arsenalımızı ən müasir rəqəmsal və intellektual texnologiyalarla zənginləşdirmək, eyni zamanda Orta dəhlizin təhlükəsizlik arxitekturasını möhkəmləndirmək məqsədi daşıyır. Xüsusən, Vətən müharibəsindən sonra hərbi doktrinasını ən müasir standartlara uyğun yeniləyən Azərbaycan üçün Çinin texnoloji innovasiyaları, Pekin üçün isə ölkəmizin strateji coğrafi mövqeyi bu tərəfdaşlığı vazkeçilməz bir zərurətə çevirir. Bu tərəfdaşlıq Azərbaycanın qlobal təhlükəsizlik sistemindəki balanslı mövqeyini tamamlayır. Azərbaycan NATO standartlarını tətbiq etməklə yanaşı, Çin ordusunun sürətli modernləşmə modelini və intizam strukturunu da yaxından izləyir. Həmçinin Pekinlə qurulan hərbi dialoq, Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) kimi platformalarda mövqeyini möhkəmləndirir.

Azərbaycan-Çin arasında hərbi əlaqələr işçi görüşlərlə məhdudlaşmır, həm də hərbi-texniki, təhsil və təcrübə mübadiləsi sahələrini əhatə edir. 2019-cu ilin oktyabrında Pekində müdafiə nazirləri səviyyəsində keçirilən görüşdə hərbi-texniki və hərbi-tibb sahələrində əməkdaşlığı genişləndirmək üçün hüquqi bazanın gücləndirilməsi qərara alınıb. 2024-cü ilin iyulunda tərəflər Strateji Tərəfdaşlıq, 2025-ci ilin aprelində isə Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında bəyanatlar qəbul ediblər. Bu, hərbi əməkdaşlığın ən yüksək səviyyəyə qaldırılmasının rəsmi təsdiqidir. Çin Xalq Azadlıq Ordusunun Beynəlxalq Hərbi Əməkdaşlıq Baş İdarəsinin rəhbərliyi ilə həm Bakıda, həm də Pekində geniş tərkibli görüşlər keçirilib. Azərbaycanın hərbi rəhbərliyi mütəmadi olaraq Çində keçirilən nüfuzlu qlobal təhlükəsizlik forumuna dəvət olunur.

Çin hazırda hərbi texnologiyalar, süni intellekt və kibertəhlükəsizlik sahəsində dünya liderlərindən biri, BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür. Çin istehsalı olan uzaqmənzilli raket sistemləri və pilotsuz uçuş aparatları (PUA) həm effektivliyi, həm də iqtisadi baxımdan əlverişli olması ilə seçilir. Müasir müharibə şəraitində informasiya təhlükəsizliyinin qorunması üçün Çin təcrübəsindən yararlanmaq olduqca əhəmiyyətlidir. Çin hərbi məktəbləri həm ənənəvi hərbi nizamı, həm də ən müasir texnoloji bilikləri özündə birləşdirir. Bu mənada azərbaycanlı zabitlərin Çində təhsil alması orduda intellektual potensialın artmasına və fərqli hərbi doktrinaların öyrənilməsinə imkan yaradır. Azərbaycan isə Çinin "Bir Kəmər, Bir Yol" layihəsinin mərkəzində, Orta dəhliz üzərində yerləşir. Hərbi əməkdaşlıq bu tranzit yollarının, infrastruktur layihələrinin və enerji dəhlizlərinin təhlükəsizliyinin təmin edilməsində hər iki tərəf üçün zəmanət rolunu oynayır. O baxımdan, Çin Cənubi Qafqazda sabitliyin qorunmasında maraqlıdır və Azərbaycanla hərbi əlaqələr bu sabitliyə töhfə verir.

Azərbaycan və Çin hərbi əməkdaşlığı hər hansı üçüncü tərəfə və ya dövlətə qarşı yönəlməyib. Hər iki ölkənin rəsmi bəyanatlarında və qəbul edilən strateji sənədlərdə bu prinsiplər xüsusi olaraq vurğulanır. Bu əlaqələrin əsas məqsədi hücum deyil, müdafiə qabiliyyətinin artırılmasıdır. Azərbaycan öz ordusunu modernləşdirərkən ərazi bütövlüyünü və suverenliyini qorumağı hədəfləyir. Çin də eyni şəkildə, ölkələrin daxili işlərinə qarışmamaq və suverenliyə hörmət prinsiplərini xarici siyasətinin ana xətti hesab edir. Yəni Pekin və Bakı arasındakı hərbi dialoq regional sabitliyə xidmət edir.

Nəticə olaraq, Azərbaycan-Çin hərbi əməkdaşlığı ordumuzun daha da modernləşməsinə xidmət etməklə yanaşı, ölkəmizin regiondakı strateji mövqeyini daha da artıracaq.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# "Azərbaycanın da iştirak etdiyi "Yaşıl Enerji Dəhlizi" Avropada ön plana çıxır"

**"Azərbaycanın təşəbbüsü ilə irəli sürülən və Cənubi Qafqazdan Avropaya bərpaolunan enerjinin ötürülməsini nəzərdə tutan "Yaşıl Enerji Dəhlizi" layihəsi Avropada strateji enerji təşəbbüslərindən biri kimi qiymətləndirilir".**

AZƏRTAC xəbər verir ki, bu barədə energetika sahəsi üzrə ekspert Florin Stançunun Rumıniya mətbuatında yazısı dərc olunub.

Ekspertin sözlərinə görə, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında planlaşdırılan bu layihə Qafqaz regionundan Avropaya "yaşıl enerji"nin ötürülməsini təmin edəcək və enerji mənbələrinin şaxələndirilməsi baxımından mühüm rol oynayacaq.

Florin Stançu qeyd edib ki, layihə çərçivəsində Qara dənizin dibi ilə elektrik kabelinin çəkilməsi nəzərdə tutulur: "Bu kabel vasitəsilə Azərbaycan və region ölkələrində istehsal olunan bərpaolunan enerji Avropa bazarına çatdırılacaq".

Onun sözlərinə görə, Rumıniya bu layihədə mühüm tranzit və enerji mərkəzi rolunu oynaya bilər. Bu isə ölkənin Avropanın enerji xəritəsində mövqeyini gücləndirə və onu regionda vacib oyunçuya çevirə bilər.

Məlumata görə, layihə yalnız enerji nəqli ilə məhdudlaşmır, eyni zamanda Avropa İttifaqının iqlim hədəflərinə çatmasına da töhfə verə bilər. "Yaşıl Enerji Dəhlizi" bərpaolunan enerji mənbələrinin payının artırılması və karbon emissiyalarının azaldılması baxımından da əhəmiyyətli hesab olunur. Qeyd olunur ki, Azərbaycanın bu təşəbbüsü regionda enerji əməkdaşlığının yeni mərhələyə keçdiyini göstərir. Xüsusilə "yaşıl enerji" sahəsində əməkdaşlığın genişlənməsi Avropanın enerji təhlükəsizliyinin möhkəmlənməsinə xidmət edir.

Azərbaycanın enerji strategiyası artıq yalnız qaz tədarükü ilə məhdudlaşmır və bərpaolunan enerji sahəsində də Avropa ilə əməkdaşlıq sürətlə genişlənir. Bu isə ölkənin Avropa enerji bazarında rolunun daha da artdığını göstərir.

Ekspertlər bildirirlər ki, "Yaşıl Enerji Dəhlizi" kimi layihələr yaxın illərdə Avropanın enerji sistemində mühüm dəyişikliklərə səbəb ola bilər və Azərbaycanın bu prosesdə rolu daha da güclənəcək.




# Mütləq qələbənin Azərbaycan nümunəsi

## Qətiyyətli lider, güclü ordu, milli birlik və aydın strateji hədəf

**Dünyamız tarixinin daha bir gərgin və mürəkkəb mərhələsini yaşamaqdadır. Müasir beynəlxalq münasibətlər sistemində sabitlik və təhlükəsizlik anlayışı getdikcə daha çox sarsılır. Planetimizin müxtəlif regionlarında baş verən münaqişələr, uzun sürən müharibələr artıq lokal xarakterdən çıxaraq qlobal təsir gücünə malik proseslərə çevrilib. Bu proseslər yalnız iştirakçı dövlətlərin deyil, bütövlükdə beynəlxalq sistemin iqtisadi, siyasi və humanitar dayaqlarını zəiflədir, qeyri-müəyyənliyi artırır və gələcəyə dair riskləri dərinləşdirir.**

### Səbəblər və nəticələr

Belə kritik vəziyyət bir neçə fundamental amilin kəsişməsindən təsirlənir. Müasir beynəlxalq münasibətlər sistemində sabitlik və təhlükəsizliyin zəifləməsi ilk növbədə qlobal güc balansının dəyişməsi ilə bağlıdır. Uzun illər beynəlxalq sistemə nisbətən sabitlik gətirən təkqütblü düzən zəifləyir, yeni güc mərkəzləri formalaşır və bu, dövlətlər arasında rəqabəti daha da kəskinləşdirir. Nəticədə böyük güclər arasında qarşıdurma riski artır, regional münaqişələr isə daha geniş geosiyasi qarşıdurmaların tərkib hissəsinə çevrilir.

Gərginliyin digər mühüm səbəbi beynəlxalq hüququn öz təsir gücünü xeyli dərəcədə itirməsi, beynəlxalq institutların fəaliyyət effektivliyinin azalmasıdır. Belə bir reallığa hər birimiz şahidik ki, BMT və digər beynəlxalq təşkilatlar əksər hallarda münaqişələrin qarşısını almaqda və ya onları operativ şəkildə həll etməkdə yetərli təsir göstərə bilmirlər. Bu isə dövlətlər arasında güc amilinin yenidən ön plana çıxmasına, diplomatik mexanizmlərin isə arxa plana keçməsinə səbəb olur.

Eyni zamanda iqtisadi amillər də dünyanın yeni münaqişələrə sürüklənməsində mühüm rol oynayır. Enerji resursları, nəqliyyat dəhlizləri və strateji xammal uğrunda rəqabət getdikcə sərtləşir. Qlobal iqtisadi qarşılıqlı asılılıq artsa da, bu asılılıq bəzən əməkdaşlıq deyil, əksinə, təzyiq və təsir alətinə çevrilir. Enerji və ərzaq təhlükəsizliyi məsələləri bir çox ölkə üçün milli təhlükəsizlik prioritetinə çevrildiyindən, bu sahələrdəki risklər birbaşa siyasi və hərbi gərginliklərə yol açır.

Bütün bunlarla bərabər, texnologiyaların inkişafı da münaqişələrin xarakterini dəyişməkdədir. Kiberhücumlar, informasiya müharibəsi və pilotsuz sistemlərin geniş tətbiqi müharibələri daha qeyri-müəyyən və davamlı prosesə çevirir. Artıq münaqişələr yalnız cəbhə xəttində deyil, informasiya məkanında, iqtisadi sahədə və texnoloji platformalarda da aparılır.

Nəhayət, milli identiklik, etnik və dini faktorlar bir çox regionda gərginliyin daha da dərinləşməsinə səbəb olur. Bu amillər siyasi manipulyasiya alətinə çevrildikdə münaqişələr daha emosional və kompromisə qapalı xarakter almağa başlayır.

### Geosiyasi yanlışlıq

Beləliklə, müasir dünyanın üzləşdiyi gərginlik bir səbəbin deyil, bir-biri ilə sıx bağlı olan siyasi, iqtisadi, institusional və texnoloji faktorların nəticəsidir. Bunun ən tipik nümunələrindən biri son illərin ən dramatik münaqişələrindən sayılan Rusiya-Ukrayna müharibəsidir. Artıq dörd ildən çoxdur ki, davam edən bu müharibə minlərlə insanın həyatına son qoymuş, milyonlarla insanı məcburi köçkün vəziyyətinə salmış, qurulu şəhərləri dağıtmış, xarabazara çevirmişdir. Hər iki ölkənin infrastrukturuna vurulan zərbə, sənaye və enerji obyektlərinin dağıdılması onların iqtisadi potensiallarını ciddi zəiflətmişdir. Eyni zamanda bu münaqişə qlobal ərzaq və enerji bazarlarına da mənfi təsir göstərərək inflyasiya təzyiqlərini artırmışdır. Müharibənin nə zaman və hansı şərtlərlə başa çatacağı isə əfsus ki, hələ də qeyri-müəyyən olaraq qalmaqdadır.

Digər bir gərginlik ocağı son aylar Yaxın Şərq regionunda ciddi böhran vəziyyəti yaradan ABŞ və İsrail-İran gərginliyidir. İlkin mərhələdə çox qısa müddətdə və az itkilərlə başa çatacağı ehtimal edilən bu gərginliyin də sonu görünmür. Bu münaqişə yalnız tərəflər üçün deyil, həm də qlobal iqtisadiyyat üçün ciddi təhlükə mənbəyidir. Xüsusilə enerji bazarlarında qiymətlərin dalğalanması, ticarət marşrutlarının risk altına düşməsi və investor etimadının azalması dünya iqtisadi sistemində qeyri-sabitliyi daha da gücləndirir. Atəşkəs və sülh təşəbbüslərinin taleyi isə hələlik qaranlıq olaraq qalır.

Həm Rusiya-Ukrayna, həm ABŞ və İsrail-İran qarşıdurması nümunəsindən görünür ki, son illərin xarakterik geosiyasi yanılmalarından biri məhz hərbi münaqişələrin "qısa və sürətli" olacağına dair gözləntilərin doğrulmamasıdır. Qeyd etdiyimiz hər iki müharibə ilkin mərhələdə sürətli nəticə ilə yekunlaşacaq lokal qarşıdurma kimi qiymətləndirilsə də, reallıq bu proqnozların əksini göstərdi, münaqişələr uzanan, çoxşaxəli, mürəkkəb proseslərə doğru istiqamətləndi.

Bu yanlışlığın səbəblərinə diqqət yetirsək görərik ki, əsas səbəblərdən biri müharibələrin ilkin mərhələsində tərəflərin potensialının, gücünün düzgün qiymətləndirilməməsidir. Çox vaxt hərbi güc yalnız texniki göstəricilər əsasında analiz edilir. Lakin nəzərə almalıyıq ki, müasir müharibələrdə siyasi iradə, cəmiyyətin müqavimət qabiliyyəti və xarici dəstək amili həlledici rol oynayır. Ukrayna nümunəsindəki kimi - bu müharibənin uzanmasına səbəb gözləniləndən daha güclü müqavimət və beynəlxalq dəstək oldu.

Digər mühüm amil geosiyasi maraqların toqquşmasıdır. Son münaqişələr yalnız iki və ya üç ölkə arasında deyil, daha geniş güc mərkəzlərinin maraqlarını əhatə edir. Nəticədə tərəflərdən heç biri tez bir zamanda geri çəkilmək istəmir, çünki bu, yalnız hərbi deyil, həm də siyasi və strateji məğlubiyyət kimi qiymətləndirilə bilər. Bu isə kompromis imkanlarını məhdudlaşdırır və münaqişəni uzadır.

Yanlışlığın başqa bir səbəbi müasir müharibələrin xarakterinin dəyişməsidir. Əvvəllər klassik hərbi əməliyyatlar daha qısa müddətdə nəticə verə bilirdisə, indi müharibələr hibrid xarakter alır. İnformasiya müharibəsi, iqtisadi sanksiyalar, kiberhücumlar və dolayı qarşıdurma formaları prosesi uzadır və onu daha qeyri-müəyyən edir.

Eyni zamanda beynəlxalq ictimaiyyətin reaksiyası da gözləntilərdən fərqli olur. Sanksiyalar, hərbi və maliyyə dəstəyi, diplomatik təzyiqlər münaqişələrin gedişatına birbaşa təsir göstərərək onların tez başa çatmasının qarşısını alır. Bu isə göstərir ki, müasir dünyada heç bir böyük münaqişə yalnız lokal çərçivədə qalmır. Nəticə etibarilə bu yanılmaların kökündə yeni müharibələri köhnə yanaşmalarla qiymətləndirmək cəhdinin dayandığını iddia edə bilərik. Müasir münaqişələr daha mürəkkəb, çoxsəviyyəli və uzunmüddətli xarakter daşıyır. Bu reallıq isə gələcəkdə analitik proqnozların daha ehtiyatlı və çoxşaxəli aparılmasını zəruri edir.

### 44 gün - mütləq qələbə örnəyi

Belə mürəkkəb və qeyri-sabit beynəlxalq mühit fonunda Azərbaycanın təcrübəsi xüsusi diqqət cəlb edir. 2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsi və onun cəmi 44 gün ərzində Azrbaycanın parlaq qələbəsi - təxminən 30 ilə yaxın müddətdə işğal altında qalmış torpaqlarımızın işğalçılardan təmizlənməsi, ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin tam bərpası ilə başa çatması müasir müharibə tarixində nadir nümunələrdən biri kimi qiymətləndirilə bilər. Bu gün dünyanın müxtəlif bölgələrində illərlə davam edən və sonu görünməyən hərbi münaqişələr fonunda Azərbaycanın cəmi 44 gün ərzində Ermənistanı diz çökdürmüş, təslim olaraq faktiki kapitulyasiya aktına imza atmağa məcbur etmiş qələbəsi yeganə mütləq qələbə örnəyi kimi bütün dünyada həssaslıqla öyrənilir.

Azərbaycan bu müharibədə yalnız hərbi üstünlük nümayiş etdirmədi, eyni zamanda siyasi və diplomatik müstəvidə də strateji üstünlüyünü qoruyaraq mütləq qələbəyə nail oldu. Müasir dünyamızdakı müharibələrin xarakteri göstərir ki, sabitliyin əldə olunması üçün yalnız hərbi və ya siyasi deyil, həm də sistemli, çoxşaxəli yanaşmalar tələb edilir. Azərbaycan da Müzəffər Ali Baş Komandan İlham Əliyevin strateji baxışı, qətiyyət və iradəsi, ordumuzun gücü sayəsində qazandığı tarixi qələbəyə məhz qələbəni şərtləndirən çoxşaxəli amillərin hər birini nəzərə almaqla nail oldu.

Bu qələbə ilk növbədə Ali Baş Komandan İlham Əliyevin düzgün hesablanmış əmrləri ilə, mətin, qətiyyətli sərkərdənin mahir komandanlığı altında hərəkət edən Azərbaycan əsgərinin qəhrəmanlığı və rəşadəti sayəsində qazanıldı. Hərbçilərimizin döyüş meydanında nümayiş etdirdikləri yüksək ruh, vətənpərvərlik, peşəkarlıq qələbənin əsas sütunlarından birini təşkil etdi. Azərbaycan bu müharibəyə illərlə hazırlaşmışdı. Hərbi əməliyyatların cəmi 44 gün içində öz əsas hədəfinə çatması illərboyu səbirlə, təmkinlə, gələcəyə strateji baxışla aparılmış ciddi hazırlıqlara söykənirdi. Ordumuzun hərbi potensialı, təchizat səviyyəsi, müasir texnologiyaların, innovativ hərbi strategiyaların tətbiqi nəticəyə birbaşa təsir göstərdi. Təsadüfi deyil ki, Azərbaycan 44 günlük Vətən savaşında XXI əsrin innovativ müharibəsini apardı. Mülki əhaliyə, infrastruktura heç bir xətər yetirmədən, hərbi münaqişələrlə bağlı beynəlxalq qanunvericiliyə ciddi riayət etməklə yalnız legitim hədəflərə yönələrək öz məqsədlərinə çatdı.

### "Biz güc toplayırdıq və aydan-aya, ildən-ilə gücümüz artırdı"

Bu qələbənin ən mühüm amillərindən biri hərbi komandanlıqla yanaşı, eyni zamanda siyasi liderlik faktıdır. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasət, uzun illər ərzində formalaşdırılmış güclü iqtisadi baza və müasir ordu quruculuğu strategiyası bu qələbənin möhkəm təməlini formalaşdırdı. Dövlətimizin başçısının döyüş meydanında olduğu kimi, diplomatik arenada da qətiyyətli və prinsipial mövqeyi, beynəlxalq hüquqa əsaslanan legitim arqumentləri, apardığı effektiv fəaliyyət Azərbaycanın mövqeyini daha da gücləndirdi. 2023-cü ildə Qarabağda separatçı cinayətkarlara qarşı həyata keçirilmiş 23 saatlıq antiterror əməliyyatı isə prosesi məntiqi sonluğuna gətirdi. Qısa müddətdə, çox yüksək dəqiqliklə aparılmış bu əməliyyat ölkənin suverenliyinin tam bərpasını təmin etdi və bölgədə yeni reallıqlar yaratdı. Bu əməliyyat həm də göstərdi ki, Azərbaycan yalnız müharibəni qazanmaqla kifayətlənmir, eyni zamanda postmünaqişə mərhələsində də strateji məqsədlərinə nail olmaq qüdrətindədir.

Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi paraddakı çıxışı zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Hələ 2003-cü ildə ilk dəfə Azərbaycan Prezidenti vəzifəsinə seçiləndə mən bəyan etmişdim ki, nəyin bahasına olursa-olsun biz öz doğma torpaqlarımızı azad edəcəyik. Biz güc toplayırdıq və aydan-aya, ildən-ilə gücümüz artırdı. Biz beynəlxalq arenada öz səsimizi ucalda bildik. Bütün aparıcı beynəlxalq təşkilatlarda ölkəmizin münaqişə ilə bağlı mövqeyi üstünlük təşkil edirdi. Bir çox qərar və qətnamələr bizim Zəfərimizin hüquqi və siyasi əsasını təşkil edirdi. Biz güclü iqtisadiyyat qurmuşduq. Əgər bunu etməsəydik, bizim maliyyə imkanlarımız çox məhdud idi. Biz iqtisadi müstəqillik qazanmışdıq və bu gün Azərbaycan iqtisadi cəhətdən heç bir ölkədən asılı deyil. Bu, bizə daha böyük siyasi güc verirdi. Biz müstəqil siyasət aparan ölkə idik. Bu amillər digər amillərlə bərabər bizi şanlı Zəfərə yaxınlaşdırırdı.

Azərbaycanda ictimai-siyasi sabitlik tam bərqərar olmuşdur. Vətəndaş həmrəyliyi, vətəndaş birliyi, xalq-iqtidar birliyi əsas amillərdən biridir. Biz gənc nəsli vətənpərvərlik ruhunda, Vətənə sevgi ruhunda tərbiyə etmişik və bizim gənclərimiz 44 gün ərzində öz sinələrini qabağa verərək, güllə altına gedərək tarixi torpaqlarımızı işğalçılardan azad etdilər. Vətənpərvərlik, mənəvi keyfiyyətlərimiz şanlı Zəfərimizin əsas amillərindən biridir.

Biz enerji və nəqliyyat layihələrini uğurla həyata keçirərək bir çox ölkələr, böyük coğrafiya üçün əvəzolunmaz ölkəyə çevrildik. Bütün bu amillərlə bərabər, ordu quruculuğu hər zaman prioritet məsələ olaraq qalırdı. Biz güclü ordu, güclü Silahlı Qüvvələr yaratmışıq. Ordumuzun döyüş qabiliyyətini artırmışıq, ordumuzu ən müasir silahlarla, texnika ilə təchiz etmişik. Bütün bu və digər amillər bizim Qələbəmizi, şanlı Zəfərimizi şərtləndirmişdir".

Nəticə etibarilə müasir dünyada uzanan və nəticəsi qeyri-müəyyən olan münaqişələr fonunda Azərbaycanın təcrübəsi fərqli bir model kimi çıxış edir. Bu model qətiyyətli siyasi liderlik, güclü ordu, milli birlik və aydın strateji hədəfin sintezindən ibarətdir. Azərbaycanın əldə etdiyi mütləq qələbə göstərir ki, düzgün planlaşdırılmış və ardıcıl həyata keçirilən siyasət nəticəsində hətta uzun illər davam edən münaqişələr belə qısa müddətdə həll oluna bilər. Bu isə beynəlxalq münasibətlər sistemində yeni yanaşmaların və nümunələrin formalaşmasına zəmin yaradır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan mehriban qonşuluq prinsiplərinə dəyər verən dövlətdir

## İrandakı səfirliyimizin fəaliyyətinin bərpa edilməsi rəsmi Bakının diplomatik dialoqa böyük töhfəsidir

**Azərbaycan Respublikası beynəlxalq münasibətlər sistemində hər zaman qarşılıqlı hörmət, suverenlik və mehriban qonşuluq prinsiplərinə sadiq qalan məsuliyyətli tərəfdaş kimi tanınır. Aprelin 12-də Azərbaycanın İran İslam Respublikasındakı səfirliyinin fəaliyyətini bərpa etməsi rəsmi Bakının regional sülhə və diplomatik dialoqa verdiyi növbəti strateji töhfədir.**



Milli Məclisin deputatı Kamran Bayramov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, xüsusilə diqqətçəkən məqam səfirliyimizin fəaliyyətə başlamasının regionda hərbi əməliyyatların dayandırılmasından və ikihəftəlik atəşkəsin elan olunmasından dərhal sonraya təsadüf etməsidir: "Bu zamanlama təsadüfi olmayıb, Azərbaycanın çətin anlarda humanitar və siyasi dəstəyini əsirgəməyən, qonşuluq münasibətlərinə xüsusi önəm verən dövlət olduğunun bariz nümunəsidir. Azərbaycan bir daha sübut etdi ki, o, təkcə xoş günlərin deyil, həm də sınaq anlarının etibarlı qonşusudur".

Deputat diqqətə çatdırıb ki, səfirliyin fəaliyyəti hazırkı mərhələdə təhlükəsizlik və təşkilati məsələlər nəzərə alınmaqla, mərhələli şəkildə tənzimlənir. İlkin dövrdə məhdud sayda diplomatik və inzibati heyətlə işə başlayan missiyanın əsas məqsədi tərəflər arasında etimad mühitini möhkəmləndirmək və birbaşa ünsiyyət kanallarını rəsmi müstəvidə canlandırmaqdır. Bu yanaşma prosesin tam sabit və sistemli şəkildə idarə olunmasına xidmət edir. "Ölkəmiz regionda davamlı sülhün və sabitliyin təmin olunması istiqamətində irəli sürülən bütün təşəbbüsləri dəstəklədiyini bir daha qətiyyətlə bəyan edir. Səfirliyin açılması, sadəcə, diplomatik binanın fəaliyyətinin bərpası deyil, həm də regiondakı gərginliyin azaldılmasına, iqtisadi-tranzit əlaqələrinin gələcək inkişafına və təhlükəsizlik mühitinin möhkəmlənməsinə yönəlmiş iradənin göstəricisidir", - deyə deputat əlavə edib.

K.Bayramov qeyd edib ki, Azərbaycanın bu strateji addımı regionun gələcək simasını müəyyən edən yeni əməkdaşlıq formatlarının formalaşması üçün münbit və etibarlı zəmin hazırlayır. Onun sözlərinə görə, diplomatik münasibətlərin bərpası təkcə iki ölkə arasındakı bağları deyil, həm də bütün bölgədə qarşılıqlı etimada söykənən inteqrasiya proseslərini stimullaşdırır. Bu qərar rəsmi Bakının Cənubi Qafqazda və onun hüdudlarından kənarda davamlı sülhün əldə olunması, gərginlik ocaqlarının aradan qaldırılması və konstruktiv dialoqun qurulması istiqamətindəki aparıcı rolunu bir daha qətiyyətlə təsdiqləyir. Beləliklə, Azərbaycan növbəti dəfə nümayiş etdirir ki, o, regionda sabitliyin əsas təminatçısı və sülh quruculuğu proseslərinin mərkəzi aktoru qismində çıxış edir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Türkiyənin vitse-prezidenti Zəngəzur dəhlizini strateji əhəmiyyətli marşrut hesab edir

**Türkiyənin vitse-prezidenti Cövdət Yılmaz Zəngəzur dəhlizini Anadolu bölgələrinin gələcək inkişafını stimullaşdıracaq əhəmiyyətli nəqliyyat və logistika marşrutu hesab edir.**




AZƏRTAC xəbər verir ki, Diyarbəkir vilayətinə səfəri zamanı C.Yılmaz Türkiyənin şərqi və cənub-şərqini beynəlxalq ticarət şəbəkələrinə inteqrasiya etmək planlarını açıqlayıb.

"Bu kontekstdə üç strateji logistika marşrutu diqqət çəkir. "İnkişaf Yolu" layihəsi: Türkiyədən tutmuş İraqın cənubuna qədər, bu, yalnız Yaxın Şərqdən yük daşınması üçün deyil, həm də enerji daşıyıcıları təchizatı üçün vacibdir. Digəri Türkiyə ilə türk dövlətləri arasında birbaşa əlaqə təmin etməklə Orta dəhlizi gücləndirmək üçün nəzərdə tutulmuş Zəngəzur dəhlizi, nəhayət, Suriya marşrutu, yəni Türkiyə, Suriya, İordaniya və Səudiyyə Ərəbistanının Hicaz bölgəsini birləşdirən Hicaz dəmir yolunun bərpası", - deyə siyasətçi sadalayıb.

Türkiyənin vitse-prezidenti qeyd edib ki, hər üç təşəbbüs təkcə iqtisadi baxımdan deyil, həm də regional sabitlik baxımından xüsusi əhəmiyyət kəsb edir: "Əminəm ki, logistika marşrutlarının və ticarət dəhlizlərinin inkişafı həm Türkiyənin, həm də bütövlükdə regionun rifahının yaxşılaşdırılmasına yönəlib. Heç bir region qonşuları ilə güclü ticarət əlaqələri olmadan davamlı inkişafa nail ola bilməz".

# Hakan FİDAN: "Türkiyə Azərbaycan ilə Ermənistan arasında sülhə töhfə verməyə çalışır"



**"Türkiyə Azərbaycan ilə Ermənistan arasında sülhün bərqərar olması üçün ciddi səylər göstərir".**

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin xarici işlər naziri Hakan Fidan Ankarada "Anadolu" agentliyinin redaktorları ilə dəyirmi-masa müzakirəsi zamanı bildirib.

Fidan qeyd edib ki, Ankaranın regionda gərginliyin qarşısını almaq üçün atdığı fəal addımlar diplomatik sahədə, o cümlədən regional və qlobal oyunçular arasında güc balansının qorunması məqsədilə də özünü göstərir.

"Vəziyyətdəki hər hansı dəyişiklik və bölgədəki qeyri-sabitlik Türkiyəyə bu və ya digər şəkildə təsir edir, ona görə də Ankaranın Cənubi Qafqaz da daxil olmaqla dünyanın müxtəlif yerlərində baş verən hadisələrə perspektiv dövlət vizyonu olmalıdır", - deyə Türkiyənin xarici işlər naziri vurğulayıb.

# Hərbdən sülhə



**Bu gün dünya xəritəsinə baxanda hər tərəfdə münaqişələrin, müharibələrin getdiyini görürük. Böyük dövlətlərin illərlə bitirə bilmədiyi, çıxılmaz vəziyyətə düşdüyü müharibələr qlobal sabitliyi sarsıdır. Rusiya və Ukrayna arasında artıq dördüncü ilinə girən qanlı döyüşlər, infrastrukturun məhvi və iqtisadi böhran hələ də davam edir.**

## Yaxud ədaləti bərpa etməyin Azərbaycan nümunəsi

Yaxın Şərqdə isə bir neçə saata bitəcəyi proqnozlaşdırılan gərginlik hələ də qeyri-müəyyənlik içərisindədir. Bir sözlə, heç kim qlobal sülhə nə zaman nail olunacağını, alovlanan müharibələrin necə bitəcəyini bilmir. Bütün bu qeyri-müəyyənliklərin fonunda Azərbaycanın 44 günlük Vətən müharibəsi və cəmi 23 saat çəkən antiterror tədbirləri dünya hərb tarixinə nadir nümunə kimi yazıldı. Prezident İlham Əliyevin bu ilin yanvarında Qarabağdan bəyan etdiyi kimi, son onilliklərdə dünyada bu cür tam, qəti və mütləq qələbə qazanan ikinci bir ölkə olmayıb: "Son 80 il ərzində Azərbaycan kimi tam və mütləq Qələbə qazanan ikinci ölkə olmayıb. Müharibələr olub, münaqişələr olub, bu gün də davam edir. Amma heç biri tam və mütləq Qələbə ilə nəticələnməyib. Ancaq biz böyük xalq olaraq buna nail olduq, özü də cəmi 44 gün ərzində. Ondan sonra da bir gün ərzində".

### Ədalətin bərpası

Azərbaycanın mütləq qələbəsini təmin edən və onu digərlərindən fərqləndirən əsas faktorlardan biri sürət və dəqiqlik idi. Onilliklər boyu Cənubi Qafqazda həll olunmayan problem cəmi 44 günə yoluna qoyuldu. Bu gün dünyada beynəlxalq hüququn heçə sayılması, çox halda onun ayaqlar altına atılması təəssüfləndirici gerçəklikdir. 1993-cü ildə Beynəlxalq Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin onilliklər boyu kağız parçasından fərqli olmaması da buna nümunədir. Müstəqilliyini yenicə qazandığı, bütün sahələrdə böhran yaşadığı bir dövrdə respublikamız işğal faktı ilə üz-üzə qaldı, on minlərlə şəhid verdi, bir milyondan çox qaçqın və məcburi köçkün axınına məruz qaldı. Həmçinin beynəlxalq ədalətsizliklə üzləşdi. ABŞ-də ədalətsiz 907-ci düzəlişin qəbulu, ATƏT-in Minsk qrupunun yarıtmaz fəaliyyəti, ölkəmizə işğalla barışması üçün edilən təzyiqlər də elə bunların tərkib hissəsi idi. Ancaq 2003-cü ildən etibarən Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanın hərtərəfli inkişafına hesablanmış strategiya həyata keçirdi. Bu milli strategiya həm ölkəmizin bugünkü qalibiyyətlərini təmin etdi, həm də xarici düşmənlərimizə layiqli dərslərini verdi.

Bəli, Azərbaycanın kimsənin torpağında gözü yox idi, sadəcə, özünə məxsus olanı, beynəlxalq hüququn da tanıdığı ərazilərini geri aldı.

Çıxışlarının birində Prezident İlham Əliyev bu məqama belə toxunub: "Əgər sülh yolu ilə həll üçün bütün ümid itir, ancaq həqiqət və ədalət, beynəlxalq hüquq sizin tərəfinizdədirsə, sülhə nail olmaq üçün gücdən istifadə etmək zəruridir. Məhz belə də oldu. Biz əvvəlcə güc tətbiq etməklə, daha sonra isə siyasi yollarla Ermənistanla sülhə nail olduq. Bu da müasir tarixdə, - müasir dedikdə son onillikləri nəzərdə tuturam, - nadir bir təcrübədir - ölkə özü güc tətbiq edərək suverenliyini və ərazi bütövlüyünü bərpa etdi".

### Etibarlı sülh

Qarabağ zəfəri rəşadətli Azərbaycan Ordusunun qəhrəmanlığı, Prezident İlham Əliyevin bütün xarici təzyiqlərə rəğmən prinsipial mövqeyindən bir addım belə geri çəkilməməsi sayəsində qazanıldı. Dövlətimizin rəhbəri beynəlxalq ədalətsizliklərə qarşı milli maraqlarımızı qətiyyətlə qorudu.

Azərbaycanın qələbəsi Cənubi Qafqazda onilliklərdir davam edən münaqişəyə son qoydu. 8 avqust Vaşinqton sammiti və sülh prosesi istiqamətində atılan addımlar, həmçinin Zəngəzur dəhlizi (TRIPP) kimi təşəbbüslər bölgədə yeni reallıqlar formalaşdırır.

Bütün bunlarla Azərbaycan müharibədən sonra məğlub tərəfə nifrət yox, sülh müqaviləsi təklif edən nadir ölkə kimi tarixə düşdü. Ölkəmizin bu sülhməramlı liderliyi beynəlxalq aləmdə də yüksək qiymətləndirilir. Əbu-Dabidə Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı" ilə təltif edilməsi də bunun əyani sübutudur. Həmin mükafat regionda onilliklər boyu davam edən münaqişəyə və humanitar əzablara son qoyan "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in paraflanmasına görə verilib. Mükafatlandırma mərasimində Prezident İlham Əliyev çıxışı zamanı qeyd etdi ki, Azərbaycanın nümunəsi hələ də müharibə vəziyyətində olanlar üçün bir yol xəritəsi olmalıdır: "...Hesab edirəm ki, bizim nümunəmiz öyrənilməli və hələ də müharibə vəziyyətində olanlar üçün yol xəritəsi kimi istifadə edilməlidir. Bizim nümunəmiz göstərir ki, uzunmüddətli münaqişəyə, əzablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, sülh mümkündür".

İndi ən əsas məsələ Ermənistanla bu qələbəni hüquqi sənədə çevirməkdir. İrəvanın ev tapşırığı da bəllidir. Ermənistan öz konstitusiyasından Azərbaycana qarşı ərazi iddialarını ləğv etməlidir. Bu baş verən kimi regionda yeni və firavan dövr başlayacaq.

Bu gün dünyanın nəqliyyat və logistika mərkəzi kimi tanınan Azərbaycan eyni zamanda sabitlik adası kimi ön plana çıxır.

Müstəqil və balanslaşdırılmış siyasəti ilə kənar güclərin planlarını alt-üst edən ölkəmiz uzaqgörən qərarlarla xarici risklərdən qorunur. Azərbaycandan təbii qaz alan ölkələrin sayının artması etibarlı tərəfdaşlığın bariz göstəricisidir.

Bu gün Ukraynaya, İrana, ümumiyyətlə, ehtiyacı olan dost və qonşu ölkələrə göndərilən yardımlar dövlətimizin humanitar siyasətini ortaya qoyur.

Göründüyü kimi, Azərbaycanın təcrübəsi bütün dünyaya göstərdi ki, düzgün yürüdülən siyasət sayəsində həm ədaləti təmin edərək müharibəyə son qoymaq, həm də sülhü başlatmaq olar.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# "Sülh körpüsü" təşəbbüsü çərçivəsində görüşlər barışın vacib elementi kimi çıxış edir

**Postmünaqişə mühitində cəmiyyətlər arasında etimadın bərpası çox vaxt rəsmi siyasi razılaşmalar qədər vacib olur. Bu məqsədə nail olmağın ən effektiv yollarından biri vətəndaş cəmiyyəti dialoqu təşəbbüsləridir. Çünki bunlar mühüm etimad quruculuğu tədbirləri kimi çıxış edir. Bu təşəbbüslər qarşı tərəfdən olan qeyri-hökumət aktorlarını açıq və konstruktiv müzakirələr üçün bir araya gətirir.**



Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında deyib ki, rəsmi danışıqlardan fərqli olaraq bu dialoqlar çevik və qeyri-rəsmi mühitdə keçirilir. Bu isə iştirakçılara fikirlərini daha sərbəst ifadə etməyə, suallarına cavab tapmağa və tədricən qarşılıqlı anlayışı bərpa etməyə imkan verir. "Beynəlxalq təcrübə də bu cür dialoqların vacibliyini təsdiqləyir. "Böhran İdarəetməsi Təşəbbüsü" (Crisis Management Initiative) və "Ortaq Məxrəc üçün Axtarış" (Search for Common Ground) kimi beynəlxalq təşkilatlar münaqişə bölgələrində - Konqo, Syerra-Leone, Burundi, Nepal kimi ölkələrdə vətəndaş cəmiyyəti ilə işləyərək barışıq prosesinə töhfə veriblər. Bu cür təşəbbüslər dünyanın müxtəlif bölgələrində həyata keçirilir. Oxşar proseslər Yuqoslaviya müharibələrindən sonra Balkanlarda və digər münaqişə bölgələrində də müşahidə edilib", - deyə o əlavə edib.

Tarixboyu müxtəlif dialoq formatlarının formalaşdığını deyən deputat qeyd edib ki, "Track II" diplomatiyası çərçivəsində ekspertlər və vətəndaş cəmiyyəti nümayəndələri rəsmi siyasi kanallardan kənarda həll yollarını müzakirə edirlər. "Track 1.5" dialoqları vətəndaş cəmiyyəti nümayəndələri ilə siyasətçiləri bir araya gətirərək həssas məsələlərin müzakirəsi üçün platforma yaradır. Təcrübə göstərir ki, vətəndaş cəmiyyəti nümayəndələri ilə rəsmilərin görüşü həssas məsələlərin müzakirəsi və sınaqdan keçirilməsi üçün imkan yaradır.

P.Vəliyeva vurğulayıb ki, Azərbaycanın vətəndaş cəmiyyəti təşkilatları ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərinin işğalı, etnik təmizləmə, mina terroru, məcburi köçkünlərin geri qayıtmaq hüququ, eləcə də Ermənistanın 30 ildən artıq müddətdə törətdiyi ekoloji zərərlərin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində hər zaman fəal iştirak ediblər: "Bu gün isə vətəndaş cəmiyyəti təşkilatları iki ölkə arasında sülhün qurulmasına töhfə verməkdə fəal rol oynayırlar. Ərazilərimiz Ermənistanın işğalı altında olduğu dövrdə də hər iki ölkənin QHT-ləri və beyin mərkəzləri arasında bəzi ikitərəfli görüşlər keçirilirdi. Lakin bu çağırış və görüşlərin heç biri konstruktiv olmurdu. Bunun əsas səbəbi isə Ermənistan tərəfində siyasi iradənin olmaması idi".

Ötən il avqustun 8-də Vaşinqtonda əldə olunan razılaşmaların Azərbaycan-Ermənistan münasibətlərində mühüm dönüş nöqtəsi olduğunu vurğulayan deputat bildirib ki, sülhə doğru konstruktiv irəliləyiş Cənubi Qafqazda yeni bir dövrün başlanğıcını qoyub və genişmiqyaslı normallaşma prosesinə təkan verib. Paraflama imzalama ilə eyni hüquqi status olmasa da, davamlı sülhə doğru mühüm bir addımdır. Sülh yalnız rəsmi sənədlərdə deyil, insanların düşüncəsində, davranışında və cəmiyyətlərarası münasibətlərdə də öz əksini tapmalıdır.

P.Vəliyeva qeyd edib ki, normallaşma prosesinin tərkib hissəsi kimi, iki ölkənin vətəndaş cəmiyyəti arasında bu günədək görünməmiş mübadilə təşəbbüsləri həyata keçirilir: "Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələri İrəvanda, daha sonra Bakıda görüş keçiriblər. Bir neçə ay öncə ölkəmizin vətəndaş cəmiyyəti üzvləri Azərbaycan-Ermənistan sərhədinin delimitasiya və demarkasiya olunmuş hissəsindən keçiblər. Aprelin 10-da isə erməni nümayəndə heyəti Azərbaycana quru sərhədi vasitəsilə, delimitasiya və demarkasiya edilmiş sahədən daxil olub, bütün müvafiq sərhəd və pasport nəzarəti prosedurlarından keçib. Bu təşəbbüslər rəsmi sülh sazişini əvəz etməsə də, onların tamamlayıcı elementi kimi çıxış edir. Təsiri çox vaxt tədricən hiss olunsa da, uzun müddətdə daha sabit və əməkdaşlığa açıq bir mühitin yaranmasına töhfə verir. Postmünaqişə dövründə vətəndaş cəmiyyəti dialoqu davamlı və dayanıqlı sülhün təmin olunması üçün zəruridir. Gələcəkdə birgə bəyanatların verilməsi, gənclərin və jurnalistlərin mübadilə təşəbbüsləri də həyata keçirilə bilər ki, bu da etimad quruculuğuna xidmət edər".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Alternativ dəhlizlərin genişləndirilməsində Azərbaycan və Türkiyə strateji tərəfdaşlığının qlobal təsiri



**"Son illərdə qlobal enerji bazarlarında yaşanan dəyişikliklər ənənəvi təchizat zəncirlərinin nə qədər həssas olduğunu açıq şəkildə nümayiş etdirib. Bu baxımdan alternativ enerji dəhlizlərinin yaradılması və mövcud marşrutların gücləndirilməsi yalnız iqtisadi məqsədlərə xidmət etmir, eyni zamanda siyasi sabitliyin qorunmasına və enerji təhlükəsizliyinin təmin olunmasına yönəlmiş strateji addım kimi çıxış edir".**

Bunu AZƏRTAC-a açıqlamasında türkiyəli siyasi ekspert Mehmet Seven bildirib.

Onun sözlərinə görə, Xəzər regionu enerji ehtiyatları baxımından dünyanın ən perspektivli zonalarından biri olaraq qalır. Bu resursların qlobal bazarlara çıxarılmasında Azərbaycan əsas istehsalçı və ixracatçı kimi çıxış edir.

"Ölkənin həyata keçirdiyi enerji siyasəti uzunmüddətli sabitlik, şəffaflıq və qarşılıqlı fayda prinsiplərinə əsaslanır ki, bu da beynəlxalq tərəfdaşlar üçün etibarlı əməkdaşlıq mühiti yaradır. Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan və Türkiyənin fəal iştirakı ilə həyata keçirilən transmilli enerji layihələri artıq qlobal enerji xəritəsində mühüm yer tutur. Xüsusilə Bakı-Tbilisi-Ceyhan neft kəməri, Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) və onun davamı olan Trans-Adriatik Boru Kəməri (TAP) Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan əsas infrastruktur elementləridir. Bu layihələr sayəsində enerji resurslarının daşınması daha təhlükəsiz, çevik və alternativli xarakter alıb. Türkiyə öz coğrafi mövqeyi sayəsində qlobal enerji tranzit mərkəzinə çevrilməkdədir. Şərqlə Qərb arasında yerləşən ölkə həm enerji, həm də logistika baxımından strateji körpü rolunu oynayır. Bu status Türkiyəyə yalnız iqtisadi dividendlər qazandırmır, eyni zamanda onun regional və qlobal siyasətdə təsir imkanlarını da genişləndirir. Alternativ dəhlizlərin gücləndirilməsi məsələsi yalnız boru kəmərlərinin tikintisi ilə məhdudlaşmır. Buraya enerji infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi, rəqəmsallaşdırma, enerji səmərəliliyinin artırılması və yeni texnologiyaların tətbiqi də daxildir. Bu baxımdan Azərbaycan və Türkiyənin birgə həyata keçirdiyi layihələr kompleks yanaşmanın nümunəsi kimi çıxış edir", - deyə ekspert vurğulayıb.

Mehmet Sevenin fikrincə, Orta dəhliz layihəsi də enerji təhlükəsizliyi kontekstində xüsusi əhəmiyyət kəsb edir. Bu dəhliz vasitəsilə Asiya ilə Avropa arasında yeni və daha qısa marşrutların formalaşması yalnız ticarət dövriyyəsini artırmır, eyni zamanda enerji resurslarının daşınması üçün alternativ imkanlar yaradır: "Beləliklə, region ölkələri qlobal iqtisadi sistemə daha sıx inteqrasiya olunur. Yaxın gələcəkdə enerji təhlükəsizliyi anlayışı daha da genişlənərək "yaşıl enerji" faktorunu da özündə ehtiva edəcək. Bu baxımdan Azərbaycanın bərpaolunan enerji potensialı, xüsusilə külək və günəş enerjisi sahəsində imkanları böyük perspektiv vəd edir. Türkiyə isə bu sahədə texnoloji təcrübə və investisiya imkanları ilə seçilir. Bu iki ölkənin əməkdaşlığı nəticəsində "yaşıl enerji dəhlizləri"nin yaradılması gələcək enerji xəritəsində mühüm yer tuta bilər. Enerji layihələrinin uğurlu icrası üçün regionda sabit siyasi mühitin qorunması vacib şərtlərdən biridir. Azərbaycan və Türkiyənin regional təhlükəsizlik və əməkdaşlıq təşəbbüsləri bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Bu təşəbbüslər yalnız enerji layihələrinin təhlükəsizliyini təmin etmir, həm də regionda uzunmüddətli sabitliyin formalaşmasına xidmət edir. Azərbaycan və Türkiyənin enerji sahəsində strateji tərəfdaşlığı müasir beynəlxalq münasibətlər sistemində uğurlu əməkdaşlıq modelidir. Bu model qarşılıqlı etimada, ortaq maraqlara və uzunmüddətli inkişaf strategiyasına əsaslanır. Gələcəkdə bu əməkdaşlığın daha da dərinləşməsi yalnız region üçün deyil, bütövlükdə qlobal enerji təhlükəsizliyi üçün mühüm töhfələr verəcək".

# "Azərbaycan-Türkiyə əməkdaşlığı yeni geosiyasi nizamın mühüm istiqamətlərindəndir"

**"Dünya miqyasında qlobal güc mərkəzlərində dəyişikliklər, güc balansında sürüşmələr və zəifləmə meyilləri müşahidə olunur. Bu proseslər fonunda beynəlxalq sistemin yenidən formalaşdığı görünür. Eyni zamanda bəzi böyük dövlətlərin əvvəlki geosiyasi təsir imkanlarının nisbətən azalması ilə bağlı müzakirələr də getdikcə genişlənir".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında türk politoloq İsmail Cingöz deyib. Onun sözlərinə görə, yeni geosiyasi reallıqlar, eyni zamanda regionların strateji əhəmiyyətini artırır və beynəlxalq münasibətlərdə güc mərkəzlərinin yenidən müəyyənləşdirilməsi tendensiyasını gücləndirir. "Bu kontekstdə Azərbaycan-Türkiyə strateji əməkdaşlığının rolu xüsusi önəm kəsb edir, iki ölkənin yerləşdiyi regionun strateji əhəmiyyəti artır. Ölkələr arasında formalaşan müttəfiqlik münasibətləri təkcə ikitərəfli çərçivədə deyil, həm də regional və qlobal geosiyasi proseslərdə mühüm amil kimi çıxış edir. Enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri və regional inteqrasiya layihələri baxımından Azərbaycan-Türkiyə birliyi Avrasiya məkanında strateji körpü rolunu daha da gücləndirir. Ümumilikdə dəyişən qlobal nizam şəraitində Azərbaycanın və Türkiyənin əməkdaşlığı yeni geosiyasi arxitekturanın formalaşmasında mühüm istiqamətlərdən biri kimi dəyərləndirilir", - deyə politoloq bildirib.

İ.Cingöz qeyd edib ki, regional əhəmiyyətin artması Türk Dövlətləri Təşkilatı çərçivəsində Mərkəzi Asiyadan Avropaya qədər uzanan coğrafiyada inteqrasiya proseslərinin gücləndirilməsi perspektivlərinin ön plana çıxması ilə özünü büruzə verir.

"Bəzi baxışlara görə, Türkiyə və Azərbaycan bu prosesdə mühüm körpü rolunu oynayaraq yeni çoxqütblü dünya nizamının formalaşmasında əhəmiyyətli aktorlardan birinə çevrilə bilər. Eyni zamanda enerji təhlükəsizliyi, alternativ marşrutlar və nəqliyyat dəhlizləri baxımından Türkiyə-Azərbaycan əməkdaşlığının strateji əhəmiyyəti daha da artır. Şuşa Bəyannaməsi ilə rəsmiləşən Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının gələcəkdə Türk Dövlətləri Təşkilatı çərçivəsində daha da genişlənərək institusional xarakter alması ehtimalı da müzakirə mövzusu olaraq qalır.

Yaxın Şərq və Cənubi Qafqazda baş verən proseslər regionun geosiyasi baxımdan daha həssas, eyni zamanda daha strateji məkana çevrildiyini göstərir. Bu vəziyyət dövlətlərin beynəlxalq sistemdə mövqelərini yenidən müəyyənləşdirməsini şərtləndirir. Ümumilikdə, formalaşmaqda olan yeni qlobal nizamda Çin-Azərbaycan-Türkiyə-Böyük Britaniya xətti və Türküstan coğrafiyası ətrafında çoxqütblü sistemin konturları daha aydın görünür", - deyə politoloq əlavə edib.

*Türk ekspert Halit HAMZAOĞLU:*

# "Azərbaycan etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirib"

**"Azərbaycan Xəzər hövzəsindəki iqtisadi, ticarət və nəqliyyat potensialı ilə faktiki olaraq sabitlik adası kimi çıxış edir. Həm şimal, həm də cənub istiqamətlərində davam edən müharibələr fonunda yaranan ciddi qeyri-müəyyənliklər və risklər Azərbaycanın geostrateji və geoiqtisadi rolunu daha da artırır".**



Bunu AZƏRTAC-a açıqlamasında beynəlxalq münasibətlər üzrə ekspert Halit Hamzaoğlu bildirib.

O qeyd edib ki, Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstandan keçməklə Türkiyə və Avropaya uzanan Orta dəhlizin inkişafı institusional baxımdan müstəqil xarakter daşıyır. Bu xətt Mərkəzi Asiya, Qafqaz və Türkiyə iqtisadiyyatları üçün transformativ potensiala malikdir. Şərqlə Qərb arasında mühüm yer tutan Azərbaycan Orta dəhlizdə strateji rol oynayır, nəqliyyat infrastrukturuna sərmayə yatırır və regional əməkdaşlığı təşviq edən siyasət həyata keçirir.

"Azərbaycanın Orta dəhliz boyunca strateji mövqeyi qlobal ticarət şəbəkələrində rolunu gücləndirmək və iqtisadi şaxələndirməni təşviq etmək üçün geniş imkanlar yaradır. Bakı limanı daha böyük yük həcmlərini qəbul etmək və səmərəliliyi artırmaq məqsədilə inkişaf etdirilir, müasir logistika texnologiyaları tətbiq olunur. Orta dəhliz üzrə yük axınının artması isə qlobal geosiyasi dəyişikliklər fonunda bu marşrutu daha da cəlbedici edir. Orta dəhliz region dövlətlərinin çoxşaxəli xarici siyasət məqsədləri ilə də uzlaşır. Bu dəhliz vasitəsilə ölkələr ticarət, iqtisadiyyat və nəqliyyat siyasətlərini şaxələndirmək imkanı əldə edirlər. Bununla da qlobal qeyri-müəyyənlik dövrünün yaratdığı geosiyasi çağırışlar sabitlik yaradan mexanizmlər vasitəsilə neytrallaşdırılır. Azərbaycanın Orta dəhlizi strateji prioritetə çevirməsi isə regional əməkdaşlıq mexanizmlərinin dərinləşməsinə şərait yaradır. Azərbaycan xarici siyasətində sabitlik yaradan amilləri əsas prioritet kimi müəyyənləşdirib. Bu amillər ölkənin balanslı və proqnozlaşdırıla bilən siyasəti nəticəsində yaranan imkanları əhatə edir. Bu kontekstdə Azərbaycanın nəqliyyat dəhlizlərinə yönəlik strategiyası yalnız Cənubi Qafqaz üçün deyil, daha geniş coğrafiya üçün əhəmiyyət daşıyır. Azərbaycanın geoiqtisadi mövqeyini gücləndirən əsas amillərdən biri məhz onun proqnozlaşdırıla bilən və balanslı xarici siyasətə malik olmasıdır. Bu siyasət nəticəsində Azərbaycan həm regional, həm də qlobal miqyasda etibarlı tərəfdaş kimi qəbul olunur. Geosiyasi qeyri-müəyyənliyin hökm sürdüyü bir dövrdə sabit, balanslı və praqmatik siyasət xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan təhlükəsizlik və iqtisadi sabitlik balansını uğurla təmin edir və illərdir həyata keçirdiyi ardıcıl siyasət nəticəsində Şərq-Qərb və Şimal-Cənub istiqamətlərində etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirib", - deyə o vurğulayıb.

Halit Hamzaoğlunun sözlərinə görə, hər iki nəqliyyat xəttinin funksionallığı baxımından Azərbaycan artıq açar ölkəyə çevrilib və bu mövqeyini daha da gücləndirmək üçün həm regional, həm də qlobal aktorlarla "qazan-qazan" prinsipi əsasında yeni əməkdaşlıq mexanizmləri formalaşdırır.

"Ukrayna və İran ətrafında baş verən müharibələr Azərbaycanın quru nəqliyyat marşrutları baxımından əhəmiyyətini daha da artırır. Bu şəraitdə Azərbaycan uzun illərdir həyata keçirdiyi balanslı xarici siyasətin verdiyi üstünlükləri strateji fürsətə çevirə bilir", - deyə Halit Hamzaoğlu qeyd edib.

# I Türkoloji Qurultay: dil, kimlik və tarixi varislik

**Ümummilli Lider Heydər Əliyevin dövlətçilik fəlsəfəsində milli dil və kimlik məsələsi xüsusi yer tuturdu. O, Azərbaycan dilinin qorunmasını və inkişafını milli varlığın əsas şərti kimi dəyərləndirərək, dil siyasətini dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevirmişdir. Məhz Ulu Öndərin təşəbbüsü və siyasi iradəsi ilə Azərbaycan dili Konstitusiya səviyyəsində dövlət dili kimi təsbit olunmuş, milli-mənəvi dəyərlərin sistemli şəkildə qorunması və gələcək nəsillərə ötürülməsi təmin edilmişdir. Bu siyasi kurs hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyev türk dünyası ilə əlaqələrin gücləndirilməsini, ortaq mədəni və dil birliyinin inkişafını strateji xətt kimi müəyyənləşdirmiş, Türk Dövlətləri Təşkilatının gücləndirilməsi, ortaq əlifba və terminologiya təşəbbüsləri ilə bu istiqamətdə mühüm addımlar atmışdır. Bu baxımdan I Türkoloji Qurultayın yüzillik yubileyi təkcə tarixi hadisənin anılması deyil, eyni zamanda Heydər Əliyev ideyalarının və İlham Əliyevin siyasi kursunun məntiqi davamı kimi qiymətləndirilir.**



2026-cı ildə dünya imperialistlərinin bütün dünya xalqlarının milli taleyini humanitar böhranla qarşı-qarşıya qoyduğu şəraitdə türk dünyası öz milli kimlik taleyinin bir əsrlik zəfərini qeyd edir. Bu əlamətdar tarix 1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultayla başlanmış, ağır qanlı milli faciələr və mübarizələrin içərisindən keçmiş və nəhayət, türk dili və kimliyinin qələbəsi ilə başa çatmışdır. İndi bu qələbə türk dünyasının hər yerində qeyd olunur, xatirə konfransları, simpozium və konqreslər keçirilir. Bütün bunlarla yanaşı, hamı I Türkoloji Qurultayın Bakıda keçiriləcək yüzillik yubiley qurultayının keçirilməsini səbirsizliklə gözləyir. Bakı keçən əsrin əvvəlində türk dünyasının taleyi ilə bağlı ən mühüm qərarların qəbul edildiyi mərkəz olduğu kimi, bu gün də eyni tarixi rolunu yenidən oynayır.

### Nə üçün Bakı?

I Türkoloji Qurultayın Bakıda keçirilməsi qərarı Moskvada - türk xalqlarının böyük əksəriyyətinin yaşadığı SSRİ-nin paytaxtında qərara alınmışdır. 1937-ci il stalinizm repressiyalarının qanlı qurbanlarından olmuş görkəmli dilçi Bəkir Çobanzadə yazırdı: "Gənc Azərbaycanın geridə qalmış Şərqin zülmət səhrasında mədəni oazis (vahə - S.Q.) olması, nümunəvi ölkəyə çevrilməsi möhkəm qərara alınmışdır. Bu respublikanın elm və texnika sahəsindəki hədsiz nailiyyətlərini nəzərə alaraq heç kim qurultayın Bakıda keçirilməsinə etiraz etmədi".

Qurultayın harada keçirilməsi mübahisə mövzusu olmuşdur. Görkəmli şərqşünas-türkoloq A.N.Samoyloviç bu məqsədlə Moskvanı təklif etmişdir. Eyni zamanda qurultayın Orta Asiyada keçirilməsi haqqında da təkliflər olmuşdur. Lakin SSRİ-nin siyasi iradəsi Bakı üzərində durmuşdur. Bu barədəki təklif, fakt, hadisə və münasibətləri nəzərdən keçirən Cəlal Qasımov qeyd edir: "Hələ çar Rusiyası dövründən başlayaraq, türkləri, xüsusilə də Azərbaycan türklərini pantürkizm və panislamizmdə ittiham edirdilər. Azərbaycan coğrafi və geostrateji cəhətdən Türkiyə və İrana yaxın idi və bolşeviklər hesab edirdilər ki, pantürkizm, eləcə də panislamizm öz qaynağını Türkiyə və İrandan alır. Türkiyə və İranın sovetləşmədiyini görən bolşevik hakimiyyəti islami dəyərləri, türkçülüyü və türkçüləri məhv etmək üçün Bakı şəhərini seçdi. Fikrimizcə, qurultayın Bakıda keçirilməsi həm də bu amillərlə bağlı idi. Qurultayın Bakıda keçirilməsi daha çox siyasi hadisə idi. Keçən əsrin 30-cu illərində qurultay iştirakçıları olan türkoloqlara qarşı keçirilən repressiv aksiyalar bunları təsdiqlədi. Deyilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, türkçülüyü və islamçılığı əsaslı şəkildə məhv etmək üçün bolşeviklərə Bakı şəhəri lazım idi".

A.N.Samoyloviç qurultayın Moskvada keçirilməsini təklif edərkən onun cəmi üç məsələyə - "əlifba", "ədəbi dil" və "elmi terminologiya"ya həsr olunmasını nəzərdə tuturdu. Lakin Bakıda yeddi məsələ müzakirə predmeti oldu:

1. Əlifba məsələsi;
2. İmla-orfoqrafiya problemləri;
3. Termin məsələləri;
4. Tədris-metodika məsələləri;
5. Qohum və qonşu dillərin qarşılıqlı əlaqəsi və interferensiya problemləri;
6. Türk dillərinin ədəbi dil problemləri, o cümlədən ortaq ədəbi dil məsələsi;
7. Ulu dil nəzəriyyəsi və türk dillərinin tarixi.

Təbii ki, keçən əsrin əvvəllərində türkologiya elmi türkoloji dilçiliklə yanaşı, indi olduğu kimi, digər sahələri də (məsələn, türkoloji tarix, türkoloji etnoqrafiya, türkoloji fəlsəfə və s.) əhatə etmirdi. Həmin digər sahələr türk dilinin ətrafında təsnif olunurdu. Bunu qurultayın qətnamələrindən də görmək olur. Əsas qətnamələr dilçiliklə bağlı idi. Lakin burada tarix və etnoqrafiya üzrə də qətnamələrin olması türkologiyanın əhatə dairəsinin genişlənməsindən xəbər verirdi. Qurultayda aşağıdakı məsələlər barədə qətnamələr qəbul edilmişdir:

Yeni türk əlifbası barəsində;

Türk dillərinin öyrənilməsi və türk dillərinin digər dil ailələri ilə əlaqəsinin öyrənilməsi haqqında;

Ana dilinin tədrisi metodikası haqqında;

Türk xalqlarının tarixini öyrənməyin müasir vəziyyəti və yaxın vəzifələri haqqında;

Ölkəşünaslıq haqqında;

Türk xalqlarının orfoqrafiyası barəsində;

Türk dillərində elmi terminlər sistemi barəsində;

Türkoloji qurultayın etnoqrafiya komissiyasının işi haqqında.

I Türkoloji Qurultay ona hansı baxış bucağından baxılırsa-baxılsın, dil mərkəzli bir qurultay olsa da, mahiyyəti etibarilə, təkcə türk dilinin deyil, həm də türk milli kimliyinin qurultayı idi. Dillə və ümumiyyətlə, tarix, etnoqrafiya ilə bağlı müzakirə edilən bütün məsələlər öz alt məna qatında türk milli kimliyini nəzərdə tuturdu. Bunun isə çox sadə bir səbəbi var idi: milli dil milli kimliyin inkişafının bünövrəsini, varlığının mənasını, mahiyyətinin nüvəsini təşkil edir. Fərdi və milli kimlik dilin dərkindən başlanır və bu iki sistem bir-birini şərtləndirərək inkişaf etdirir. Etnosun, xalqın, millətin bütün mənəvi təcrübəsi dil vasitəsilə yaddaş potensiyasına çevrilir və dilin xüsusilə paremioloji (deyim) fondu statusunda həm dilin özünün, həm də onu yaradan etnosun təbii-stixial enerji qaynağını təşkil edir. Bunun canlı örnəyi ulu abidəmiz "Dədə Qorqud" dastanıdır. Onda Qorqud atanın dilindən öz əksini tapmış bütün deyimlər (atalar sözləri, zərb-məsəllər...) bu gün bizim mədəniyyət tariximizdə şifahi ədəbiyyat nümunələri kimi tövsif olunsa da, həmin deyimlər oğuz-türk kimliyinin yaşam qanunları, həyat fəlsəfəsi, siyasi idarəçiliyin kristal davranış formullarıdır. Oğuz türkləri nəhəng imperiyaları həmin ata sözlərində yaşayan siyasi hikmətlər əsasında qurmuşlar. Bu cəhətdən həmin deyimlər dil atomları statusunda milli kimliyin ana ünsürü, nüvəsi, bünövrəsidir. Təkcə bir fakta müraciət etməyimiz kifayətdir ki, dil vahidlərinin etnosun tarixində necə böyük və əvəzsiz rol oynadığını görə bilək.

Görkəmli türkoloq Samət Əlizadənin aşkarladığı atalar sözlərindən ibarət "Oğuznamə" kitabı bu deyimlə başlanır:

"Atalarun sözi Qurana girməz,

Amma Quran yanınca yalın-yalın yalışur".

Bu atalar sözünün bədii-idraki anlamı, etnopoetik dəyəri, milli kimlik fəlsəfəsi və ən başlıcası, etnik ideologiyası son dərəcə zəngindir. Bu zahirən iki misradan ibarət nəzmlə deyilmiş cümlədir. Ancaq bu cümlə oğuz türk tarixinin, mübaliğəsiz desək, bütün ideoloji-idraki yükünü özündə daşıyır. Həmin deyimdə "atalar sözü" ifadəsi oğuzların özlərinə məxsus olan milli kimlik fəlsəfəsini (Tanrıçılıq ideologiyasını), "Quran" isə oğuz babalarımızın qəbul etdiyi vəhy dinini işarələndirir. İslamı qəbul edən oğuzlar öz milli kimlik fəlsəfəsinin ideoloji əsaslarından (Tanrıçılıqdan) imtina etməyərək, onu qəbul etdikləri dinlə eyni sistem daxilinə salmış, uzlaşdırmış və onların oğuz-türk milli düşüncə sistemində struktur harmoniyasını müəyyənləşdirmişlər. Bu cəhətdən sözügedən atalar sözü, sadəcə, fəlsəfi hikmətə malik adi deyim vahidi olmayıb, Oğuz türklərinin milli şüurunu əsrlər boyunca idarə edən milli davranış formuludur. Həmin deyim-formul "Quran"ı müqəddəs teoinformasiya statusunda qəbul edib, onun yanında oğuzların özlərinə məxsus ideologiyaya da "atalar sözü" janrında yer verməklə oğuz-türk milli kimlik sistemində yarana biləcək hər hansı ideoloji ziddiyyətləri birdəfəlik aradan qaldırmışdır. Bu cəhətdən I Türkoloji Qurultayda dilin müzakirəsi bolşeviklərin məqsədlərinin əleyhinə olaraq, həm də və eyni zamanda milli kimliyin müzakirəsi demək idi.



### Milli kimliyin dil qohumluğuna əsaslanan bünövrəsi

Qurultayda məruzə edən B.Çobanzadə çıxışının əvvəlində göstərib: "Türk ləhcələri Orxon yazılarından əvvəl də mövcud idi. Tükyulara məxsus Orxon yazılarının heç şübhəsiz iki yerə: şərq və qərb, yaxud şimal və cənub hissəyə bölünməsi, həmin yazılarda karluk, uyğur, tokoğuz, qırğız və başqa türk tayfalarının adlarının çəkilməsi faktı və nəhayət, Orxon yazılarının özlərinin dili yuxarıda deyilənləri təsdiq edir. Bu türklərin özlərini "türk" adlandırmaları da şübhə doğurmur. Bütün tarixboyu buna sanballı sübutlar var. Müxtəlif dövrlərə məxsus olan bir sıra əsərlərə: "Kutadqu-bilik", "Divani-hikmət", "Divani-lüğəti türk"ə dərindən fikir versək, görərik ki, onlar müxtəlif ləhcələrdə yazılıb, müəlliflər bunları "türk əsərləri" və özlərini də "türk" adlandırıblar".

Görkəmli türkoloqun ilk baxışdan quru elmi yanaşmanı ifadə edən bu fikri, əslində, türk dili və türk kimliyinin əsaslarını ifadə edən "tezis"lərdən ibarətdir. Onlara diqqət edək:

Müəllifin "türk ləhcələrinin Orxon yazılarından əvvəl də mövcud olması" haqqındakı fikri "dil və kimlik" sistemi baxımından iki cəhətdən əlamətdardır:

1. Orxon yazılı abidələri türk dilinin mövcudluğu və tarixinin sözün hərfi anlamında daşlaşmış abidəsi olmaqla türk milli kimliyinin "daş yazısı" kodu ilə təcəssümü, təsbiti və təsdiqidir.

2. Türk ləhcələrinin mövcudluğunun tarixən Orxon yazılarından əvvələ gedib çıxması türk kimlik tarixinin qədimliyini göstərməklə yanaşı, türk dilinin eyni zamanda ləhcələrə diferensiallaşan dil kimi də tarixinin çox qədim olduğunu göstərir.

B.Çobanzadənin Orxon yazılarında karluk, uyğur, tokoğuz, qırğız və başqa türk tayfalarının adlarının çəkildiyi faktını qabartması türk milli kimlik tarixinin tayfa, xalq, millət, etnos və s. kimi sağlam etnik-mədəni böyümə təkamülünün olmasının təsdiqidir. Başqa sözlə, türk tayfaları türk ləhcələrinin mövcudluğunu şərtləndirdiyi kimi, türk ləhcələri də türk milli kimliyinin təkamül dinamikasını etnik-stixial yaddaş enerjisi ilə təmin etmişdir.

Müəllifin Orxon abidələrini yaradanların özlərini "türk" adlandırmalarına şübhə etməməsi milli kimliyin "türk" etnik-mədəni kimlik işarəsi adı altında inkişaf tarixinin qədimliyinin və eyni zamanda məhz türk etnosuna məxsus milli-etnik baza əsasında getməsinin ifadəsidir.

Alimin "Kutadqu-bilik", "Divani-hikmət", "Divani-lüğəti türk" kimi müxtəlif türk ləhcələrində yazılmış əsərlərdə onları yazan müəlliflərin türk kimlik işarəsini vurğulamalarını qabartması "türk dili və türk kimliyi"nin ta qədim dövrlərdən türk düşüncə tarixi üçün aktual etnik-mədəni düşüncə hadisəsi olduğunu göstərir.

Burada haşiyə çıxaraq qeyd etmək istərdik ki, B.Çobanzadənin bu sonuncu "tezisi" bəzən qədim və Orta əsrlərdə "millət", "milliyyət" və "millilik" kimi anlayışların olmamağı, onların müasir dövrümüzdə meydana çıxması haqqında rast gəldiyimiz fikirlərə birmənalı cavabdır. Əksinə, biz deyərdik ki, millilik, milli mənsubiyyət, milli kimlik məsələləri müasir terminologiyalarla olmasa da, qədim və Orta əsrlərdə daha aktual və daha kəskin məna daşıyıb. Təkcə onu demək kifayətdir ki, VII əsrdən başlayaraq ərəblərin islam dinini dünyaya yaymaları müxtəlif xalqlar tərəfindən heç də asanlıqla qəbul edilmədi. Məsələn, ərəblər VII əsrdə Sasani imperiyasının varlığına son qoydular. Bununla farsların çox qədim dövlətçilik tarixi süqut etdi. Ancaq XI əsrdə Əbülqasim Firdovsi özünün "Şahnamə" əsəri ilə farsların milli kimlik düşüncəsini ölməyə qoymadı və həm də müsəlman Şərqində millətçiliyi alovlandıran əsas qaynaqlardan biri oldu. Buna elə həmin əsrdə etiraz edən Yusuf Xas Hacib Balasaqunlu ədəbi ənənədə "türklərin "Şahnamə"si hesab edilən "Kutadqu-bilik" əsərini məhz "Şahnamə"yə cavab və etiraz olaraq yazmaqla türk milli kimlik şüurunun yaşadılması və inkişafında çox böyük rol oynadı. Məhz bu cəhətdən B.Çobanzadənin çıxışındakı "..."Kutadqu-bilik", "Divani-hikmət", "Divani-lüğəti türk"ə dərindən fikir versək, görərik ki, onlar müxtəlif ləhcələrdə yazılıb, müəlliflər bunları "türk əsərləri" və özlərini də "türk" adlandırıblar" fikir-cümləsi çox ağır məna yükünə malikdir və cümlənin fikir nüvəsini "türk dili və türk milli kimliyi" məsələsi təşkil edir.

Qurultayda Altay dillərinin qarşılıqlı qohumluğu məsələsinin tarixi və müasir vəziyyəti haqqında çıxış edən N.N.Poppenin məruzəsində qoyulan məsələlər türk dilinin Altay dil sistemindəki yeri və qarşılıqlı əlaqələrinin müəyyənləşdirilməsi baxımından əhəmiyyət daşımaqla bərabər, eyni zamanda türk milli kimliyinin tarixi məsələsinin də üzərinə işıq tuturdu.

Ümumiyyətlə, həmin dövr türkologiyasında Altay dilləri dedikdə monqol, türk və tunquz dilləri nəzərdə tutulur və bu dillər eyni kökdən hesab olunurdu. Bu cəhətdən N.N.Poppe göstərir ki, Altay dillərinin müqayisəli tədqiqi tarixində iki əsas dövrü fərqləndirmək olar. Birinci dövrdə Altay dilləri hələ ayrıca qrupla fərqləndirilmədiyi və tədqiqatçılar tərəfindən adı tez-tez dəyişən , üzvlərinə münasibətdə daimi olmayan və indi Altay-Ural adlandırılan bir geniş ailənin üzvü kimi nəzərdən keçirildiyindən həmin dövrü Ural-Altay dövrü adlandırmaq olar. Bunun əksinə olaraq, ikinci dövr onunla səciyyələnir ki, onun lap əvvəlində Altay dilləri digər Ural-Altay dillərinin ümumi kütləsindən təcrid edilərək, xüsusi qrupa ayrılmışdı, çünki bu dövrdə artıq müəyyən etmək mümkün olmuşdu ki, daha sıx qohumluq (Ural-Altay dillərinin qarşılıqlı qohumluğu haqqında ümumiyyətlə danışmaq mümkündürsə) ilk növbədə türk və monqol, həmçinin ola bilsin ki, tunquz dillərini bir-birinə bağlayır.

N.N.Poppenin bu fikrinə "türk dili və kimliyi" kontekstində yanaşdıqda məsələnin ilk növbədə elmdə necə qoyulduğu aydın olur. Müəllifə görə, Altay dilləri (monqol, türk, tunquz) əvvəlcə Ural-Altay dil ailəsinin içərisində hesab edilmiş, sonra bu dil qrupu həmin ailədən diferensiasiya etmişdir. Bu da türk etnik kimliyinin uzaq keçmiş planda Ural-Altay tarixi, ondan sonrakı dövrdə isə Altay tarixi ilə bağlı olduğunu göstərir.

XX əsrin əvvəllərinə aid olan bu yanaşma türk kimlik dünyasının Şərq arealı ilə özünü təsdiq etsə də, burada Qərb arealı ümumiyyətlə nəzərdə tutulmurdu. Yəni türklər həmin dövr tarixçilik ənənəsində Altay, Ural, Uzaq Şərq kimi etnik areallarla əlaqələndirilir, Avropamərkəzçi düşüncəyə sahib olan Qərb tarixçiləri türklərin Qərbi və Cənubi Asiya, o cümlədən Avropa arealı ilə bağlı tarixini yerli-dibli qəbul etmirdilər.

Qurultayda İrəvandan gəlmiş professor R.Açaryan türk və erməni dillərinin qarşılıqlı təsiri haqqında çıxış etmişdir. O öz çıxışına məruzəsinin lap əvvəlində Qafqazın türk tarixinin təhrifi ilə başlamışdır: "1021-ci ildə türklər ilk dəfə Ermənistana qədəm qoydular və qısa bir müddət ərzində bütün ölkəni ələ keçrib, qərbə doğru irəlilədilər. O dövrdən indiyədək doqquz əsr ərzində ermənilərlə müxtəlif türk-tatar tayfaları (səlcuqlar, tatarlar, türkmənlər, özbəklər, azərbaycanlılar və osmanlılar) yanaşı yaşamışlar. Bu birgəyaşayış mədəni həyatın müxtəlif sahələrində qarşılıqlı əlaqələrə səbəb oldu..."

Çıxışda diqqəti cəlb edən ilk fakt guya türklərin 1021-ci ildə Ermənistanı işğal etməsidir. Belə ki, 1021-ci ildə Qafqazda Ermənistan adlı dövlət olmuş və türklər onu işğal etmişlər. Bu fakt ermənilərin özlərinə saxta tarix yaratmalarının, türk tarixini, xüsusilə Azərbaycan türklərinin, o cümlədən Qafqazın tarixini təhrif etmək siyasətinin çox-çox əvvələ gedib çıxdığını göstərir. Hazırda Azərbaycan tarixçilərinin gəldiyi yekdil qənaətə görə, vaxtilə mövcud olmuş Ərməniyyə dövləti ermənilərə məxsus, onların yaratdığı dövlət olmamışdır. Bunun inkarolunmaz sübutu Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasındadır. Əsərin qadın qəhrəmanı Şirin Ərməniyyə hökmdarı Məhinbanunun qardaşı qızıdır. Şirin Sasani şahzadəsi Xosrova dəlicəsinə aşiq olur. Məhinbanu Şirinə fars şahzadəsi ilə münasibətləri zamanı özünün türk kimliyini, türk şahzadəsi olduğunu, türk şahlarının nəslindən gəldiyini bir an da olsun unutmamağı məsləhət görür:

*Əgər o aydırsa, biz afitabıq,*
*O - Keyxosrov, bizsə - Əfrasiyabıq.*

Keyxosrov fars mifologiyasında farsların ulu əcdadı, ilk atasıdırsa, Əfrasiyab da türk mifologiyasında türklərin ulu əcdadıdır. Beləliklə, aydın olur ki, Ərməniyyə türk dövlətidir və onun hökmdarı Məhinbanu da türk kimliyinin daşıyıcısıdır. Bu cəhətdən R.Açaryanın türklərin (səlcuqların) 1021-ci ilə Ermənistanı işğal etməsi haqqındakı məlumatı tam yalan olub, erməni hiyləgərliyinin bariz nümunəsi idi.

R.Açaryan öz çıxışında türk dilinin erməni dilinə çox güclü təsir göstərdiyini qeyd edir. Onun məruzəsində bir məqam xüsusilə diqqət çəkir: "Bir dildən digərinə adətən isimləri, bəzən yalnız sifətləri və çox nadir hallarda feilləri iqtibas edirlər. Saylar, həmçinin bağlayıcılar və zərflər iqtibas olunmur. Lakin erməni dilinə bütün bu elementlər eyni dərəcədə nüfuz edib. Bir çox sahələrdə 70, 80 və 90 formalarında çıxış edir. Rodostoda 69-dan 99-a qədər bütün rəqəmlər sırf türk rəqəmləridir".

Burada ən maraqlı məqam feil məsələsidir. Məlumdur ki, bir dildə əgər feillər başqa bir dilin feilləri ilə əvəz olunursa, həmin dil artıq öz kimliyini itirir. Bu cəhətdən türk dili erməni dilinə təsir edərək, onu sintaktik strukturuna qədər dəyişmiş və bu dili qədim və müasir olmaqla iki dilə bölmüşdür.

Əlbəttə, I Türkoloji Qurultayda qoyulan məsələlər, təbii ki, bizim burada qeyd etdiklərimizlə məhdudlaşmayan son dərəcə zəngin və mühüm məsələləri əhatə edirdi. Qurultayda iştirak edən türkoloqların (SSRİ-dən xaricdə yaşayanlardan başqa) 1930-cu illərdə müxtəlif repressiyalara, o cümlədən güllələnmə cəzasına məruz qalmaları qurultayın ana problemi olan türk dili məsələsinin təkcə türk dilinin, sadəcə, elmi problemləri ilə bağlı olmayıb, məhz türk milli kimliyi ilə bağlı olduğunu birmənalı şəkildə sübut edir. Əgər qurultayın qətnamələri həmin sənədlərdə olduğu kimi həyata keçsəydi, o halda SSRİ-də yaşayan türk xalqları son dərəcə zəngin və böyük inkişaf yoluna qədəm qoyacaqdılar.

Lakin sovet sosialist maskası altında gizlənmiş velikorus şovinizmi türklüyün böyüməsinə imkan verə bilməzdi. Odur ki, qurultaydan sonra onillikdə - 1930-cu illərdə amansız və qanlı repressiyalar başlandı və 60-cı illərin ikinci yarısına qədər davam etdi. Bu da öz növbəsində türk xalqlarının elmi və mədəni inkişafına amansız və sağalmaz zərbələr vurub, milli kimlik şüurunda nəticələri bu gün də davam edən patalogiyalar yaratdı.

### II Türkoloji Qurultayın çağırılması elmi, mədəni və strateji zərurətdir

I Türkoloji Qurultayın ideyaları yalnız tarixi bir mərhələnin məhsulu kimi qiymətləndirilməməlidir. Bu ideyalar eyni zamanda müasir dövrdə türk dünyasının inteqrasiya proseslərinin nəzəri və ideoloji əsaslarını təşkil edir. Azərbaycan dövlətinin həyata keçirdiyi dil siyasəti, milli-mədəni irsin qorunması və ortaq türk kimliyi istiqamətində atılan addımlar bu tarixi irsin davamlılığını təmin edən mühüm amillər sırasındadır. Xüsusilə Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş milli-mənəvi dəyərlərin qorunması strategiyası və bu xəttin Prezident İlham Əliyev tərəfindən müasir geosiyasi reallıqlar fonunda inkişaf etdirilməsi Türkoloji Qurultayın ideyalarının praktik müstəvidə yeni mərhələyə yüksəldiyini göstərir. Bu baxımdan qurultayın müzakirə etdiyi dil, terminologiya, ortaq ədəbi dil və kimlik məsələləri bu gün artıq yalnız elmi problem kimi yox, eyni zamanda strateji inkişaf istiqaməti kimi çıxış edir. Lakin kökü bəşəriyyət tarixinin nüvəsinə gedib çıxan, öz gücünü haqdan, ədalətdən alan türklük sovet repressiyaları ilə məhv olmadı: I Türkoloji Qurultayın ideyaları nəsillərin qəlbində yaşadı, cücərdi və nəhayət, türk xalqlarını öz milli kimlik müstəqilliyinə qovuşdurdu. Məhz bu cəhətdən 2026-cı il, sadəcə, I Türkoloji Qurultayın yubiley ili yox, həm də və eyni zamanda türk kimliyinin zəfər yubileyidir. Bu baxımdan I Türkoloji Qurultayın yüzillik yubileyinin qeyd olunması müasir Azərbaycan dövlətinin milli ideoloji xətti ilə birbaşa səsləşir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət çərçivəsində türk dünyasının inteqrasiyası, ortaq dil və mədəniyyət platformalarının inkişafı yeni mərhələyə qədəm qoymuşdur. Bu siyasət eyni zamanda Heydər Əliyevin müəyyən etdiyi strateji xəttin davamı kimi, milli kimliyin qorunması ilə yanaşı, onun qlobal miqyasda gücləndirilməsini təmin edir. Beləliklə, I Türkoloji Qurultayın ideyaları yalnız tarixi yaddaşın elementi kimi deyil, həm də müasir dövlətçilik və beynəlxalq münasibətlər sistemində aktiv fəaliyyət proqramı kimi yaşayır və inkişaf edir.

Bütün bunları nəzərə alaraq, tarixi varislik prinsipinə uyğun şəkildə II Türkoloji Qurultayın çağırılması artıq elmi, mədəni və strateji zərurət kimi meydana çıxır. I Türkoloji Qurultay XX əsrin əvvəllərində türk dillərinin, ortaq əlifbanın, terminologiyanın və milli kimliyin qorunması istiqamətində fundamental platforma rolunu oynamışdırsa, XXI əsrdə baş verən qlobal transformasiyalar, rəqəmsallaşma prosesləri, dil mühitinin sürətli dəyişməsi və informasiya məkanında assimilyasiya riskləri yeni yanaşmaların formalaşdırılmasını tələb edir. Bu baxımdan II Türkoloji Qurultay tarixi ənənənin davamı olmaqla yanaşı, eyni zamanda türk dünyasının ortaq dil siyasətinin, vahid terminoloji sisteminin, rəqəmsal dil resurslarının və ortaq mədəni platformalarının müəyyənləşdirilməsi üçün mühüm beynəlxalq elmi-siyasi platformaya çevrilə bilər. Belə bir qurultayın keçirilməsi türk xalqları arasında inteqrasiyanı daha da dərinləşdirəcək, milli kimliyin qorunması ilə yanaşı, onun müasir dünyada rəqabətqabiliyyətli inkişafını təmin edəcəkdir. Bu mənada II Türkoloji Qurultayın çağırılması artıq seçim yox, tarixi zərurət kimi çıxış edir və bu təşəbbüsün Bakıda reallaşdırılması həm simvolik, həm də strateji baxımdan xüsusi əhəmiyyət daşıyır.

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

# İŞİMİZ, GÜZƏRANIMIZ

● Ötən həftənin iqtisadi icmalı

## Mülki aviasiyamız üçün yeni təlim mərkəzi, "PAŞAHoldinq" ilə DİF arasında memorandum və bahalaşmaqda davam edən neft

**Ötən həftə də sürətlə keçdi, amma ardında maraqlı və diqqətçəkən hadisələr buraxdı. İqtisadiyyatdan mədəniyyətə, gündəlik həyatdan beynəlxalq arenaya qədər bir çox mövzu gündəmi zənginləşdirdi. Bu icmalda isə sizə həftənin ən vacib xəbərlərini və tendensiyalarını qısa şəkildə təqdim edirik. Gəlin birlikdə nəzər salaq.**

Həftə Prezident İlham Əliyevin Milli Aviasiya Akademiyasında Beynəlxalq Təlim Mərkəzinin açılışı ilə başladı. Aprelin 8-də baş tutan açılış mərasimində ölkənin aviasiya sahəsindəki yeni imkanları, təhsil və peşəkarlıq səviyyəsinin yüksəldilməsi istiqamətində atılan addımlar diqqət çəkdi. Prezidentin çıxışı zamanı vurğulanan yeniliklər və gələcək planlar ölkəmizin aviasiya sahəsindəki inkişaf perspektivlərini ortaya qoydu. Bildirildi ki, Beynəlxalq Təlim Mərkəzi "Azərbaycan Hava Yolları" QSC-nin təşəbbüsü ilə Milli Aviasiya Akademiyasının ərazisində yaradılıb və əsas məqsədi uçuş heyətinin fövqəladə vəziyyətlər üzrə hazırlanması, eləcə də hava hərəkətini idarəetmə dispetçerlərinin nəzəri və praktiki təlimi üçün imkan yaratmaqdır.

Yeni kompleksdə Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO) və Avropa İttifaqı Aviasiya Təhlükəsizliyi Agentliyinin (EASA) tələblərinə uyğun olaraq "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsinin dispetçerləri hazırlanacaq. Bunun üçün Alman Aeronaviqasiya Akademiyasının (DFS) proqramı əsasında Aeronaviqasiya Təlim Mərkəzi fəaliyyət göstərəcək. Mərkəzdə Heydər Əliyev Beynəlxalq Hava Limanının 360 dərəcə panoramasını əks etdirən TWR qüllə simulyatoru, hava məkanının idarə edilməsi üzrə radar simulyator kompleksi, həmçinin hava limanlarında real iş şəraitinə uyğun təlim trenajorları quraşdırılıb. Bu imkanlar dispetçerlərin və hava gəmisi heyətinin real əməliyyat şəraitində hazırlanmasını təmin edir.

Yeni təlim mərkəzi regionda aviasiya sahəsində kadr hazırlığını gücləndirəcək, beynəlxalq standartlara uyğun tədris imkanlarını genişləndirəcək və rəqabətqabiliyyətli milli kadr potensialının formalaşmasına töhfə verəcək. Müasir texnologiyalar və son model uçuş simulyatorları sayəsində aviasiya mütəxəssisləri həm nəzəri biliklər, həm də praktiki bacarıqlarını real şəraitdə inkişaf etdirə biləcəklər ki, bu da uçuşların təhlükəsizliyinin təmin edilməsində böyük rol oynayır.

❖ ❖ ❖

Ötən həftə ölkəmizdə iqtisadi sahədə diqqətçəkən daha bir hadisə baş verdi. "PAŞA Holdinq" ilə Dünya İqtisadi Forumu arasında əməkdaşlıq memorandumunun imzalanması Azərbaycanın qlobal iqtisadi əməkdaşlıqlarının güclənməsinə yönəlmiş mühüm addım kimi qiymətləndirildi. Yeni tərəfdaşlıq dayanıqlı iqtisadi inkişaf, innovasiya, rəqəmsal transformasiya və iqtisadi artım sahələrində geniş imkanlar yaradacaq. Dünya İqtisadi Forumunun qlobal platformasında təmsil olunmaqla "PAŞA Holdinq" qabaqcıl təşəbbüslərdə iştirak etmək, beynəlxalq təcrübədən faydalanmaq və qlobal çağırışlara cavab verən təsirli layihələri dəstəkləmək imkanına malik olacaq. Bu əməkdaşlıq həm yerli, həm də beynəlxalq iqtisadi mühitdə strateji addım kimi dəyərləndirilir.

❖ ❖ ❖

Ölkəmizdə enerji səmərəliliyi sahəsində mühüm əməkdaşlıq anlaşması da ötən həftə reallaşıb. Enerji Məsələlərini Tənzimləmə Agentliyi (EMTA) və "Kapital Bank" ASC arasında müvəkkil kredit təşkilatı vasitəsilə Enerji Effektivliyi Fondunun vəsaiti hesabına güzəştli kreditlərin verilməsinə dair əməkdaşlıq müqaviləsi imzalanıb. Müqaviləni EMTA-nın İdarə Heyətinin sədri Samir Axundov və "Kapital Bank" ASC-nin İdarə Heyətinin sədr müavini Fərid Hidayətzadə imzalayıblar. Tərəflər fondun vəsaiti hesabına enerji effektivliyi tədbirlərinin təşviqi, güzəştli kreditin verilməsi, şərtləri, istifadəsinin monitorinqi və geri qaytarılması, eləcə də müvəkkil kredit təşkilatının agentlik qarşısında hesabatlılığı barədə razılığa gəliblər.

Qeyd edək ki, Enerji effektivliyi fondu Prezident İlham Əliyevin 1 mart 2024-cü il tarixli fərmanı ilə yaradılıb və fondun vəsaitlərinin idarə olunmasını EMTA həyata keçirir. EMTA isə 2017-ci ildən Energetika Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusu ilə fəaliyyət göstərir.

❖ ❖ ❖

Arxada qoyduğumuz həftə ölkəmizdə beynəlxalq əməkdaşlıq və enerji sahəsində mühüm hadisələrin baş verməsi ilə diqqət çəkdi. Bu kontekstdə "2026-2030-cu illər üçün BMT və Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi"nə dair Birgə İstiqamətləndirici Komitənin iclası keçirilib və tərəflər gələcək əməkdaşlıq istiqamətlərini müzakirə ediblər.

Həmin beynəlxalq tədbir fonunda ölkəmizin enerji təşəbbüsləri də diqqət mərkəzində olub. Belə ki, Azərbaycan tərəfindən irəli sürülən və Cənubi Qafqazdan Avropaya bərpaolunan enerjinin ötürülməsini nəzərdə tutan "Yaşıl Enerji Dəhlizi" layihəsi Avropada strateji enerji təşəbbüslərindən biri kimi qiymətləndirilib. Energetika sahəsi üzrə ekspert Florin Stançunun Rumıniya mətbuatında dərc olunan yazısında bu layihənin Avropada enerji təhlükəsizliyi və dayanıqlı inkişaf baxımından əhəmiyyəti vurğulanıb.

❖ ❖ ❖

Ötən həftə qlobal enerji bazarlarında neftin qiymətində artım tendensiyası qeydə alınıb. Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 6,54 dollar artaraq 101,74 dollar olub. Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 7,44 dollar artaraq 104,01 dollar təşkil edib.

Azərbaycanın qiymətli metallar bazarında da dəyişkənlik (volatillik) qeydə alınıb. Qızılın qiyməti 1 unsiya üçün 2862,7575 manata enərək ucuzlaşma nümayiş etdirib. Bununla yanaşı, gümüş bazarında əks dinamika müşahidə olunub və unsiya üzrə qiymət 4,7 faiz artaraq yüksəliş tendensiyası göstərib.

*Z.NADİRQIZI,*
*"Azərbaycan"*

## Naxçıvanda həyata keçirilən strateji enerji siyasəti

### Üstünlük "yaşıl enerji"yə verilir

**Naxçıvan Muxtar Respublikası enerji təminatı baxımından Azərbaycan üçün xüsusi əhəmiyyətə malikdir. Sərhəd bölgəsi, üstəlik də məhdud təbii resurslara malik olması regionun enerji təhlükəsizliyini strateji bir məsələ kimi ön plana çıxarır. Muxtar respublikanın enerji strukturu yerli istehsal imkanlarına və idxal vasitələrinə əsaslanır. Bu sistem regionun iqtisadi inkişafı, sənaye fəaliyyəti və əhalinin həyat səviyyəsi üçün böyük əhəmiyyət daşıyır. Beləliklə, Naxçıvanda enerji sistemi yalnız texniki infrastruktur deyil, həm də sosial-iqtisadi davamlılığın əsas dayaqlarından biridir.**



Azərbaycanın əsas enerji mərkəzlərindən uzaqda yerləşən və uzun illər məhdud enerji imkanları ilə yaşayan Naxçıvan üçün enerji təhlükəsizliyinin təmin edilməsi hər zaman əsas vəzifə olub. Bu səbəbdən muxtar respublikanın dayanıqlı və etibarlı elektrik enerjisi ilə təminatı dövlət səviyyəsində strateji prioritet kimi müəyyən edilib. Keçmişdə Naxçıvanın enerji təminatı regional bazarlardan asılı idi və elektrik enerjisi əsasən mövcud yerli potensiala əsaslanırdı. Region elektrik enerjisi çatışmazlığı ilə üzləşsə də, məhdud istehsal imkanları tələbatı qismən ödəyə bilirdi.

Müstəqilliyin ilk illərində Naxçıvan əhalisi iqtisadi, nəqliyyat və enerji blokadası şəraitində yaşamağa məcbur olmuşdu. Regionun dayanıqlı inkişafı və enerji təminatı ciddi sınaqlarla üz-üzə dayanmışdı. 1990-cı illərin əvvəllərində Ermənistan tərəfindən Cənubi Qafqazın vahid enerji sisteminə çıxış xətlərinin kəsilməsi nəticəsində muxtar respublikada müəyyən bir dövr ərzində enerji böhranı yaranmışdı. Bu vəziyyət regionun iqtisadi inkişafına ciddi təsir göstərmiş, elektrik enerjisinin məhdud təminatı gündəlik həyat və sənaye fəaliyyətini çətinləşdirmişdi.

Tarixi çətinliklər göstərdi ki, Naxçıvanın enerji sektorunda köklü islahatlar və müasir infrastrukturun yaradılması qaçılmazdır. Hazırda bu istiqamətdə atılan addımlar dövlət səviyyəsində həyata keçirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkənin bütün regionlarında olduğu kimi, Naxçıvanda da elektroenergetika sahəsində əhəmiyyətli islahatlar və genişmiqyaslı infrastruktur layihələri həyata keçirilir. Bu təşəbbüslər muxtar respublikanın enerji təhlükəsizliyini təmin etməklə yanaşı, alternativ və bərpaolunan enerji potensialının səmərəli istifadəsini, həmçinin enerji sektorunun rəqəmsal idarəetmə sistemləri vasitəsilə modernləşdirilməsini hədəfləyir. Həyata keçirilən enerji siyasəti yalnız struktur və idarəetmə sahəsini müasirləşdirməkdən ibarət deyil, eyni zamanda strateji planlaşdırma və ekoloji davamlılıq baxımından da yeni mərhələyə qədəm qoyub. Dövlət başçısının 5 iyun 2023-cü il tarixli fərmanı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" regionda elektrik enerjisi infrastrukturunun yenilənməsi və "yaşıl enerji" potensialının reallaşdırılması üçün hüquqi və iqtisadi əsaslar yaratmışdır.

Məhz bu strateji hədəflərə uyğun olaraq, hazırda "Azərenerji" ASC Naxçıvan Muxtar Respublikasında enerji infrastrukturunu köklü şəkildə yeniləyir və rəqəmsal, intellektual idarəetməyə əsaslanan müasir enerji sistemi qurur. Layihə çərçivəsində regionun enerji təminatında həlledici rol oynayan 110 kilovoltluq "Naxçıvan", 154 kilovoltluq "Babək" və "Çeşməbasar" yarımstansiyaları tamamilə yenidən inşa edilir və işlər artıq yekun mərhələyə yaxınlaşıb. Xüsusilə "Naxçıvan" yarımstansiyası regionda ilk qapalı tipli yarımstansiya kimi qurulur ki, bu da təhlükəsizlik və operativ idarəetməni əhəmiyyətli dərəcədə yüksəldəcək. Bundan başqa, enerji sisteminin rəqəmsallaşdırılması istiqamətində mühüm addımlar atılır. "Azərenerji" ASC tərəfindən Regional Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisi davam etdirilir və planlaşdırılır ki, mövcud stansiya və yarımstansiyalar vahid SCADA şəbəkəsinə inteqrasiya olunsun. Bu yeniliklər enerji şəbəkəsinin məsafədən operativ və tam rəqəmsal idarə olunmasını təmin edəcək, fasilələrin qarşısını almağa və enerji paylanmasını daha səmərəli idarə etməyə imkan verəcək. Belə bir sistem sayəsində regionda enerji təchizatının etibarlılığı artacaq, qəza və texniki nasazlıqların aşkarlanaraq, aradan qaldırılması sürətlənəcək. Həmçinin rəqəmsallaşdırma enerji istehsalının və paylanmasının optimallaşdırılmasına, eləcə də "yaşıl enerji" mənbələrinin daha səmərəli istifadəsinə şərait yaradacaq.

Qeyd edək ki, ötürücü şəbəkə də mərhələli şəkildə yenilənir. Ötən əsrin 50-ci illərindən qalan 110 kilovoltluq hava xətləri müasir və etibarlı ötürmə xətləri ilə əvəz edilir. İlkin mərhələdə ümumi uzunluğu 69 kilometr olan "Culfa", "Ordubad-1" və "Ordubad-2" elektrik verilişi xətləri ikidövrəli sistemlə yenidən qurulub. Bundan əlavə, yaşayış ərazilərindən keçən bəzi hava xətlərinin 5,2 kilometrlik hissəsi müasir şəhər infrastrukturuna uyğun olaraq yeraltı kabel xətləri ilə əvəz olunur ki, bu da təhlükəsizliyi artırmaqla yanaşı, şəhər estetikasına uyğun enerjidə müasir yeniliklər təqdim edir.

Regionun ölkənin əsas enerji sistemi ilə birləşdirilməsi və Azərbaycan-Türkiyə-Avropa enerji dəhlizinin formalaşdırılması istiqamətində görülən işlər də sürətlə davam etdirilir. Bu çərçivədə Cəbrayıldan başlayaraq ikidövrəli və 1000 meqavat yükötürmə qabiliyyətinə malik 330 kilovoltluq yüksəkgərginlikli ötürmə xətti inşa olunur. Layihənin növbəti mərhələsində Zəngəzur dəhlizini (TRIPP) keçməklə 44 kilometrlik əlavə ötürmə xətti qurulacaq. Bütün bu tədbirlər, yəni müasir yarımstansiyaların tikintisi, rəqəmsal idarəetmə sistemlərinin tətbiqi, ötürücü şəbəkənin yenilənməsi və beynəlxalq enerji dəhlizinə inteqrasiya sayəsində Naxçıvanın beynəlxalq enerji dəhlizində strateji mövqeyi daha da güclənəcək, regionun enerji təhlükəsizliyi müasir səviyyəyə qaldırılacaq.

Naxçıvan getdikcə öz enerji tələbatını qarşılayan bir region olaraq, həm də enerji ixrac edə biləcək istehsalçıya çevrilir. Muxtar respublikanın İğdır üzərindən Türkiyə enerji sisteminə inteqrasiyası texniki və siyasi baxımdan tam mümkün hesab olunur. Bu addım Azərbaycan-Türkiyə enerji əməkdaşlığını dərinləşdirəcək, iqtisadi müstəqilliyi gücləndirəcək və regionun strateji rolunu bir qədər də artıracaq.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Ağ göl, Qırmızı göl, bir də Sarı göl...

### Azərbaycanda olan 450 gölün hər birinin öz gözəlliyi və özəlliyi var

**Azərbaycan həm də göllər diyarıdır. Buradakı göllərin sayı 450-ni ötür. Doğrudur, onların əksəriyyəti kiçikdir. Amma elə böyük göllərimiz də var ki, sahəsi 10 kvadratkilometrdən çoxdur. Belə göllərin sayı 10-dur. Ən iri gölümüz isə Sarısudur. Hacıqabul, Masazır, Candar gölləri də böyük göllərin sırasında dayanır.**









Mənşəyinə görə Azərbaycan gölləri 7 tipə bölünür. Onlar buzlaq, subasar, bənd, laqun, karst, sürüşmə, relikt mənşəlidirlər. Həm təbii, həm də süni göllərimiz var. Göllərin bir çoxu turizm məkanlarından uzaq məsafədə, yaxud mühafizə olunan ərazilərdə yerləşdiyindən sahilində istirahət etmək istəyənlər üçün əlçatan deyil.

Göllərin adlarını nəzərdən keçirdikcə bir nüans diqqətdən yayınmır. Belə ki, bir sıra göllərimiz rənglərdən ad alıb. Götürək elə Azərbaycan göllərinin başının tacı olan Göygölü. Ağ gölümüzün, Qara gölümüzün və bir sıra digər göllərimizin də adı rənglərdən qaynaqlanır.

Göygölü görəndə düşünürsən ki, bu zümrüd meşələrə ayna tutan, dupduru suları cilvələnən şəhla gözlü gölə başqa ad vermək olmazdı.

Göygöl haqqında məlumatı olmayan az insan tapılar. Bununla belə xatırladaq ki, bu göl 1139-cu ildə Gəncədə baş verən zəlzələ nəticəsində Kəpəz dağının bir hissəsinin uçması və Ağsu çayının qarşısını kəsməsi nəticəsində yaranıb. Onun ərazisində 19 göl var ki, bunların da 7-si böyük göl sayılır. Göl dəniz səviyyəsindən 1556 metr yüksəklikdə yerləşir, uzunluğu 2800, görünmə qabiliyyəti 8-10, dərinliyi 100 metrdir, eni 800 metrdən 1000 metrədək dəyişir.

Buradakı Göygöl Dövlət Təbiət Qoruğu 1925-ci ildə Azərbaycanda yaradılmış ilk qoruqdur. Gölün ətrafının meşə landşaftı öz zənginliyi ilə məşhurdur. Gölün faunası da olduqca zəngindir.

Ağ gölümüzün də özəllikləri çoxdur. Bu, Azərbaycanda ən məşhur çöl-göl ekosistemi olub, köçəri və yerli quşların, eləcə də digər heyvanların məskunlaşdığı ərazilərdəndir. Göl dəniz səviyyəsindən aşağıda yerləşir. O, əsasən Kür və Araz çaylarının mütəmadi daşqınları nəticəsində yaranıb.

Ağ göl vahid açıq su hövzəsi deyil. O, bir neçə adanı bir-birinə qovuşdurur. Su hissələri sıx qamışlıqlarla əhatə olunmuş axarlarla birləşir. Bu, lal axan göldür, suyunun axın sürəti saniyədə 0,5-0,7 metr təşkil edir.

Azərbaycan Respublikası Prezidentinin 5 iyul 2003-cü il tarixli sərəncamı ilə Ağ göl Dövlət Qoruğunun sahəsi artırılıb və ərazi Milli Park adlandırılıb. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü və IDEA İctimai Birliyinin təşkilatçılığı ilə burada "Quşlar cənnəti - Ağ göl Milli Parkı" sənədli filmi çəkilib. Bu, Azərbaycanın zəngin təbiətini, xüsusilə Ağ gölün nadir quş növlərini və ekosistemini əks etdirən maraqlı ekran əsəridir.

Qırmızı gölün isə ikinci adı da var - Qanlıgöl. Bu göl Qaradağ ərazisində, Lökbatan qəsəbəsinin cənubunda yerləşir. Buraya axıdılan çirkab suların əsasını Lökbatan qəsəbəsinin məişət çirkab suları və Xocasən gölündən axan sular təşkil edir. Gölə bu suların axıdılması onun suyunun oksigen rejiminin pozulmasına səbəb olur. 1976-cı ilə qədər bu göldən neft mədənlərindən çıxan lay sularının qəbuledici anbarı kimi də istifadə edilib.

Qırmızı göl şorsulu göllər qrupuna aiddir. Onun suyunun tərkibində kalsium, maqnezium, xloridlər, sulfatlar çoxdur. Göldə neft məhsulları ilə çirklənmə var. Yaxınlıqdakı lay suları da gölə axıdılır. Odur ki, onun çirklənməsi normadan artıqdır.

Adını təbiətin başqa bir rəngindən alan gölümüz isə Sarısudur. Sarısu gölü ölkəmizin ən böyük gölü sayılır. İmişli və Sabirabad rayonları ərazisində Kürün sahili boyunca şimal-qərbdən cənub-şərqə doğru 22 kilometr məsafədə uzanan və bir-biri ilə əlaqəli dörd göldən biridir.

Sarısu gölü çay-dərə mənşəlidir, şirinsuludur. Göl suyunu əsasən Şərbətqobu vasitəsilə Ağ göldən, yeraltı və yağıntı sularından alır. Onun Kür çayına axını var. Göldə buz hadisələrinin orta çoxillik davamiyyəti 23 gündür və sahil buzu formasındadır. Bəzi illərdə gölün səthi tamamilə buzla örtülə bilir. Bu halın davametmə müddəti 11 gündür.

Bu gölün suyunun həcmi təqribən 60 min kubmetrə çatır. Sarısu o qədər də dərin göl deyil. Maksimal dərinliyi 6 metr təşkil deyil. Gölün suyu zəif qələvi xarakterlidir, spesifik iyi yoxdur, şəffaflığı isə ayrı-ayrı hissələrində müxtəlifdir.

Sarısu gölünün faunası əsasən balıqlardan (çəki, sazan, karp, vobla), heyvanlardan (çöl və bataqlıq donuzları) ibarətdir. Ətrafdakı əlverişli şərait burada hər il on minlərlə müxtəlif növ quşların - ördək, qaşqaldaq, qaz, sultan toyuğu, qarabatdağın və s. qışlamasına imkan yaradır. Sarısu gölünü şimaldan Kür çayı, yaşayış məntəqələrindən isə avtomobil yolu kimi istifadə olunan torpaq bəndi ayırır ki, bu da onun tullantılardan çirklənməsinin qarşısını alır.

Qara göl xüsusi maraq doğuran yüksək dağ göllərindən biridir. Alp landşaft kompleksinə malik olan bu göl Laçın rayonunun ərazisində yerləşir.

Qara göl mühüm hidroloji və təsərrüfat əhəmiyyətlidir. Gölün suyundan yerli əhali həmişə qoyun sürülərinin, əkin yerlərinin suvarılması və balıqçılıq üçün istifadə edib.

Bu gölü əhatə edən quru ərazi yüksək dağlıq qurşağın səciyyəvi Alp çəmənliklərindən ibarətdir. Ekoloji şərait və suyun müəyyən xüsusiyyətləri burada canlı aləmin azlığına səbəb olub. Bununla belə, gölün suyunda zooplanktonlara, dibində isə yanüzənlərə rast gəlinir.

Qara göl həm də sərhəd gölü sayılır. Vaxtilə, yəni sovet dönəmində gölün Ermənistan sahillərində heyvandarlıq fermalarının tikilməsi, güclü nasos stansiyalarının qurulması onun çirklənməsinə və suyun səviyyəsinin aşağı düşməsinə səbəb olurdu.

1987-ci ildə Azərbaycanın və Ermənistanın direktiv orqanlarının qərarı ilə burada respublikalararası dövlət qoruğu - Qara göl Dövlət Qoruğu yaradılmışdı. Qara göl qoruğu uzun illər erməni işğalı altında qalıb.

Azərbaycanın çoxsaylı göllərinin bir hissəsi süni göllərdən ibarətdir. Onların bir çoxu öz füsunkarlığı ilə təbii göllərdən heç də geri qalmır. Maraqlıdır ki, bu göllərin bəzilərinə də insanların verdiyi adlar onları təbiət rənglərinin adını daşıyan göllər sırasına qoşub. Bunlardan biri Gümüşgöldür.

Şərur rayonunda yerləşən Gümüşgölün də görünüşü unikaldır. Ermənistanla sərhəddə yerləşən bu göl strateji əhəmiyyət daşıdığı üçün hazırda ziyarətə açıq olmasa da, uzaqdan belə gözəlliyi ilə göz oxşayır.

Qeyd edək ki, Şərurun Gümüşlü kəndi adını buradakı gümüş yataqlarından alıb. Beləliklə, göl də kəndlə adaş olub. Sovet dönəmində bu kənddə kinoteatr, restoranlar və məktəb fəaliyyət göstərib. Hətta 1984-cü ildə burada "Gümüşgöl əfsanəsi" filmi çəkilib.

Ağstafa rayonunun Poylu qəsəbəsində yerləşən süni gölü isə Yaşıl göl adlandırıblar. İstər yerli sakinlər, istərsə də bölgənin qonaqları burada istirahət etməyi çox sevirlər. Belə ki, burada təbiətin qoynunda restoran və istirahət məkanı da fəaliyyət göstərir. Qonaqlara müxtəlif çeşiddə yeməklər, o cümlədən balıq təklif olunur.

Kür çayı kənarının gözəl təbii mənzərəsi burada qəfəsdə saxlanılan ayı və canavarlarla tamamlanır.

Bir daha vurğulayaq ki, çoxsaylı göllərimizin hərəsinin öz gözəlliyi, öz bənzərsizliyi var. Onlardan yalnız bir neçəsinin, rənglərdən ad alanların, öz adları ilə sanki qövsi-qüzey yaradanların haqqında qısa məlumatları xatırlatdıq.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# REGİONLAR

## 3 ayda Naftalana 9 minə yaxın yerli və xarici turist gəlmişdir



**Naninki ölkəmizdə, eləcə də bütün dünyada məşhur olan Naftalan öz unikal müalicəvi əhəmiyyətə malik olan nefti ilə məşhurdur. Bu neftin dünyada analoqu yoxdur və ondan 70-dən çox xəstəliyin müalicəsində istifadə olunur. Xüsusən onun hərəkət-istinad, nevroloji, damar, uroloji, ginekoloji və dəri xəstəliklərinin müalicəsində böyük əhəmiyyəti vardır.**

Hazırda Naftalanda beynəlxalq standartlara cavab verən 3-ü beş ulduz olmaqla ümumilikdə 20 hotel və müalicə sağlamlıq mərkəzi fəaliyyət göstərir. Turizm obyektləri gün ərzində 4000-dən çox qonağa xidmət göstərmək imkanına malikdir. Bu, Bakıdan sonra regionlar üzrə qonaqların gecələmə sayına görə yüksək rəqəmlərdən sayılır.

Son illər Naftalana gələn turistlərin sayında əhəmiyyətli dərəcədə artım qeydə alınır. Təkcə 2025-ci ildə Naftalana 44 mindən çox turist səfər etmişdir ki, onlardan da 18 min nəfəri dünyanın 53 ölkəsindən olan vətəndaşlardır. İlk üçlükdə Rusiya Federasiyası, Özbəkistan və Qazaxıstandan gələn turistlər olmuşlar. 2026-cı ilin birinci rübü ərzində də şəhərə gələn turistlərin sayında artım qeydə alınmışdır. 3 ayda Naftalana 8821 nəfərdən çox qonaq gəlmişdir. Onlardan 3222 nəfəri xarici turistlərdir.

Hazırda yeni mövsümün başlaması ilə əlaqədar turizm xidmətləri keyfiyyətinin yüksəldilməsi məqsədilə Naftalan Şəhər İcra Hakimiyyəti tərəfindən hotel və müalicə mərkəzlərində rəy sorğusu keçirilir. Üç dildə - Azərbaycan, rus və ingilis dillərində keçirilən sorğunun məqsədi xidmət səviyyəsinin yüksəldilməsidir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Sumqayıtda təşkil olunan tədbirdə uşaq hüquqlarından söhbət açılıb

**Sumqayıtda yerləşən Qubadlı rayon Tarix-Diyarşünaslıq Muzeyində "Uşaq hüquqlarının qorunması"na aid tədbir keçirilib.**

Rayon icra hakimiyyəti, Şərqi Zəngəzur Regional Gənclər və İdman, eləcə də Təhsil idarələrinin Qubadlı rayonu üzrə sektorlarının təşkilatçılığı ilə keçirilən tədbirdə hüquq-mühafizə orqanları, Mahmudlu Mədəniyyət evi və tarix-diyarşünaslıq muzeyinin əməkdaşları iştirak ediblər. Uşaq hüquqlarına həsr olunmuş videoçarxın nümayişi ilə başlanan tədbirdə bildirilib ki, uşaqların cəmiyyətdə tutduğu yer və onlara daim diqqət və qayğı göstərilməsi vacib məsələdir. Cəmiyyətdə gənclərin rolunun artırılması məktəblərdən başlayır. Bu gün qubadlılı gənclər təhsil sahəsində ölkə üzrə ilk yerlərdən birini tutur. Hər il Qubadlıdan olan yüzlərlə gənc respublikamızın ali təhsil ocaqlarına qəbul olunaraq tələbə adı qazanır.

Vurğulanıb ki, 44 günlük Vətən müharibəsində əsgərlərimizin sırasında yüzlərlə qubadlılı gənc döyüşlərdə iştirak edib. Şəhidlik zirvəsinə yüksələn igidlərimizin xatirəsi bu gün daim yad edilir və onların adı əbədiləşdirilir. Təhsil müəssisələrində gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində idman yarışları və tarixi-mizə həsr edilən olimpiadalar təşkil olunur.

Tədbirdə Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi Aytən Məmmədova, Mahmudlu kənd Mədəniyyət evinin direktoru Solmaz Məmmədova, tarix-diyarşünaslıq muzeyinin direktoru Xatın Ağayeva, muzeyin əməkdaşı Günel Quluzadə, hüquq-mühafizə orqanlarının əməkdaşları gənclərin sağlamlıq, inkişaf hüquqları və digər neqativ hallardan müdafiə hüquqları barədə çıxış ediblər.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Biləsuvarda qanvermə aksiyası keçirilib

**Biləsuvarda rayon icra hakimiyyəti, respublika Qan Bankı və rayon mərkəzi xəstəxanasının birgə təşkilatçılığı ilə könüllü qanvermə aksiyası keçirilib.**



Aksiya xüsusi tibbi briqadanın həkim-hematoloqları və mərkəzi xəstəxananın tibb heyətinin iştirakı ilə sağlam həyat tərzinin təbliği və talassemiya, hemofiliya, digər qan xəstəliklərindən əziyyət çəkən xəstələri qan və onun komponentləri ilə təmin etmək məqsədilə təşkil olunub.

Rayon icra hakimiyyəti, hüquq-mühafizə orqanları, idarə və müəssisələr, o cümlədən tibbi personalın könüllü olaraq qoşulduğu aksiyada donorların sağlamlıq vəziyyəti öncədən yoxlanılaraq qanvermə prosesinə cəlb ediliblər. Tədbirdə qan donorluğunun faydaları barədə iştirakçılara ətraflı məlumat da verilib.

*S.QUBADOĞLU,*
*"Azərbaycan"*

## Culfanın Əlincə kəndində 48 nəfər tibbi müayinə edilib

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə əhalinin sağlamlığının qorunması, xəstəliklərin erkən aşkarlanması və profilaktik tədbirlərin gücləndirilməsi məqsədilə növbəti tibbi müayinə aksiyası həyata keçirilib.**

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, "Culfa Regional Tibb Mərkəzi" publik hüquqi şəxsin ixtisaslı həkim briqadası tərəfindən Culfa rayonunun Əlincə kəndində təşkil olunan aksiya çərçivəsində sakinlər müxtəlif ixtisaslar üzrə müayinələrə cəlb olunublar. Aksiya zamanı terapevtik, oftalmoloji, USM, nevroloji, pediatrik və ginekoloji müayinələr aparılıb, vətəndaşlara sağlamlıqlarının qorunması ilə bağlı müvafiq tibbi tövsiyələr verilib.

Həkimlər ümumilikdə 48 nəfəri müayinə ediblər. Belə ki, terapevt tərəfindən 16, radioloq tərəfindən 16, oftalmoloq tərəfindən 4, mama-ginekoloq tərəfindən 2, nevropatoloq tərəfindən 5, pediatr tərəfindən isə 5 nəfər müayinədən keçirilib.

Qeyd edək ki, bu cür tibbi aksiyaların keçirilməsində əsas məqsəd əhalinin, xüsusilə ucqar yaşayış məntəqələrində yaşayan sakinlərin keyfiyyətli tibbi xidmətlərə əlçatanlığının artırılması, xəstəliklərin erkən mərhələdə aşkarlanması və vaxtında müalicəsinin təmin edilməsidir.

● "Şəhərsalma və Memarlıq İli"

## Lənkəran - əsrlərə sirdaş müasir şəhər

**Əsrlərin izi, illərin sözü var Lənkəranda. Arxeoloqlara görə, burada insanlar eramızdan əvvəl III-II minilliklərdə məskunlaşmışlar. Müxtəlif mənbələrdə adı müxtəlif cür adlandırılıb. Deyirlər ki, ərəb mənbələrində IX əsrdə adı çəkilən və islamı qəbul etməkdə ləngiyən mənasına uyğun gələn, sonrakı dövrlərdə müxtəlif cür yozulan, ümumiyyətlə, XV əsrdən əvvəl deyilən Ləngərkünan, Ləngəran, Lənkgəran, Lanqaran, Lyanqaran sözlərindən əmələ gəlib bugünkü "Lənkəran" adı.**

Mənbələr arasında 1603-cü ilə aid Almaniyanın Hamburq səfarətxanasında saxlanılan bir hesabatda isə indiki Lənkərandan bir az aralı Lankon adlı kəndin olduğu göstərilir. Görünür, həm şəhər, həm də bu kənd genişlənərək bir-birinə qovuşmuş, indiki Lənkəran şəhəri meydana çıxmışdır. "Lankon" farscadan tərcümədə "ləng keçilən yer", talışca isə "qamış evlər" mənasını verir.

XVIII əsrin əvvəllərində Lənkəranda bəzisi qamışdan, bəzisi çiy kərpicdən tikilmiş 200 sadə ev olmuşdur. 1747-ci ildən 1813-cü ilə kimi Lənkəran şəhəri Talış xanlığının mərkəzi kimi tanınmışdır. Aradan keçən 300 il ərzində şəhər böyük bir inkişaf yolu keçmişdir. Bu torpağın qoynunda dünyaya göz açan hər yeni nəsil bir iz qoyub getmişdir. XVIII-XIX əsrlərə aid Lənkəran mayakı, Dairəvi qala (Zindan), Mirəhməd xanın evi, Böyük və Kiçik Bazar məscidləri, Bəlləbur qalası, Şeyx Zahid türbəsi, Hacı Mirzə hamamı şəhərin tarixi ünvanlarıdır. Hər biri keçmişi əks etdirməklə yanaşı, indi də memarlıq abidəsi kimi Lənkərana xüsusi gözəllik verən bu abidələrin hər biri dövlət tərəfindən qorunur, mühafizə olunur. Zamanında Mirəhməd xanın yaşadığı üçmərtəbəli bina isə rayon diyarşünaslıq muzeyi kimi fəaliyyət göstərir.

Keçən əsrin 70-80-ci illərində sürətlə inkişaf edən bu diyara keçmiş SSRİ-dən və dünyanın bir çox ölkəsindən hörmətli qonaqlar, hətta dövlət başçıları səfərlər etmişlər. Lənkəranın gözoxşayan təbiəti, zəhmətkeş və qonaqcanlı insanları bura gələnləri valeh etmişdir. Onlar Lənkəranı "Cənub mirvarisi" adlandırmışlar. Həmin dönəm Lənkəranda sənaye müəssisələri tikilib istifadəyə verilmiş, çayçılıq, tərəvəzçilik, sitrus meyvəçiliyi və s. sahələr inkişaf etmişdir. Hətta o dərəcədə ki, Moskva kimi şəhərin tərəvəzlə təchizatı Lənkərandan asılı olmuşdur.

1976-cı ildə Lənkəran şəhərindən 20-25 kilometr kənarda tikilib istifadəyə verilən Xanbulançay su anbarı şəhər əhalisinin içməli su ilə təmin edilməsində və əkinlərin suvarılmasında böyük rol oynamışdır. Bu mühüm əhəmiyyətli layihənin müəllifi olan Ulu Öndər Heydər Əliyev onun açılışında iştirak etmişdir. Qonşu Astara, eləcə də Lerik rayonunun əhalisi də bu su anbarından indinin özündə də bəhrələnir.

Lənkəranda iqtisadiyyatın, o cümlədən aqrar sektorun inkişafı şəhərin, rayonun qəsəbə və kəndlərinin abadlaşmasına, əhalinin güzəranının yaxşılaşmasına şərait yaratmışdır. Qamışdan, çiy kərpicdən olan evlərin yerində qırmızı kərpicdən, ağ daşdan evlər, müxtəlif təyinatlı binalar tikilmişdir. Lakin tarixdə fələyin çərxinin tərsinə fırlandığı vaxtlar da olur. 1990-cı illərdə SSRİ-nin çöküşü səbəbindən Azərbaycanda, o cümlədən Lənkəranda baş verən məlum hadisələr səbəbindən insanların uzun illərdən bəri yaratdıqları dağıldı, rayonun təsərrüfatı iflic olmuş, o sıradan sənaye müəssisələri öz fəaliyyətini dayandırmış, çay plantasiyaları, sitrus bağları mal-qara üçün otlaq sahəsinə çevrilmişdir.

Xoşbəxtlikdən bu dəfə yaman günün ömrü az oldu. Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə 1993-cü ilin iyununda yenidən hakimiyyətə gəlməsi ölkəmizi dağılmaq, məhv olmaq təhlükəsindən xilas etdi. Cəbhədə atəşkəs əldə edildi, "Əsrin müqaviləsi" imzalandı, mühüm əhəmiyyətli islahatlar həyata keçirildi. Yaxınlıqda - Astara rayonu ərazisində tikilən və sayca respublikamızda birinci olan modul tipli elektrik stansiyası bölgədə, eləcə də Lənkəranda enerji problemini aradan qaldırdı. Lənkəranda inşa edilən Qaz kompressor stansiyası "mavi yanacaq" təminatını xeyli yaxşılaşdırdı. Həmin illər ölkədə ilk olaraq müalicə diaqnostika mərkəzi və olimpiya idman kompleksi Lənkəranda tikilib istifadəyə verildi. Regionlar ərazisində açıq ürək əməliyyatı ilk olaraq bu müalicə ocağında həyata keçirildi. Gələcəyimiz sanlara nikbin ovqat bəxş etdi. Adamlar yeni, yaraşıqlı evlər tikdilər, minik maşınları aldılar, övladlarını oxutdurdular, oğul evləndirib qız köçürdülər.

İllər bir-birini əvəz etdikcə uğurların sayı da artdı. Cənub Regional Boks Mərkəzi, Çay fabriki, 28 çeşiddə dondurma istehsal edən "Pal Food" MMC, meyvə-tərəvəz məhsulları emal edən "Lənkəran Konserv" ASC və s. II Dövlət Proqramının icrası çərçivəsində tikilib istifadəyə verilmişdir. Heç bir şəhəri, kəndi yol infrastrukturu olmadan təsəvvür etmək mümkün deyil. Lənkəranda 2003-2025-ci illər arasında ümumilikdə 189 min əhalinin yaşadığı 33 şəhər, qəsəbə və kəndi birləşdirən 166,6 kilometr yol çəkilmiş və ya əsaslı şəkildə yenidən qurulmuşdur.

Məlumdur ki, Zəfərdən sonra Böyük qayıdış çərçivəsində işğaldan azad edilmiş ərazilərimizdə misli görünməmiş geniş quruculuq işləri aparılır, keçmiş məcburi köçkünlər doğma el-obalarına qayıdırlar. Lakin digər regionlar da unudulmur. Əbəs deyil ki, Prezident İlham Əliyev 2026-cı ili "Şəhərsalma və Memarlıq İli" elan etmişdir. Bu baxımdan yola saldığımız 2025-ci və ilk rübünü geridə qoyduğumuz 2026-cı ildə görülmüş işlərə nəzər salsaq, mənzərəni az da olsa təsəvvür edə bilərik. Bu dövrdə "Qala Towers" tikinti şirkəti tərəfindən Lənkəranda tikinti sahəsi 1826 kvadratmetr olan 2 binadan ibarət 80 mənzilli 9 mərtəbəli yaşayış kompleksinin, "Qaya inşaat" MMC tərəfindən tikinti sahəsi 68 min 147 kvadratmetr, 7 mərtəbəli və 700 mənzilli olmaqla 14 binanın (o cümlədən ümumi avtomobil tutumu 426 maşın olan yeraltı avtomobil dayanacağının) tikinti işləri davam etmişdir. Kompleksin daxilində əlavə olaraq ümumi sahəsi 448 kvadratmetr olan uşaq bağçası inşa ediləcək. "Geno Constructions" tikinti şirkəti tərəfindən tikinti sahəsi 3 min 657 kvadratmetr olan 9 mərtəbəli 2 binanın və 7 mərtəbəli olmaqla 3 binanın tikintisində də işlər səngimir. Yaşayış kompleksində əlavə 3 binanın inşası da nəzərdə tutulur. Şəhərdəki qəzalı binanın sakinləri üçün isə Nazirlər Kabinetinin sərəncamına əsasən, 5 mərtəbəli 26 mənzilli yaşayış binasının tikintisinə start verilib. Köhnə Ələt-Astara yolunun Lənkəran rayonu ərazisində istismar müddəti başa çatmış Viravulçay və Girdəniçay üzərindəki körpülər də yenidən qurulur. Bunlardan əlavə, Lənkəran şəhərində "Dairəvi Qala" da bərpa olunacaq.

Layihə dəyəri 30 milyon manat, tikinti sahəsi 11 min 625 kvadratmetr olan Lənkəran Dövlət Peşə Təhsili Müəssisəsinin yeni binası isə artıq istifadəyə verilib. Bina müasir memarlıq tələblərinə cavab verməklə bölgənin özünəməxsus tikinti üslubunu özündə ehtiva edir. 7 korpusdan ibarət olan təhsil müəssisəsinin tədris, yataqxana və laboratoriya binaları, hotel, kulinariya korpusu, avtomobillərin təmiri emalatxanası və diaqnostikası üçün olan binalarda 42 ixtisasda tələbələrə peşə təhsili verilir. Burada müstəqillik dövrümüzdə ilk dəfə olaraq













olan balacalar üçün tikilən və hər cür müasir tibbi avadanlıqlarla təchiz edilən uşaq sağlamlıq mərkəzi, neçə-neçə təhsil, mədəniyyət ocağı da o illərdə inşa edildi. Birinci regional inkişaf dövlət proqramı çərçivəsində Lənkəranda ən iri idman qurğularından olan futbol stadionu, beynəlxalq hava limanı, Heydər Əliyev Xatirə parkı, "Palıdlı Sahil" hoteli, "Qafqaz" turizm istirahət mərkəzi, "Nur-süd" MMC və digər sənaye müəssisələri istifadəyə verildi, uzun müddətdən bəri işini dayandıran müəssisələr işə salındı. Qəzalı vəziyyətdə olan binalar, bərbad vəziyyətə düşən yollar, küçələr, körpülər yenidən quruldu, həlli vacib olan bir sıra digər layihələr həyata keçirildi.

2009-cu ildə Prezident İlham Əliyev tərəfindən imzalanan Regionların inkişafına dair II Dövlət Proqramı Lənkəranın tərəqqisində yeni bir mərhələ oldu. Aparılan abadlıq, quruculuq işləri rayonun memarlıq simasını tanınmaz dərəcədə dəyişdi, ənənə və müasirliyin vəhdəti Lənkəranı daha cazibədar etdi. Digər tərəfdən, iş adamlarına, sahibkarlara, torpaq mülkiyyətçilərinə verilən kreditlər, subsidiyalar, olunan güzəştlər iqtisadi inkişafa, yeni iş yerlərinin açılmasına, yoxsulluğun azalmasına, güzəranın yaxşılaşmasına imkan verdi. Əməkhaqlarının, təqaüdlərin, müavinətlərin ilbəil artırılması in-

raq 1000-dən çox tələbə eyni vaxtda peşə təhsili alır. Müəssisədə dövlət və özəl sektorla əməkdaşlıq qurulur, birgə məhsul istehsalı və əməkdaşlığın təşkili formalaşır, beynəlxalq səviyyədə Türkiyə və Malayziya ilə əməkdaşlıq edilir. Sözügedən təhsil ocağının açılışı 2026-cı il fevral ayının 25-də olub və Prezident İlham Əliyev mərasimdə iştirak edib.

Bu ilin fevralında "Yaşat Hospital"ın da açılışı olub. Ümumi dəyəri 9 milyon manat, sahəsi 0,22 hektar, tikinti sahəsi 4 min kvadratmetr olan hospitalın tikintisinə 2022-ci ildən başlanılmışdı. 3 mərtəbə və mansardan ibarət olan hospitalın tibbi avadanlıqları Almaniya, Türkiyə, Cənubi Koreya, Yaponiyadan gətirilib. 90 çarpayılıq olan hospitalda 150 nəfər çalışır.

2012-ci ildə inşasına başlansa da, hələ də tamamlanmamış bir problem də var: Lənkəran şəhəri və ona bitişik yaşayış məntəqələrində yeni kanalizasiya şəbəkəsinin, Göyşaban kəndində bioloji təmizləyici qurğunun tikintisinin başa çatdırılması məqsədilə cari il üçün 50 milyon manat vəsait ayrılmışdır. Layihə 2029-cu ildə tamamlanacaq. Bununla da Lənkəranın ən böyük problemlərindən biri həllini tapacaq.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Neftçala daha təmiz olur

**"Şəhərsalma və Memarlıq İli"ndə Neftçala rayonunda da abadlıq-quruculuq və yenidənqurma tədbirləri keçirilir.**

Bu tədbirlər çərçivəsində Aşağı Qaramanlı kəndi ərazisində yerləşən ikimərtəbəli 3 girişli yaşayış binalarının fasad örtüyü müasir memarlıq üslubuna uyğun üzlənib, girişlərə metal qapılar quraşdırılıb, plastik blok pəncərələri qoyulub. Aparılan yenidənqurma işləri yaşayış binalarının texniki vəziyyətinin yaxşılaşdırılmasına, onların dayanıqlığının artırılmasına, yaşayış məntəqələrinin ümumi memarlıq-estetik görünüşünün müasirləşdirilməsinə xidmət edir.

Bundan əlavə, şəhərin bir sıra küçələrində, Hüseyn Cavid parkında idarə, təşkilat və ictimaiyyət nümayəndələrinin iştirakı ilə ağacların əhənglənməsi, ərazinin təmizlənməsi üçün aksiya keçirilib. Şəhər ərazisində təmizlik aksiyasının keçirilməsi digər küçə və çoxmənzilli yaşayış binalarının qarşısında da davam etdiriləcək. Belə tədbirlər həmçinin könüllü gənclərdən ibarət təşkil edilmiş monitorinq qrupunun müəyyən etdiyi ərazilərdə də həyata keçiriləcək.

*"Azərbaycan"*

## Masallıda daha 350 zeytun ağacı əkilib

**Masallı şəhər ərazisində "Şəhərsalma və Memarlıq İli" çərçivəsində növbəti ağacəkmə aksiyası təşkil olunub. Aksiyada şəhərin girişində olan dairədə 350 zeytun ağacı əkilib və mövcud yaşıllıqlara aqrotexniki qulluq göstərilib.**

Aksiyada RİH-in başçısı A.Əhmədov çıxış edərək qeyd edib ki, həyata keçirilən belə aksiyalar rayonun ekoloji mühitinin yaxşılaşmasına, yaşıllıq sahələrinin genişləndirilməsinə və şəhərsalma mədəniyyətinin inkişafına mühüm töhfə verir, eyni zamanda sakinlər arasında təbiətə qayğı və ətraf mühitin qorunması istiqamətində maarifləndirmə işlərinin gücləndirilməsinə xidmət edir. Sonda o, "Şəhərsalma və Memarlıq İli" çərçivəsində rayonda bu kimi tədbirlərin davamlı olaraq keçirilməsinin nəzərdə tutulduğunu bildirib.

*"Azərbaycan"*

Jurnalist araşdırması

# Yeni həyat bəxş edənlər

## Ötən il 300-dən artıq transplantasiya əməliyyatı icra olunub

**Orqan çatışmazlığından əziyyət çəkən şəxslərin həyat ümidi ona uyğun donorun tapılmasıdır. Bəzən xəstə şəxslər illərlə öz donorunu gözləyirlər. Bu baxımdan bir sıra ölkələrdə canlı donordan əlavə, beyin ölümü ilə əlaqədar reanimasiyada olan şəxslərdən də orqan transplantasiyası təcrübəsi geniş yayılıb. Azərbaycan da artıq dörd ildən çoxdur bu praktikadan istifadə edir.**




Cəmiyyətdə donorluqla bağlı yanlış təsəvvürlər bəzən insanları könüllü kimi qeydiyyatdan keçərək ölümündən sonra orqan bağışlamaqdan uzaqlaşdırır. Burada dini aspektdən yaranan tərəddüdlər, eyni zamanda tibbi amillər də mühüm rol oynayır. Halbuki islam dini xeyriyyəni, kiməsə can verməyi qadağan etmir. Bir şəxs ölümündən sonra bir neçə insana yeni həyat bəxş edə bilər ki, bu da dində yasaqlanan əməl deyil.

Azərbaycanda transplantasiya əməliyyatlarına 2009-cu ildən başlanılsa da, bu sahəni tənzimləyən hüquqi sənəd olmadığından bir müddət, xüsusən meyitdən orqan köçürülməsi mümkün olmayıb. Amma 2022-ci ildən qüvvəyə minən "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanuna əsasən, orqan köçürülməsi sahəsində tənzimləmələr həyata keçirilib. Qanunda orqan və toxuma köçürülməsi, donorluq və bu prosesdə iştirak edən tərəflərin hüquq və vəzifələri müəyyən edilib.

Qanuna əsasən, canlı donordan transplantasiya məqsədilə yalnız böyrəyin biri, ağciyərin bir payı, qaraciyərin, mədəaltı vəzin, nazik bağırsağın, dərinin bir hissəsi, sümük iliyi, kök hüceyrələr götürülə bilər. Meyit donordan isə ürək, ağciyər (ürək-ağciyər kompleksi), böyrəklər, qaraciyər, mədəaltı vəzi, mədə, bağırsaqlar, uşaqlıq, yuxarı və aşağı ətraflar, sümüklər, dəri-fassiya-əzələ kompleksi və onların seqmentləri, sümük iliyi, gözün buynuz qişası və kök hüceyrələrini köçürmək mümkündür. Həm sağkən, həm də ölümündən sonra orqan donorluğu yalnız könüllülük prinsipi əsasında, tibbi və etik normalara riayət olunmaqla həyata keçirilir. Yeni qanun insan orqanlarının alqı-satqısını, həmçinin 18 yaşına çatmayan şəxsdən transplantasiya məqsədilə sümük iliyi və kök hüceyrələr istisna olmaqla, digər orqan və toxumaların götürülməsini qadağan edir.

### İndiyədək 10-dan çox meyitdən orqan köçürülüb

Səhiyyə Nazirliyi Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzindən qəzetimizə bildirilib ki, indiyədək ölümündən sonra orqan donorluğu ilə bağlı könüllü qeydiyyatdan keçənlərin sayı 1300 nəfəri ötüb. Bunun da nəticəsində 10-dan artıq meyit donordan 60-dan çox orqan transplantasiyası icra olunub. Ötən il ərzində 300-dən artıq transplantasiya əməliyyatı icra olunmaqla, ümumilikdə qurumun fəaliyyətə başladığı vaxtdan bu günədək həyata keçirilmiş transplantasiya əməliyyatlarının sayı 900-ü ötüb.

Mərkəzdən o da bildirilib ki, hazırda orqan transplantasiyası üçün gözləmə siyahısında 1300-ə yaxın xəstə qeydiyyatdadır. Ən yüksək ehtiyac isə böyrək donorlarınadır.

### Transplantasiya prosesinin şəffaf şəkildə ictimaiyyətə təqdim olunması etimadı gücləndirəcək

Mövzu ilə bağlı qəzetimizə danışan Milli Məclisin deputatı Müşfiq Məmmədli bildirib ki, son illər Azərbaycanda səhiyyə sahəsində aparılan islahatlara baxmayaraq, ölümündən sonra orqan donorluğu ilə bağlı könüllü qeydiyyatdan keçənlərin sayı hələ də arzuolunan səviyyədə deyil. Bu məsələ yalnız tibbi deyil, həm də sosial, etik və maarifləndirmə baxımından kompleks yanaşma tələb edir.

Mövcud vəziyyətdən danışan deputat qeyd edib ki, orqan donorluğuna marağın aşağı olmasının bir neçə əsas səbəbi var: "İlk növbədə, əhali arasında bu sahədə məlumatlılıq səviyyəsi yetərli deyil. İnsanların bir qismi ölümündən sonra orqan bağışlamağın dini və etik baxımdan uyğun olub-olmaması ilə bağlı tərəddüd edir. Digər tərəfdən, səhiyyə sisteminə etimad məsələsi də mühüm rol oynayır. Eyni zamanda maarifləndirmə kampaniyalarının sistemli və davamlı xarakter daşımaması, mövzunun mediada epizodik işıqlandırılması da bu sahədə irəliləyişin ləngiməsinə səbəb olur".

Maarifləndirmə işlərindən danışan M.Məmmədli əlavə edib ki, bu sahədə işlər bir neçə istiqamətdə qurulmalıdır. Tanınmış ilahiyyatçıların iştirakı ilə ictimai müzakirələr təşkil olunmalı, orqan donorluğunun humanist və dini baxımdan qəbul edilən bir addım olduğu geniş şəkildə izah edilməlidir. Eyni zamanda orqan köçürülməsi sayəsində həyatını davam etdirən insanların hekayələri mediada daha çox yer almalıdır. Bu, cəmiyyətə emosional təsir göstərən ən effektiv vasitələrdən biridir. Bundan başqa, məktəblərdə və universitetlərdə bu mövzuya dair xüsusi maarifləndirici proqramlar hazırlanmalı, sosial şəbəkələrdə məqsədli kampaniyalar, qısa videolar və infoqrafiklər vasitəsilə gənc nəsil daha aktiv şəkildə məlumatlandırılmalıdır.

Deputat əhalinin bu sahədə daha geniş məlumatlandırılması üçün bir sıra addımların atılmasının məqsədəuyğun olduğunu bildirib: "Orqan donorluğu ilə bağlı illik milli maarifləndirmə həftələri keçirilə bilər. Elektron hökumət platformaları üzərindən donorluq üçün qeydiyyat prosesi daha əlçatan və sürətli edilməli, həkimlər və tibb işçiləri bu mövzuda aktiv maarifləndirici rol oynamalıdırlar. Eyni zamanda KİV-lə davamlı əməkdaşlıq qurulmalı, sosial reklamlar hazırlanmalıdır. Bu sahədə şəffaflıq və etimadın artırılması vacibdir. Orqan bölgüsü və transplantasiya prosesinin tam şəffaf şəkildə ictimaiyyətə təqdim olunması insanların etimadını gücləndirəcək".

### Kök hüceyrə bankının strateji əhəmiyyəti

M.Məmmədli vurğulayıb ki, kök hüceyrə bankının yaradılması məsələsi də səhiyyə sisteminin prioritet istiqamətlərindən biridir. Bu sahə, xüsusilə hematoloji və genetik xəstəliklərin müalicəsində mühüm rol oynayır. Hazırda bu istiqamətdə hüquqi baza formalaşdırılır, beynəlxalq təcrübə öyrənilir və texniki infrastrukturun yaradılması üçün ilkin addımlar atılır. Bununla belə, prosesin sürətləndirilməsi üçün əlavə tədbirlərə ehtiyac var. Bu istiqamətdə atılacaq addımlardan biri də milli kök hüceyrə registrinin yaradılması, donorların vahid məlumat bazasının formalaşdırılmasıdır. Həmçinin xarici kök hüceyrə bankları ilə əməkdaşlıq genişləndirilməlidir. Valideynlər arasında, xüsusilə yeni doğulan uşaqlarla bağlı kök hüceyrələrin saxlanmasının əhəmiyyəti izah edilməlidir.

"Bu xidmətlərin əhali üçün daha əlçatan olması məqsədilə maliyyə mexanizmləri tətbiq olunmalıdır. Ölümündən sonra orqan donorluğunun inkişafı və kök hüceyrə bankının yaradılması cəmiyyətin sağlamlığının qorunması baxımından strateji əhəmiyyət daşıyır. Bu sahədə əsas məsələ yalnız hüquqi və tibbi infrastrukturun qurulması deyil, eyni zamanda ictimai şüurun formalaşdırılmasıdır. Sistemli maarifləndirmə, şəffaflıq və ictimai etimadın gücləndirilməsi sayəsində ciddi irəliləyişə nail olmaq mümkündür", - deyə sonda deputat qeyd edib.

Dörd ildən çoxdur qanun qüvvəyə minsə də, orqan donorluğu ilə bağlı qeydiyyatdan keçənlərin sayı lazımi səviyyədə deyil. Bununla belə10-dan artıq meyitdən 60-dan çox orqan transplantasiya olunub ki, bu da əməliyyat icra olunan şəxslərin yenidən həyata qayıtması deməkdir. Qeydiyyatdan keçənlərin sayında xüsusi artım olmaması bununla bağlı məlumatlılığın yetərsizliyindən xəbər verir. Bu sahədə ən güclü təbliğat elə maarifləndirmədir. Buna görə də əhali arasında məlumatlılığın artırılması məqsədilə təşviqat kampaniyaları genişləndirilməlidir. KİV-də bu mövzuya xüsusi yer verilməlidir ki, cəmiyyət orqan bağışının əhəmiyyətini daha dərindən anlasın və könüllü prosesə ürək qoysunlar.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# "YAŞAT" Fondu şəhid Fizuli Məmmədovun ailəsinə dəstək göstərib

**"YAŞAT" Fondu dəstək tədbirlərini davam etdirir.**



Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, fond şəhid Fizuli Məmmədovun ailəsinə dəstək göstərib.

Bildirilib ki, şəhidin övladları - Fatimə və Zəhra fondun vəsaiti hesabına Gəncədə, Xəzər Universiteti Dünya Məktəbində təhsil alırlar.

# "Könlüm Qarabağda, könlüm Zəngəzurda" gənclər düşərgəsi yekunlaşıb

**Gənclər və İdman Nazirliyi və Gənclər Fondunun dəstəyi, "Böyük qayıdış" Gənclər Təşkilatının təşkilatçılığı ilə Qarabağ və Şərqi Zəngəzur regionundan olan gənclər üçün "Könlüm Qarabağda, könlüm Zəngəzurda" düşərgəsi başa çatıb.**



"Böyük qayıdış" Gənclər Təşkilatından AZƏRTAC-a bildirilib ki, düşərgənin əsas məqsədi Böyük qayıdışa və işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən dirçəliş prosesinə töhfə vermək istəyən Qarabağ və Şərqi Zəngəzur regionlarından olan gənclərin şəbəkələşməsini artırmaq, birlik və həmrəyliklərini gücləndirmək, onların təşəbbüskarlığını dəstəkləmək və bərpa-quruculuq prosesinə dair innovativ ideyalarını bir araya gətirməkdən ibarət olub.

Ağcabədi Olimpiya İdman Kompleksində Qarabağ və Şərqi Zəngəzur regionundan olan 65 gəncin iştirakı ilə keçirilən və 4 gün davam edən düşərgədə gənclər "Dəmir yumruq", "8 Noyabr", "Xarıbülbül", "Zəfər" və "Qayıdış" adlı komandalar üzrə qruplaşdırılıblar. Düşərgə proqramı çərçivəsində gənclər üçün Vətən müharibəsi qazilərinin iştirakı ilə görüş, Qarabağda və Şərqi Zəngəzurda dirçəlişlə bağlı müxtəlif ideyaların və layihələrin müzakirəsi, işğaldan azad edilmiş ərazilərdə könüllülük fəaliyyəti ilə bağlı infosessiyalar, tematik vörkşoplar, intellektual və komanda inkişafına yönəlmiş oyunlar, interaktiv təlimlər, həmçinin ekskursiyalar, asudə vaxtın səmərəli təşkili məqsədilə müxtəlif özfəaliyyətlər, musiqili-əyləncəli proqramlar və idman yarışları həyata keçirilib.

Düşərgə proqramı çərçivəsində iştirakçılar üçün ölkəmizin mədəni mərkəzləri olan Şuşa və Xankəndi şəhərlərinə ekskursiyalar təşkil olunub. Ekskursiyalar zamanı gənclər Qarabağın qədim və zəngin mədəni-tarixi irsi ilə yaxından tanış olmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərini və şəhərlərimizin dirçəlişini yerində müşahidə ediblər. Bu ekskursiya gənclər arasında vətənpərvərlik hisslərinin gücləndirilməsi ilə yanaşı, onlarda bölgənin gələcək inkişaf perspektivləri barədə real təsəvvürlərin formalaşmasına da xidmət edib. Şəhərlərin müasir siması və davam edən sürətli inkişaf prosesi düşərgə iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

# "Könüllülər Yurdu - Azərbaycan" layihəsi başa çatıb



**"ASAN Könüllüləri" Təşkilatının təşkilatçılığı, Azərbaycan Respublikasının Gənclər Fondunun maliyyə dəstəyi ilə həyata keçirilən "Könüllülər Yurdu - Azərbaycan" layihəsi yekunlaşıb.**

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, bağlanış mərasimində Gənclər Fondunun Gənclər təşkilatları ilə iş şöbəsinin müdiri Nail Şükürov və "ASAN Könüllüləri" Təşkilatının sədri Aysiman Quliyeva könüllülüyün təbliğinin əhəmiyyətindən danışıblar. Onlar könüllülərin asudə vaxtlarının səmərəli təşkili, gənclərin fərdi və intellektual inkişafına dəstək, eləcə də ölkəmizdə könüllülük hərəkatının daha geniş vüsət almasının vacibliyini vurğulayıblar.

Sonra layihənin hesabat xarakterli videoçarxı nümayiş olunub və bu çərçivədə fəal iştirak edən şəxslər mükafatlandırılıblar.

"Könüllülər Yurdu - Azərbaycan" layihəsinin əsas məqsədi gənclərin hüquq sahəsində bilik və bacarıqlarını artırmaq, onların hüquqi savadlılığının inkişafı, həmçinin qanunvericilik sistemi və hüquqi mexanizmlər barədə məlumatlılığı genişləndirməkdən ibarət olub.

Layihə ölkənin 10 şəhər və regionunda ümumilikdə 600-ə yaxın gənci əhatə edib.

# Xəzərdə baş verən zəlzələ təhlükəli deyil

## Qurban YETİRMİŞLİ: "Qorxulu heç nə yoxdur"

**Son günlər Xəzər dənizinin Azərbaycan sektorunda qeydə alınan seysmik proseslər ictimaiyyətin diqqət mərkəzindədir. Demək olar ki, hər gün hiss olunan, bəzən isə gün ərzində bir neçə dəfə təkrarlanan yeraltı təkanlar narahatlıq doğurur və "Xəzərdə hansı proseslər gedir?" sualını aktuallaşdırır. Bu hadisələrin intensivliyi və davamlılığı ətrafında yaranan suallar isə yalnız sadə maraq deyil, həm də təhlükəsizlik baxımından ciddi əhəmiyyət daşıyır.**



Yer qabığının dərin qatlarında baş verən bu proseslərin mahiyyəti ilə bağlı müxtəlif ehtimallar irəli sürülür. Bir sıra ekspertlər bunu təbii enerji boşalması kimi qiymətləndirir, digərləri isə daha böyük zəlzələnin ilkin siqnalları ola biləcəyini düşünürlər. Xəzərin regionun mürəkkəb tektonik quruluşu, dəniz dibində çoxsaylı qırılmaların mövcudluğu bu hadisələrin həm gözlənilən, həm də müəyyən mənada sirli görünməsinə səbəb olur. Ardıcıl qeydə alınan təkanların xarakterini düzgün təhlil etmək onların yığılan gərginliyin nəticəsi, yoxsa artıq baş vermiş enerji boşalmasının davamı olduğunu anlamaq baxımından mühüm məsələdir.

Ümumiyyətlə, dəniz akvatoriyalarında baş verən zəlzələlər çox vaxt qurudakı analoji hadisələrdən fərqli xüsusiyyətlərə malik olur. Bu cür təkanlar, adətən, daha böyük dərinliklərdə formalaşdığı üçün onların səthdə yaratdığı dağıdıcı təsir nisbətən zəif olur. Lakin bu, həmin hadisələrin təhlükəsiz olduğu anlamına gəlmir. Əksinə, bir-birini izləyən çoxsaylı zəlzələlər sahilyanı ərazilər, xüsusilə də Abşeron yarımadası üçün daimi nəzarət və müşahidə tələb edir. Gün ərzində bir neçə dəfə hiss olunan təkanlar isə seysmik ocaqların aktiv mərhələdə olduğunu göstərir.

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin (RSXM) baş direktoru Qurban Yetirmişli bildirib ki, aprelin 8-də Xəzər dənizində qeydə alınan 5,3 maqnitudalı zəlzələ əslində regionda mövcud olan bütün tektonik qatları və blokları hərəkətə gətirib. Onun sözlərinə görə, bu hadisədən sonra baş verən çoxsaylı təkanlar təbii prosesin davamıdır və afterşok xarakteri daşıyır.

"Həmin zəlzələdə 500-dən çox təkan baş verib. Bu say heç də az deyil. Güclü enerji boşalması gedib. Ona görə də bu proses hələ davam edəcək. Əhali qorxmasın, bu xırda təkanlardır. İçərisində daha güclü, maqnitudası 5-dən yuxarı olan zəlzələnin başvermə ehtimalı yoxdur. Yalnız 3-5 bal təkanlar müşahidə oluna bilər. Bu təkanlar bəzi hallarda əhali tərəfindən hiss olunsa da, qorxulu heç nə yoxdur. Orada seysmiklik fon səviyyəsinə düşənədək afterşoklar davam edəcək", - deyə mütəxəssis bildirib.

Qurban Yetirmişli həmçinin zəlzələlərin yaranma mexanizmi ilə bağlı da ətraflı izah verib. Onun fikrincə, yerin daxilində baş verən tektonik proseslər olduqca mürəkkəbdir və bu hadisələri anlamaq üçün həmin mexanizmləri düzgün təsəvvür etmək vacibdir: "Yerin daxilində hərəkətdə olan tektonik plitələr var. Bu plitələr daxilində baş verən parçalanmalar kiçik və böyük bloklara bölünür. Onların da öz hərəkətləri var. Orada gedən hərəkətlər nəticəsində tektonik blok qırılmalar plitələri parçalayaraq aralayır. Bunların həm horizontal, həm də vertikal hərəkətləri var. Sıxılma gedir, gərginlik toplanır, güclü parçalanma baş verir. Biz ona zəlzələ ocağı deyirik. Parametrləri müəyyən edirik. Orada enerji ayrılması gedir. Digər tərəfdən də layların genişlənməsi baş verir. O parçalanma nəticəsində laylar dəstəsi düşür. Dalğa formasında bütün mühitə yayılır. Bu tərpənmə nəticəsində xırda parçalanmalar əmələ gəlir. Nəticədə afterşoklar hesabına enerji boşalması gedir".

Bu izahdan da aydın olur ki, zəlzələlər təsadüfi hadisələr deyil, uzun müddət ərzində yığılan tektonik gərginliyin nəticəsidir. Yer qabığında yerləşən plitələr daim hərəkətdədir və bu hərəkət zamanı müxtəlif nöqtələrdə gərginlik yaranır. Müəyyən həddə çatdıqda isə bu gərginlik qəfil boşalaraq zəlzələ şəklində özünü göstərir. Daha sonra isə həmin bölgədə xırda qırılmalar və enerji axını davam etdiyi üçün afterşoklar müşahidə olunur.

Mütəxəssislər qeyd edirlər ki, belə hallarda ən vacib məsələ panikaya qapılmamaq və rəsmi məlumatlara əsaslanmaqdır. Çünki seysmik proseslərin müəyyən mərhələlərində tez-tez təkanların baş verməsi normal sayılır və bu, mütləq şəkildə böyük zəlzələnin yaxınlaşması demək deyil. Əksinə, bu cür aktivlik əksər hallarda artıq baş vermiş güclü təkanın "sönmə mərhələsi" kimi qiymətləndirilir.

Bununla belə, regionun seysmik baxımdan aktiv zonada yerləşdiyini nəzərə alaraq, ehtiyat tədbirlərinin görülməsi də vacibdir. Xüsusilə sahilyanı ərazilərdə yaşayan əhali üçün maarifləndirmə işlərinin aparılması, zəlzələ zamanı davranış qaydalarının təbliği və tikililərin seysmik dayanıqlılığının artırılması əsas prioritetlər sırasında olmalıdır. Müasir şəhərsalma standartları və tikinti normaları da bu baxımdan xüsusi əhəmiyyət daşıyır.

Xəzərin dərinliklərində baş verən bu görünməz proseslər bir daha xatırladır ki, Yer kürəsi canlı bir sistemdir və onun daxilində gedən dəyişikliklər bəzən səthdə hiss olunsa da, əslində daha çox mürəkkəb mexanizmlərin nəticəsidir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Ağdərədə istismar müddəti başa çatmış yararsız döyüş sursatları məhv ediləcək

**Aprelin 13-17-də istismar müddəti başa çatmış və istifadəyə yararsız olan döyüş sursatlarının təhlükəsizlik qaydalarına riayət olunmaqla Ağdərə rayonu ərazisindəki təlim mərkəzində məhv edilməsi prosesi həyata keçiriləcək.**

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin (MN) Mətbuat xidmətindən məlumat verilib.

"Partlayış səsləri ilə əlaqədar əhalini təşvişə düşməməyə çağırır və narahatlığa heç bir əsasın olmadığını diqqətə çatdırırıq", - deyə məlumatda bildirilir.







# Mədəniyyət





**Pedaqoqlarımız**

## Müəllimlər müəllimi

**Tarixən həmişə belə olub: cəmiyyətin inkişafında, gənclərin dünyagörüşlərinin formalaşmasında, həyatda öz yollarını düzgün seçmələrində, elmə, biliyə yiyələnmələrində müəllimlər böyük rol oynayıb. Bütün zamanlarda müəllimlərə cəmiyyətin aparıcı qüvvəsi kimi baxıblar, onlara güvənərək arxalarınca gediblər, dediklərinə əməl ediblər. Cəmiyyət işıqlı sabahını onlara etibar edib.**

Pedaqogika elminin görkəmli nümayəndələrindən biri olan Nurəddin Kazımov da ömrünün 65 ilini müəllimliyə, elmə, xalqının maariflənməsinə, cəmiyyətin inkişafına, gənc nəslin təlim-tərbiyəsinə həsr etmişdir. Yazdığı bir-birindən dəyərli əsərləri ilə yalnız ölkəmizdə deyil, xaricdə də tanınmışdır. Adı həmişə böyük hörmətlə çəkilən Nurəddin müəllim uzun illər Azərbaycan Dillər Universitetinin Pedaqogika kafedrasının rəhbəri olmuşdur. Prezident təqaüdçüsü, Əməkdar elm xadimi, pedaqoji elmlər doktoru, professor Nurəddin Kazımov şərəfli bir ömür yaşamışdır.

Şərəfli ömür yolu keçmiş professor Nurəddin Kazımov 1926-cı il aprelin 28-də Gəncədə dünyaya göz açmışdı. 1933-1943-cü illərdə şəhərdəki III İnternasional adına orta ümumtəhsil məktəbində oxumuşdu. 1945-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Tarix fakültəsinin fəlsəfə şöbəsinə qəbul olmuş, 2 ildən sonra təhsilini davam etdirmək üçün 1947-ci ildə Leninqrad (indiki Sankt-Peterburq) Dövlət Universitetinə göndərilmişdir. Gələcəyin tanınmış elm xadimi olacaq Nurəddin Kazımov 1950-ci ildə Leninqradda ali təhsilini uğurla başa vuraraq işləmək, yazıb-yaratmaq arzusu ilə geri qayıtmışdır.

Ali təhsilli mütəxəssis kimi doğma vətənə qayıtdıqdan sonra Nurəddin Kazımov Nuxa (indiki Şəki) Müəllimlər İnstitutunun Pedaqogika və psixologiya kafedrasında baş müəllim kimi işləməyə başlamışdır. İki il bu vəzifədə çalışdıqdan sonra Bakıya qayıtmışdır. Bir müddət Bakı Vilayət Maarif Şöbəsində məktəb inspektoru, daha sonra isə Azərbaycan SSR Maarif Nazirliyində Ali və orta pedaqoji təhsil şöbəsində inspektor vəzifələrində işləmişdir.

Professor Nurəddin Kazımovun hələ gənclik illərindən elmi-pedaqoji sahəyə böyük maraq və həvəsi var idi. Buna görə də daim oxuyur, araşdırmalar aparır, təhsilini artırırdı. Çox keçmir ki, bu maraq, bu həvəs onu Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunun (indiki Təhsil İnstitutu) aspiranturasına gətirdi. O, 1953-1956-cı illərdə aspiranturada təhsil aldı, peşəkarlığını daha da artırdı.

Təcrübə və peşəkarlığı artdıqca onun fəaliyyət dairəsi də genişlənirdi. Sanki uğur qapıları qarşısında ardıcıllıqla açılırdı. Ali məktəbin rəhbərlik və idarəetmə qaydalarına dərindən bələd olan Nurəddin Kazımov 1957-ci ildə M.F.Axundzadə adına Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunda (indiki Slavyan Universiteti) baş müəllim kimi işləməyə başladı. Qısa müddət ərzində tələbələrin və pedaqoji kollektivin hörmət və rəğbətini qazandı. Bir müddətdən sonra Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunda elmi işlər üzrə direktor müavini, sonra isə direktor vəzifələrində işlədi.

Ötən əsrin 60-cı illəri Nurəddin Kazımovun həyatında və elmi-pedaqoji fəaliyyətində xeyli yaddaqalan oldu. Nurəddin müəllim 1958-ci ildə "Müqayisə haqqında K.D.Uşinskinin fikirləri və məktəb təcrübəsi üçün bunun əhəmiyyəti" mövzusunda dissertasiya müdafiə etdi, pedaqoji elmlər namizədi elmi dərəcəsi aldı. 1969-cu ildə isə "Məktəbdə müqayisə üzərində işin nəzəriyyəsi və təcrübəsi" mövzusunda doktorluq işi müdafiə etdi, professor elmi adını qazandı.

Professor Nurəddin Kazımovun elmi-pedaqoji fəaliyyətinin böyük hissəsi ali məktəb həyatı ilə bağlı olmuşdur. O, 1976-1982-ci illərdə V.İ.Lenin adına APİ-də (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) elmi işlər üzrə prorektor vəzifəsində işləmişdi. Nurəddin müəllim 1984-cü ildən başlayaraq 30 ilə yaxın Azərbaycan Dillər Universitetinin Pedaqogika kafedrasının rəhbəri olmuş, neçə-neçə gəncin elmi işlərinə rəhbərlik etmiş, onlara diqqət və qayğı göstərmişdi. O, geniş elmi fəaliyyəti və dərin araşdırmaları nəticəsində pedaqoji problemlər üzrə bir-birindən dəyərli yeni fikir və nəzəriyyələr formalaşdırmışdı.



Görkəmli alimin yaradıcılıq fəaliyyətinin nəticəsi olan "Nurlu yol", "Tərbiyənin elmi-pedaqoji əsasları", "Pedaqogika" (müştərək), "Ali məktəb pedaqogikası", "Milli pedaqogika yollarında", "Məktəb pedaqogikası", "Məktəb pedaqogikası sxemlərdə", "Azərbaycan milli izahlı ensiklopedik pedaqoji lüğət" (müştərək), "Müqayisənin nəzəri və əməli problemləri", "Pedaqogika kafedrası üzrə təhsil proqramı (kurikulum)" (müştərək), "Mərhələli tərbiyə nəzəriyyəsi", "Pedaqoji ustalığın problemləri", "Tətbiqi pedaqogika", on altı clddən ibarət "Seçilmiş əsərlər" və bir çox digər kitab Nurəddin Kazımovun böyük elm adamı olduğunu aydın şəkildə göstərir. Professorun yazdığı dərslik və dərs vəsaitləri bu gün də ali təhsil müəssisələrində tədris olunur.

Orta ümumtəhsil məktəblərinin III, IV sinifləri üçün "Ana dili" və "Oxu" dərsliklərinin ərsəyə gəlməsində xeyli əmək sərf etmiş görkəmli alim elmi-pedaqoji fəaliyyətini qabaqcıl təhsil təşkilatçısı kimi də şərəflə doğrultmuşdur. O, uzun illər Respublika Pedaqoji Cəmiyyətinin rəhbəri olmuşdur.

Alimin əməyi dövlətimiz tərəfindən zaman-zaman layiqincə qiymətləndirilmişdir. Professor Nurəddin Kazımov səmərəli fəaliyyətinə və elm aləmində qazandığı uğurlara görə "Qabaqcıl maarif xadimi", "SSRİ maarif əlaçısı" döş nişanları, "Şərəf nişanı" ordeni ilə təltif olunmuş, "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. Prezident təqaüdçüsü, Əməkdar elm xadimi, pedaqogika üzrə elmlər doktoru, professor Nurəddin Mustafa oğlu Kazımov 2012-ci ildə Rusiya Təhsil Akademiyasının üzvü seçilmişdir.

Görkəmli elm xadimi Nurəddin Kazımov 6 dekabr 2018-ci ildə 93 yaşında Bakıda vəfat etmişdir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

**Mədəni irsimiz**

## Kiçik səhnədən böyük sənətə

### Bakı Uşaq və Gənclər Teatrının 25 yaşı tamam olur

**Azərbaycanın teatr mədəniyyətində özünəməxsus yeri olan Bakı Uşaq və Gənclər Teatrı 25 ildir həm uşaqların, həm də böyüklərin dünyagörüşünün zənginləşməsinə, incəsənətə olan marağının artmasına xidmət edir. Yarandığı gündən etibarən teatr yalnız səhnə əsərləri təqdim etməklə kifayətlənməyib, eyni zamanda maarifləndirici layihələr, beynəlxalq əməkdaşlıqlar və sosialyönümlü təşəbbüslərlə diqqəti çəkib.**



Teatrın ədəbi dram hissəsinin rəhbəri Leyla Həşimova bildirib ki, teatr Bakı Şəhər İcra Hakimiyyəti başçısının 9 aprel 2001-ci il və Bakı Şəhər Mədəniyyət İdarəsi rəisinin 26 aprel 2002-ci il tarixli sərəncamları ilə 1990-cı ildə əsası İntiqam Soltan tərəfindən qoyulmuş "Körpəm" Eksperimental Uşaq Teatrının bazasında Uşaq Teatrı adı ilə yaradılıb. 2002-ci il mayın 1-dən İntiqam Soltan direktor, bədii rəhbər təyin olunub.

Teatrın ünvanı bir neçə dəfə dəyişib. 2008-ci il mayın 23-dək Dənizkənarı Milli Park ərazisində, həmin il mayın 24-dən 2013-cü il martın 31-dək H.Sarabski adına Mədəniyyət evinin binasında fəaliyyət göstərib. 2013-cü il aprelin 1-dən bu günədək Suraxanı rayon Qaraçuxur qəsəbəsində, Q.Abbasov adına Mədəniyyət evinin üç otağında yerləşir. 2020-ci il yanvarın 21-dən Bakı Uşaq və Gənclər Teatrı adı ilə fəaliyyətini davam etdirir. Leyla Həşimova teatrda 70-ə yaxın əməkdaşın çalışdığını vurğulayır.



Teatrın repertuarı zəngindir. Müsahibimiz qeyd edib ki, teatrda indiyədək 79-u uşaqlar, 37-si böyüklər üçün olmaqla ümumilikdə 116 tamaşa hazırlanıb. Repertuarında olan böyüklər üçün "Vətən", "Heykəl", "Əşxas", "Sevgi şimşəyi", "Sıravi Dursun", uşaqlar üçün "Əyləncəli oyunlar", "Allahın bəlası", "Gücümüz birliyimizdədir", "Üç ayı balası", "Muşək və Muşmuşək", "Fokus-mokus", "Ağıllı Tülkü", "Göyçək Fatma" və başqa tamaşalar teatrsevərlərin rəğbətini qazanıb. Pandemiya dönəmində də teatr tamaşaçılarından ayrı qalmayıb. 150-dən çox videorolik çəkilib və teatrın sosial şəbəkələrində paylaşılıb.

Fəaliyyət göstərdiyi müddətdə özünə böyük sayda tamaşaçı auditoriyası toplayan teatr bir sıra dövlət tədbirlərində və beynəlxalq teatr festivallarında uğurla çıxış edərək diplom və mükafatlara layiq görülüb. Yeri gəlmişkən qeyd edək ki, Bakı Uşaq və Gənclər Teatrı müxtəlif illərdə respublikamızda, eləcə də xarici ölkələrdə - qardaş Türkiyədə, Gürcüstanda, İranda, Rusiyada keçirilən beynəlxalq festivallarda maraqlı tamaşalarla iştirak edib.

Leyla Həşimova teatrın özünün təşkil etdiyi festivallardan da danışıb. Bildirib ki, 2011-ci ildə Azərbaycanda ilk dəfə Bakı Uşaq Teatrında teatrdaxili "Bir aktyor bir tamaşa" adlı mono tamaşalar festivalı keçirilib: "2014-cü ilin martında Beynəlxalq Teatr Günü münasibətilə Bakı Uşaq Teatrının təşəbbüsü və Azərbaycan Teatr Xadimləri İttifaqının təşkilati dəstəyi ilə "Bir teatr, bir festival" layihəsi çərçivəsində "Bizim Teatr" beynəlxalq festivalı keçirilib. 2015-ci ilin martında Bakı Uşaq Teatrının təşəbbüsü ilə "Bizim Teatr-2" festivalı təşkil olunub. 2019-cu ilin aprelində teatr "Bir teatr - bir festival" layihəsi çərçivəsində 3-cü "Bizim teatr" beynəlxalq festivalı keçirib. "Nəsimi ili - Nəsimi dili" adlı festival şair İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunub. 2021-ci ilin martında Bakı Uşaq və Gənclər Teatrı "Bir teatr, bir festival" layihəsi çərçivəsində 4-cü festivalını "Nizami ili"nə həsr edib.

Teatr 2023-cü ilin noyabrında "Bir teatr, bir festival" layihəsi çərçivəsində Qələbəmizin ildönümünə həsr olunmuş "3+3=7" festivalını düzənləyib. 2025-ci il sentyabrın 30-dan Bakı Uşaq və Gənclər Teatrı yeni, Qələbəmizin 5 illiyinə həsr olunmuş layihə reallaşdırır. "Addım-addım Vətəndə" adlanan layihə çərçivəsində kollektiv ayda bir gün Azərbaycanın müxtəlif bölgələrində fəaliyyət göstərən teatr kollektivləri ilə birgə əməkdaşlıq etməklə, "açıq qapı" prinsipi ilə tamaşa və tədbirlər keçirir. Layihənin əsas məqsədi gənc nəsildə vətənpərvərlik hisslərinin yüksəldilməsi, eləcə də bölgə teatrları ilə Bakı Uşaq və Gənclər Teatrının arasında təcrübə mübadiləsi aparmaq, əməkdaşlığı gücləndirmək, regionların mədəni inkişafına dəstək vermək, bölgə tamaşaçıları ilə birbaşa ünsiyyətdə olmaqdır. Layihəyə teatr ilinin sonunda Bakıda bölgə teatrlarının iştirakı ilə festival keçirməklə yekun vurmaq planlaşdırılır.

Bu gün Bakı Uşaq və Gənclər Teatrı maraqlı repertuarı, peşəkar kollektivi və həyata keçirdiyi layihələrlə fəaliyyətini davam etdirir. Teatrın gələcək planları, o cümlədən regionlarla əməkdaşlıq və vətənpərvərlik ruhunu gücləndirməyə yönəlmiş təşəbbüsləri inkişaf yolunun məqsədyönlü olduğunu göstərir. Keçdiyi yol, qazandığı nailiyyətlər sübut edir ki, teatr hələ uzun illər Azərbaycan mədəniyyətinə dəyərli töhfələr verəcək.

*Z.FƏRƏCOVA,*
*"Azərbaycan"*

**Klassiklərimiz**

## Aktyorluq üçün doğulmuşdu

**Onu Azərbaycan teatrsevərləri Sidqi Ruhulla kimi tanıyır. Əgər aktyorluq sənətini seçməsəydi, ömrünü Ruhulla Axundov kimi yaşayacaqdı...**



140 il öncə - 1886-cı il aprelin 9-da Bakı qəzasının Buzovna kəndində dünyaya gəlib. Atası Molla Fətulla Axundov müəllimlik edirdi. Onun elmə, poeziyaya böyük marağı Ruhullanın dünyagörüşünün formalaşmasında müstəsna rol oynayıb. Uşaqlıq çağlarından atasının vurğunluqla oxuduğu klassik Azərbaycan poeziya nümunələri onun yaddaşına həkk olunub. Molla Fətulla çox böyük həvəslə həmin şeirləri oğluna izah etməkdən yorulmayıb.

İllər sonra Ruhulla aktyor, rejissor olub. Ancaq atasının ona seçdiyi sənət başqa idi. Tacir olmalıydı. Molla Fətulla bunun üçün 1903-cü ildə Ruhullanı Bakıda tacir dükanına şagird verib. Ancaq özü oğlunun qəlbində, düşüncələrində elə bir işıq yandırmışdı ki, Ruhulla onun ziyasından uzaqlaşa bilməyib. Odur ki, ticarət işlərinə zərrəcə həvəs göstərməyib. Dükana vaxtlı-vaxtında getməyib, ona ticarətçi olmağı öyrədən tacirin sözlərinə qulaq asmayıb. Kənd müəllimindən ibtidai təhsil almış Ruhulla daha çox oxumaq, öyrənmək istəyib. Bu istək onu başqa bir mühitə çəkib. Ruhulla savadlı gənclərlə yoldaşlıq edib. Dövrün maarifçi və inqilabi ovqatı həmin gəncləri də öz təsirinə salmışdı.



1904-cü ildə atası vəfat edib. Dostları Ruhullaya atasından qalmış ev əşyalarını satmağı, topladığı pulla təhsil almaq üçün Moskvaya getməyi məsləhət görüblər. Onların dediyi kimi edib. Amma Moskvada təhsilini başa vurmaq arzusu ürəyində qalıb. Qohumlarından umduğu maddi köməyi ala bilməyib. Ruhulla təhsilini yarımçıq qoyaraq Moskvadan Bakıya qayıtmalı olub.

Atası kimi qohumları da onun tacir olmasını istəyiblər. Ruhullanı inandırmağa çalışıblar ki, ticarətlə məşğul olsa, maddi cəhətdən çətinliyi olmayacaq, rahat gün-güzəran keçirəcək. Ancaq Bakının inqilab havası bu azad ruhlu gənci daha çox cəlb edib. Ruhulla da 1905-1906-cı illərdə keçirilən tətillərdə iştirak edib.

O, nə arzuladığı təhsili ala bilib, nə də qohumlarının tövsiyəsinə əməl edib tacir olub. 1906-cı ildə istedadlı aktyor Hüseyn Ərəblinski ilə tanışlığı Ruhulla Axundovun həyatında yeni bir səhifə açıb. İlk dəfə "Vəziri xani Lənkəran" tamaşasında Teymur ağa rolunda gördüyü aktyorun ifasına duyduğu heyranlığı qəlbini heç zaman tərk etməyib. Sonralar bu barədə yazıb: "Mən hələ teatr nədir, aktyor nəyə deyərlər bilməzdim. Birinci dəfə məni yoldaşlarımdan biri "Tağıyev teatrı"na apardı. Həmin axşam Mirzə Fətəli Axundovun "Vəzirixani-Sərab" əsəri oynanılacaq idi. Teatrın balkonunda oturub tamaşanın başlanmasını gözləyirdik. Zəng vuruldu. İşıqlar söndü. Birdən divarın bir tərəfi yuxarı qalxış məni təəccübə saldı. Aktyorlardan bir neçəsi oynadıqdan sonra yenə divar aşağı endi. İkinci pərdə başlandı. Bir nəfər oğlan səhnəyə gəldi. Həmin oğlanın oynamağı başqalarından seçilirdi. Bu oğlan Teymur Ağanın rolunu oynayırdı. Onun cəld hərəkətləri, çevikliyi, danışığı məni özünə cəlb etdi. Pərdə endikdən sonra mən yanımdakı yoldaşımdan həmin oğlanın niyə o birilərindən yaxşı oynadığını soruşdum. Yoldaşım "o oğlan əsl artistdir" deyə məni başa saldı, "artist" sözü məndə bir maraq oyatdı. Çünki mən hələ kiçik vaxtımda Buzovna kəndində olarkən şəbih çıxaran şair Saqib mənə: "Sən artistsən" demişdi və mənim də xəyalımdan keçdi ki, "Görəsən, mən də elə artist olarammı?"

O, XX yüzilliyin əvvəlində - teatr aləminə Azərbaycanda aktyorluq sənətini seçənlərin qınandığı, təhdid və təzyiqlərlə üzləşdikləri bir zamanda qədəm qoyub. Belə çətin vaxtlarda teatr səhnəsində qadın rollarını ifa etmək də çox zaman kişi aktyorların öhdəsinə düşürdü. Ruhullanın da ilk rolu Balaxanı dram dərnəyində Hüseyn Ərəblinskinin quruluşunda səhnələşdirilən Nəcəf bəy Vəzirovun "Adı var, özü yox" komediyasında Telli rolu olub. Qeyd edək ki, tamaşanın keçirildiyi tarix bəzi mənbələrdə 1908-ci il dekabr ayının 21-i, bəzilərində isə 1906-cı il yazılıb. Tamaşada dövrün tanınmış aktyorlarından - Əhməd Qəmərlinski, Yusif Ağayev, Xəlil Hüseynov, Yunis Nərimanov, Rza bəy Məlikov və başqaları çıxış ediblər.

Bir müddət Bakının müxtəlif rayonlarında, arabir şəhərdə göstərilən tamaşalarda iştirak edib. Elə ilk, kiçik rolları ilə istedadlı aktyor olduğunu göstərib. Səhnə fəaliyyətinə böyük həvəslə davam edib. O illər teatr sənətinə gələn gənc aktyorların əksəriyyəti üçün Hüseyn Ərəblinski böyük məktəb idi. Ona oxşamaq, Ərəblinski kimi böyük sənətkar olmaq istəyirdilər. Ruhulla Axundov da bir müddət "Sidqi Axundov", "S.Axundov", "A.Sidqi", sonralar "Sidqi Ərəbli", "Ərəbli", "Ruhulla Ərəbli", "Ərəbski" kimi adlarla çıxış edib. Azərbaycanda və Tiflisdə, Volqaboyu şəhərlərdə tanınandan sonra Sidqi Ruhulla kimi çıxış etməyə başlayıb.

1909-cu il aprelin 3-də Hüseyn Ərəblinskinin quruluşunda Bakıda "Dənizçilər klubu"nda nümayiş edilən "Müsibəti Fəxrəddin" faciəsində oynadığı Rüstəm bəy Sidqi Ruhullanın ən uğurlu rollarından olub. Tamaşadan sonra Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, Həsən bəy Zərdabi və başqalarının təbrikini böyük həyacanla, qürurla dinləyib. Sonralar o, "Bəxtsiz cavan"da Musa, "Nadir şah"da Təhmas, "Yəhudilər"də Berezin, "Zorən təbib"də Qətran bəy, "Nadir şah"da Nadir şah, "Müsibəti Fəxrəddin"də Fəxrəddin və başqa rolları uğurla ifa edib.

Sidqi Ruhulla yalnız öz məmləkətində deyil, digər yerlərdə də aktyor kimi tanınıb. Moskva, Sankt-Peterburq, Təbriz, Tehran, Rəşt, Qəzvin, İsfahan, Şiraz, Səmərqənd, Buxara, Aşqabad, Xarkov, Kiyev, Tiflis, Krasnovodsk, Dərbənd, Mahaçqala, Vladiqafqaz, Qroznı, Ufa, Sərab, Ərdəbil, Ənzəli, Kazan, Batumi, Odessa, Rostov, Suxumi, Yalta, Sevastopol, Soçi və başqa şəhərlərdə çıxışları alqışlarla qarşılanıb.

İstedadı kinorejissorların da diqqətindən tamamilə kənarda qalmayıb. Ancaq ona bir neçə filmdə kiçik və ikinci dərəcəli rollar yaratmaq müyəssər olub. Sidqi Ruhulla "Bismillah", "Gilan qızı", "Hacı Qara", "Qızıl kol", "Kəndlilər", "Fətəli xan" filmlərində çəkilib.



Böyük sənətkar müxtəlif illərdə Azərbaycan SSR-in Əməkdar artisti, Azərbaycan SSR-in Xalq artisti, SSRİ Xalq artisti fəxri adlarına, "Stalin" mükafatına, "Lenin" və iki dəfə "Qırmızı əmək bayrağı" ordenlərinə, "Əmək igidliyinə görə" və "Qafqazın müdafiəsinə görə" medallarına layiq görülüb.

Sidqi Ruhulla 1959-cu il mayın 5-də dünyasını dəyişib. Mayın 6-da Akademik Milli Dram Teatrında sənətkarla vida mərasimi təşkil olunub. Böyük aktyor Fəxri xiyabanda dəfn edilib.

O, keçdiyi çətin və keşməkeşli yola baxmayaraq, Azərbaycan teatrının formalaşmasında və inkişafında mühüm rol oynayıb. Uzun illər teatr sənətinə, səhnəyə sədaqətlə xidmət etmiş sənətkarlardan biri kimi yadda qalıb. Yaratdığı bir-birindən maraqlı, fərqli rollarla tamaşaçıların rəğbətini qazanmış aktyor bu gün də zəngin sənət irsi ilə xatırlanır, ehtiramla yad edilir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Moskvada Azərbaycan musiqisi axşamı

**"Moskva" Folklor Mərkəzində Azərbaycan musiqisi axşamı olub, tanınmış ifaçılar geniş konsert proqramı ilə çıxış ediblər.**



AZƏRTAC xəbər verir ki, musiqi proqramını vokalçı Ayna Kərimova təqdim edib. Konsertdə həmçinin vokal ifaçısı Ramilə Rüstəmova, pianoçu Nigar Kərimova, tarzən Emin Namazov, nağara ifaçısı Həzi İsmayılov, klarnetçi Artyom Polyuqa və fleytaçı İvetta Nqaniele iştirak ediblər.

Proqramda Üzeyir bəy Hacıbəyli, Arif Məlikov, Emin Sabitoğlu, Azər Dadaşov, Tofiq Quliyev və digər görkəmli Azərbaycan bəstəkarlarının əsərləri səsləndirilib. Tamaşaçılara həmçinin Nazim Əliverdibəyovun fortepiano və klarnet üçün "Elegiya"sı və Fikrət Əmirovun fortepiano və fleyta üçün əsərləri də daxil olmaqla kamera musiqisi klassiklərinin əsərləri təqdim olunub.

## BEYNƏLXALQ HƏYAT



# İslamabad danışıqları davam edəcəkmi?

## Tərəflər güzəştə gedənə oxşamırlar

**Xəbər verildiyi kimi, Pakistanın paytaxtında keçirilən ilk üzbəüz danışıqlarda ABŞ və İran nümayəndə heyətləri heç bir razılığa gələ bilməyiblər.**

Əslində, vitse-prezident Cey Di Vensin İrandan güzəştlər əldə edə bilməməsi təəccüblü deyildi: görüşdən əvvəl hər iki tərəf o qədər ziddiyyətli açıqlamalar vermişdilər ki, hətta danışıqların mövzusunun dəqiq nə olacağı bəlli deyildi.

Analitiklər qeyd edirlər ki, İslamabad danışıqları fevral ayında Cenevrədə iflasa səbəb olan eyni sxem üzrə dalana dirənib - fərq indi Tehranın əlində güclü silah olan Hörmüz boğazının İranın nüvə proqramına əlavə edilməsidir. İndi Tramp administrasiyası xoşagəlməz variantlar arasında seçimlə üzləşib: Tehranla nüvə proqramının gələcəyi ilə bağlı uzadılmış danışıqlar və ya böyük enerji böhranına səbəb olan müharibənin yenidən başlaması və Hörmüz boğazına nəzarət uğrunda uzunmüddətli mübarizə perspektivi. Bu ssenarilərin hər biri əhəmiyyətli strateji və siyasi mənfi cəhətlərə malikdir.

ABŞ və İran İslamabadda keçirilən danışıqlardan sonra Vens jurnalistlərə deyib ki, "qırmızı xətlərimizin harada olduğunu və hansı güzəştlər edə biləcəyimizi çox aydın şəkildə bildirmişik, lakin onlar şərtlərimizi qəbul etməmək qərarına gəliblər". O, əlavə edib ki, "buradan çox sadə bir təkliflə ayrılırıq: anlamalıdırlar ki, bu, bizim son və ən yaxşı təklifimizdir. Görək, iranlılar bunu qəbul edəcəklərmi?"

ABŞ Prezidenti Donald Tramp İslamabad danışıqlarına sosial media platforması "Truth Social"da iki paylaşımla cavab verib. O, ABŞ-nin "Hörmüz boğazına girməyə və ya çıxmağa çalışan bütün gəmiləri blokada etməyə" başlayacağını və "blokadanın tezliklə başlayacağını" bildirib. Tramp həmçinin "ABŞ Hərbi Dəniz Qüvvələrinə beynəlxalq sularda İrana rüsum ödəmiş hər bir gəmini müəyyən etməyi və saxlamağı əmr etdiyini və ABŞ Hərbi Dəniz Qüvvələrinin iranlılar tərəfindən boğaza qoyulmuş minaları məhv etməyə" başlayacağını yazıb. "İran Hörmüz boğazını açacağına söz verdi, lakin bu vədi qəsdən yerinə yetirmədi", - deyə Tramp bildirib. "Bu, dünyanın bir çox insanı və ölkəsi üçün narahatlıq, pozuntu və əzab yaratdı. Onlar vəd verdikləri üçün bu beynəlxalq su yolunun açılması prosesinə ən qısa zamanda başlamalıdırlar!" Tramp onu da yazıb ki, "görüş yaxşı keçdi, əksər məsələlərdə razılıq əldə edildi, lakin həqiqətən vacib olan nüvə məsələsində heç bir razılıq əldə olunmadı". "Təxminən 20 saatlıq" danışıqlardan sonra "yalnız bir şey vacibdir - İran nüvə ambisiyalarından imtina etməyə hazır deyil!"

Pakistanda keçirilmiş danışıqlara münasibət bildirən İranın xarici işlər naziri Abbas Əraqçi isə bildirib ki, İslamabadda razılaşmanın bir addımlığında onlar həddindən artıq tələblər, daim dəyişən məqsədlər və blokada təhlükəsi ilə üzləşiblər. Əraqçi bu açıqlamanı Amerikanın X şirkətinin sosial media hesabında verib. Onun sözlərinə görə, İran müharibəyə son qoymaq üçün ABŞ ilə xoş niyyətlə danışıqlara başlayıb. "Görünür, heç bir dərs çıxarılmayıb. Xoşməramlıq xoşməramlıq, düşmənçilik isə düşmənçilik yaradır", - deyə Əraqçi əlavə edib.

Son məlumata görə, ABŞ Mərkəzi Komandanlığı (CENTCOM) İran limanlarına daxil olan və ya çıxan bütün gəmilərə qarşı dəniz blokadası elan edib. Bəyanatda deyilir: "Prezident Donald Trampın göstərişinə uyğun olaraq, CENTCOM qüvvələri 13 aprel Şərq vaxtı ilə saat 10:00-dan etibarən İran limanlarına daxil olan və çıxan bütün dəniz nəqliyyatına qarşı blokadanı tətbiq etməyə başlayacaq".

Onlar tədbirlərin Fars körfəzi və Oman körfəzi də daxil olmaqla, İran limanlarına daxil olan və ya çıxan istənilən ölkənin bütün gəmilərinə "neytral" tətbiq ediləcəyini vurğulayıblar. Həmçinin CENTCOM qüvvələrinin İran xaricindəki limanlara gedən və ya çıxan gəmilərin Hörmüz boğazından keçməsinə mane olmayacağı da aydınlaşdırılıb.

"The Wall Street Journal" (WSJ) qəzeti yazır ki, İslamabadda keçirilən danışıqlardan sonra ABŞ və İran arasında razılaşma əldə olunmasa da, diplomatiya qapıları açıq qalır və danışıqların ikinci mərhələsi bir neçə gün ərzində baş tuta bilər. Nəşr qeyd edir ki, regional ölkələr ABŞ və İranı danışıqlar masasına qaytarmaq üçün səylərini davam etdirirlər. Qeyd olunur ki, danışıqlarda əsas mübahisəli məqamlar Hörmüz boğazından pulsuz gəmiçiliyin bərpası, İranda nüvə proqramının gələcəyi və Tehranın dondurulmuş aktivlərinin azad edilməsidir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Macarıstan "Tisza"ya səs verdi

## Orban və onun "Fides" Partiyası fəaliyyətini müxalifətdə davam etdirəcək

**Macarıstanda keçirilən seçkilərin nəticələrindən sonra Peter Madyarın müxalifətdəki "Tisza" Partiyası nəinki qalib gəlib, həm də parlamentdə konstitusiya çoxluğunu təmin edib. 16 ildir hakimiyyətdə olan Baş nazir Viktor Orban və onun "Fides" Partiyası artıq məğlubiyyətini etiraf edib və müxalifətdə işlərini davam etdirəcəklərini açıqlayıb.**



Macarıstanda parlament seçkiləri həm proporsional, həm mojaritor qaydada keçirilib. Dünən səhərə olan məlumata görə, bülletenlərin təxminən 99 faizi sayıldıqdan sonra "Tisza" Partiyası 199 yerdən 138-ni alıb. Bu da o deməkdir ki, parlamentdə konstitusiya çoxluğunu təmin edib. Hazırkı Baş nazir Viktor Orbanın hakim "Fides" Partiyası 55 yer qazanıb. İfrat sağçı "Mi Hazank" ("Bizim Vətənimiz") Partiyası isə 6 yer alıb. Məlumat üçün bildirək ki, Macarıstan qanununa görə, parlamentdə yer almaq üçün partiyalar 5 faiz həddini keçməlidir.

Səslərin son sayılması şənbə günündən - aprelin 18-dən gec olmayaraq başa çatdırılmalıdır. Amma bunu gözləmədən Viktor Orban artıq Madyarı qələbəsi münasibətilə təbrik etdiyini açıqlayıb. O, seçki nəticələrinin aydın olduğunu deyib, onları ağrılı adlandırıb və "Fides"in Macarıstana müxalifətdə xidmət edəcəyini bildirib.

Budapeştin mərkəzində tərəfdarları üçün keçirilən qələbə mitinqində çıxış edən Madyar izdihamın alqışları altında bəyan edib: "Biz bunu etdik". O, "Tisza" və Macarıstanın seçkilərdə birlikdə qalib gəldiyini söyləyib. "Tisza" liderinin sözlərinə görə, demokratik Macarıstanın tarixində heç vaxt bu qədər seçici səsverməyə gəlməyib. Həqiqətən də, səsvermə məntəqələrinin bağlanmasından 2 saat əvvəl seçkilərdə rekord səviyyədə seçici fəallığının olduğu - 74,23 faizə çatdığı elan edilib.

Qələbə çıxışında Madyar həmçinin bildirib ki, səsvermə macarların Avropaya "hə" dediyini göstərir. O, izdihama bildirib ki, yeni hökumətin görüləsi çox işi var və hər kəsi sabah ölkənin "sağalmasına" başlamazdan əvvəl bu gün nəticələri dinc şəkildə qeyd etməyə çağırıb.

Avropa liderləri Peter Madyarın qələbəsini alqışlayıblar. "Bu gecə Macarıstanda Avropanın ürəyi daha güclü döyünür", - deyə Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen sosial mediada yazıb. "Macarıstan qərarını verdi", - deyə Almaniya Kansleri Fridrix Merz bildirib və "güclü, təhlükəsiz və hər şeydən əvvəl vahid Avropa naminə" Peter Madyarla əməkdaşlığa ümid etdiyini vurğulayıb. Fransa Prezidenti Emmanuel Makronun sözlərinə görə, seçkilərin nəticələri "macar xalqının Avropa İttifaqı dəyərlərinə və Macarıstanın Avropadakı yerinə sadiqliyini" nümayiş etdirir. İspaniya Prezidenti Pedro Sançes də bu fikri təkrarlayıb. Böyük Britaniyanın Baş naziri Kir Starmer də Peter Madyarı təbrik edərək onun seçki qələbəsini "təkcə Macarıstan üçün deyil, həm də Avropa demokratiyası üçün tarixi bir an" adlandırıb. Ukrayna Prezidenti Volodimir Zelenski isə Madyarı qələbəsi münasibətilə belə təbrik edib:"Ukrayna həmişə bütün Avropa ölkələri ilə mehriban qonşuluq münasibətləri axtarıb və biz Macarıstanla əməkdaşlığı inkişaf etdirməyə hazırıq. Kiyev hər iki xalqın rifahı naminə görüşlərə və birgə konstruktiv işə hazırdır".

*R.CƏFƏROV,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" qəzetinə *abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



## BİLDİRİŞ

Bakı şəhərində fəaliyyət göstərən "Azərbaycan Hospitaliti" Qapalı Səhmdar Cəmiyyəti (VÖEN: 1700917591, hüquqi ünvan: AZ1095, Bakı şəhəri, Səbail rayonu, Azadlıq prospekti, ev 674) təşkilati-hüquqi formasını dəyişərək "Azərbaycan Hospitaliti" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrildiyini və bu səbəbdən bütün qiymətli kağızların (səhmlərin) dövriyyədən çıxarıldığını elan edir. Qiymətli kağızların dövlət qeydiyyat nömrəsi AZ1001008908, adi adlı səhm, nominal dəyəri 1,0 (bir) AZN, ümumi miqdarı 2000 (iki min) ədəd təşkil edir. Qiymətli kağızların geri satın alınması nəzərdə tutulmamışdır.

***Rəhbərlik***


# Süni intellekt 800-ə yaxın peşəni təhdid edir

**Son illərdə süni intellekt texnologiyalarının sürətli inkişafı əmək bazarının gələcəyi ilə bağlı müzakirələri daha da aktuallaşdırıb. Araşdırmalar göstərir ki, bu dəyişikliklər təkcə texnoloji sahələrlə məhdudlaşmır, eyni zamanda yüksək ixtisas və yüksək maaş tələb edən peşələri də əhatə edir. Aparılan tədqiqatlara əsasən, yaxın 2-5 il ərzində milyonlarla insanın iş yeri süni intellektin təsiri altına düşə bilər.**



ABŞ-nin Tufts Universitetinin tədqiqatçıları tərəfindən hazırlanmış "Amerika Süni İntellekt İş Risk İndeksi" bu sahədə ən geniş və sistemli yanaşmalardan biri hesab olunur. Bu indeks müxtəlif peşələri süni intellektin yaratdığı risk səviyyəsinə görə sıralayır və nəticələr göstərir ki, təxminən 9 milyon iş yeri yaxın illərdə yerdəyişmə riski ilə üz-üzə qala bilər. Araşdırma çərçivəsində 800-ə yaxın peşə qiymətləndirilib və onların hər birinə xüsusi "təsir balı" verilib.

Ən diqqətçəkən məqamlardan biri odur ki, risk altında olan peşələrin əksəriyyəti ənənəvi olaraq prestijli və yüksək gəlirli sahələrdir. Kompüter proqramçıları, veb-dizaynerlər, maliyyə planlaşdırıcıları, alimlər, yazıçılar və jurnalistlər siyahının yuxarı hissəsində yer alır. Bu isə uzun illərdir mövcud olan avtomatlaşdırmanın əsasən aşağı ixtisaslı işləri əvəz etməsi fikrini sarsıdır.

Tufts Universitetinin qlobal biznes üzrə dekanı Bhaskar Çakravorti bu məsələ ilə bağlı bildirib ki, süni intellekt artıq yalnız rutin və təkrarlanan işləri deyil, həm də analitik düşüncə və idrak tələb edən peşələri hədəf alır. Onun sözlərinə görə, gələcəyin əmək bazarında üstünlük qazanacaq insanlar yalnız texniki biliklərə deyil, eyni zamanda tənqidi düşüncə, insan mühakiməsi və süni intellektlə işləmə bacarıqlarına sahib olmalıdırlar.

Maraqlıdır ki, süni intellektin ən az təsir etdiyi peşələr əsasən fiziki əməyə əsaslanan işlərdir. Dam örtüyü ustaları, qaynaqçılar, mədənçilər, maşın operatorları və ət qablaşdırma sahəsində çalışan işçilər kimi peşələrdə avtomatlaşdırma riski çox aşağıdır. Bunun əsas səbəbi bu işlərin dəyişkən mühitdə həyata keçirilməsi və yüksək fiziki çeviklik tələb etməsidir. Digər tərəfdən, ABŞ senatoru Bernie Sanders tərəfindən təqdim olunan hesabatda vəziyyət daha da dramatik şəkildə təsvir olunur. Hesabata görə, süni intellekt və avtomatlaşdırma növbəti on il ərzində ölkədə 100 milyona yaxın iş yerini sıradan çıxara bilər. Bu rəqəm, əlbəttə, ən pessimist proqnozlardan biri hesab olunur, lakin ümumi tendensiyanın nə qədər ciddi olduğunu göstərir.

Süni intellektin əmək bazarına təsiri yalnız peşələr üzrə deyil, coğrafi baxımdan da qeyri-bərabər paylanır. Araşdırmalar göstərir ki, ən böyük risk şəhər mərkəzlərində və universitet şəhərciklərində çalışan insanlar üçün mövcuddur. Xüsusilə Kaliforniya, Nyu York, Texas, Florida və İllinoys kimi ştatlar süni intellektlə bağlı iş yerlərinin itirilməsi baxımından ön sıralarda yer alır. Bu isə gələcəkdə sosial və siyasi nəticələrə səbəb ola bilər.

Süni intellektin təsiri ilə bağlı müzakirələrdə səhiyyə sektoru xüsusi yer tutur. Analitiklər bildirirlər ki, mövcud texnologiyalar artıq radiologiya sahəsində mütəxəssisləri əvəz edə biləcək səviyyəyə çatıb. Süni intellekt xüsusilə görüntüləmə analizində ilkin qiymətləndirmələri həyata keçirərək yalnız şübhəli halları həkimlərə yönləndirə bilər. Lakin bu yanaşma tibbi ictimaiyyət tərəfindən ciddi tənqid olunub. Hələ də ciddi səhvlər edən süni intellekt sistemləri insan həyatı üçün təhlükə yarada bilər. Stanford Universitetində aparılan bir araşdırmaya görə, bəzi süni intellekt modelləri real görüntüləri analiz etmədən belə inandırıcı, lakin düzgün olmayan nəticələr təqdim edir. Bütün bunlar süni intellektin səhiyyədə tam əvəzləyici deyil, daha çox köməkçi rol oynadığını göstərir. Həkimlərin klinik təcrübəsi, intuisiya və xəstəni bütöv şəkildə dəyərləndirmə bacarığı hələ də əvəzolunmazdır.

Bununla yanaşı, süni intellektin səhiyyədə istifadəsi sürətlə artır. Aparılan araşdırmalara görə, 2023-cü ildə həkimlərin 38 faizi süni intellektdən istifadə edirdisə, 2024-cü ildə bu göstərici 66 faizə yüksəlib. Həkimlər bu texnologiyadan əsasən məlumatların təhlili, tibbi qeydlərin idarə olunması və görüntülərin ilkin qiymətləndirilməsi üçün istifadə edirlər.

Əmək bazarında baş verən bu dəyişikliklər ali təhsil müəssisələri üçün də yeni çağırışlar yaradır. Ekspertlər bildirirlər ki, universitetlər artıq ənənəvi tədris modelləri ilə kifayətlənə bilməz və tələbələri yeni reallıqlara hazırlamalıdır. Əks halda məzunlar sürətlə dəyişən əmək bazarında rəqabət qabiliyyətini itirə bilərlər.

Əmək bazarı üzrə mütəxəssislər hesab edirlər ki, süni intellekt səbəbindən iş yerlərinin itirilməsi qaçılmazdır, lakin bu proses eyni zamanda yeni imkanlar da yaradır. Yeni peşələr yaranacaq, mövcud peşələr isə transformasiya olunacaq. Bu baxımdan əsas məsələ uyğunlaşma qabiliyyətidir.

Süni intellekt əmək bazarında dərin və çoxşaxəli dəyişikliklər yaradır. Bu dəyişikliklər yalnız müəyyən peşələri deyil, bütövlükdə iqtisadi və sosial strukturları təsir altına alır. Ən böyük risk isə dəyişikliklərə vaxtında uyğunlaşa bilməyənlər üçün yaranır.

Gələcəyin əmək bazarında uğur qazanmaq üçün insanlar yalnız ixtisas bilikləri ilə kifayətlənməməli, eyni zamanda öyrənməyi öyrənməli, çevik olmalı və texnologiya ilə əməkdaşlıq etməyi bacarmalıdırlar. Süni intellektin yaratdığı risklər nə qədər böyük olsa da, düzgün yanaşma ilə bu riskləri fürsətə çevirmək mümkündür.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


## "RESPUBLİKA DİAQNOSTİKA MƏRKƏZİ" ASC-nin səhmdarlarının nəzərinə

"RESPUBLİKA DİAQNOSTİKA MƏRKƏZİ" ASC (VÖEN: 1300143511) 12 iyun 2026-cı il saat 15:00-da səhmdarların illik ümumi yığıncağını keçirəcək.

Səhmdarların ümumi yığıncağı zamanı gündəliyə çıxarılacaq məsələlər:

1. Cəmiyyətin 2025-ci il üzrə "İllik hesabat"ının, mənfəət və xərc hesabatının təsdiq edilməsi;
2. 2026-cı ildə görüləcək işlərin və digər məsələlərin müzakirəsi.

**Ünvan: Bakı şəhəri, Tbilisi prospekti, 147, İnzibati bina, 2-ci mərtəbə**
**Telefon: (050) 873 78 70**

***Rəhbərlik***


## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramova əzizi

**VİDADİ BAYRAMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramova əzizi

**VİDADİ BAYRAMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Vüsal Nəsirli və agentliyin kollektivi Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramova əzizi

**VİDADİ BAYRAMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3718**
**Sifariş 481**

**Qiyməti 60 qəpik**